RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 145 (9312) 14 İYUL 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

Heydər Əliyev İli - 2023



## 54 illik şərəfli missiya

**Əxlaqi-mənəvi mədəniyyət praktik mənəviyyatı şərtləndirir. Mənəvi mədəniyyət cəmiyyətin, hər hansı sosial qrupun qazandığı mənəvi inkişaf ölçüsüdür. Bu ölçü mənimsənilmiş və insan fəaliyyətində realizə olunan mənəvi sərvətlərlə xarakterizə olunur. Mənəviyyat kimi mənəvi mədəniyyət də mənəvi şüuru, əxlaqi münasibətləri və mənəvi fəaliyyəti əhatə edir.**

Əxlaqi-mənəvi mədəniyyət bütün mənəvi təsəvvürlər və normalar sistemini deyil, cəmiyyətin insanlar tərəfindən mənimsədiyi mənəvi təcrübənin bir hissəsini, əxlaqi-etik biliklərin yalnız praktik olaraq həyata keçirilən həcmini əhatə edir. Əxlaqi-mənəvi mədəniyyətin bu iki səviyyəsi qarşılıqlı şəkildə əlaqədardır. Cəmiyyətin mənəvi inkişaf səviyyəsi bir çox hallarda şəxsiyyətin mənəvi mədəniyyətinin kamilliyi ilə müəyyən edilir. Digər tərəfdən, vətəndaş cəmiyyətinin mənəvi mədəniyyəti nə qədər zəngin olsa, fərdin mənəvi mədəniyyətinin kamilləşməsi üçün bir o qədər çox imkan yaranır.

Ümummilli Lider Heydər Əliyev mənəvi tərbiyədə, yüksək mənəviyyat tərbiyəsində ümumbəşəri dəyərlərlə yanaşı, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin mənimsənilməsinə birinci dərəcəli yer verirdi. "Gənclərimiz milli ruhda tərbiyə olunmalı, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq: budur vətənpərvərlik", - deyə Ulu Öndər bildirmişdir.

→ 3



# 8 şəhər, 22 qəsəbə və kənd...

### Qurucu lider İlham Əliyev indiyə qədər Qarabağ və Şərqi Zəngəzurda 30 yaşayış məntəqəsinin təməlini qoyub

**"Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura biz təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsini təmin edəcəyik".**

İyulun 11-də Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirildi və sözügedən müşavirədəki çıxışında dövlət başçısı qeyd etdi ki, gələn ilin investisiya proqramı hazırlananda Qarabağın və Şərqi Zəngəzurun investisiya xərclərinə də baxılacaq və elə etməliyik ki, maliyyə qıtlığı ucbatından vaxt itirməyək.

Prezidentin də söylədiyi kimi, dövlətimiz qarşısına qoyduğu milli prioriteti - Böyük qayıdışı layiqincə və sürətli şəkildə həyata keçirmək üçün Qarabağ və Şərqi Zəngəzurda nəhəng layihələr həyata keçirir.

Tarixi torpaqlarda gerçəkləşdirilən bütün işləri öz maliyyə hesabına reallaşdıran ölkəmizin büdcə siyasətinin qarşısında duran əsas çağırış da azad edilən ərazilərimizin bərpasıdır.

→ 7

## Azərbaycan Ermənistandan fərqli olaraq sülh gündəliyinə sadiqdir

### Antoni Blinken İlham Əliyevə zəng edib



İyulun 12-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında Antoni Blinken ölkəsinin Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə müzakirələrə davamlı dəstəyini ifadə edib, danışıqlar prosesində yaradıcı və qarşılıqlı güzəştlərə əsaslanan yanaşmanın vacibliyini bildirib. O, Laçın sərhəd-gömrük buraxılış məntəqəsi vasitəsilə keçidin önəmini vurğulayaraq dayanıqlı sülhün əldə edilməsi üçün danışıqlardakı müsbət dinamikanın saxlanmasının əhəmiyyətinə toxunub.

Prezident İlham Əliyev Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması məqsədi daşıyan sülh gündəliyinə sadiqliyini və iki ölkə arasında sülh müqaviləsinin təşəbbüskarı olaraq onun imzalanmasını dəstəklədiyini vurğulayıb. Dövlətimizin başçısı Antoni Blinkenin və ABŞ hökumətinin iki ölkə arasında sülh gündəliyinin irəli aparılmasına göstərdiyi davamlı dəstəyinin yüksək qiymətləndirildiyini qeyd edib və yaxın günlərdə Ermənistan tərəfi ilə yüksək səviyyədə növbəti görüşün keçiriləcəyini bildirib.

Prezident İlham Əliyev Laçın sərhəd-gömrük buraxılış məntəqəsi vasitəsilə humanitar yüklərin, fərdi keçidlərin və tibbi təxliyənin normal qaydada təşkil olunmasına baxmayaraq, iyunun 15-də Ermənistan tərəfindən törədilmiş silahlı təxribatı və Beynəlxalq Qırmızı Xaç Komitəsinin müşayiəti ilə həyata keçirilən humanitar daşımalarda qaçaqmalçılıq hallarının aşkar edildiyini diqqətə çatdırıb və bu xüsusda araşdırmaların aparıldığını vurğulayıb.

*Prezidentin Mətbuat Xidməti*

## "Ənənəvi dostluq əlaqələrimizi möhkəmləndirmək üçün birgə səylərimizi davam etdirəcəyik"

### Monteneqronun Prezidenti zati-aliləri cənab Yakov Milatoviçə

Hörmətli cənab Prezident!

Monteneqronun milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan-Monteneqro dövlətlərarası əlaqələrinin inkişaf dinamikası bizi sevindirir. Bu gün ölkələrimiz arasında münasibətlərin, bir sıra sahələrdə, xüsusilə də energetika və nəqliyyat sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanlar vardır.

İnanıram ki, ənənəvi dostluq əlaqələrimizi möhkəmləndirmək, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monteneqro xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2023-cü il*

## Prezident İlham Əliyev İsrailin müdafiə nazirini qəbul edib



**İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsrail Dövlətinin müdafiə naziri Yoav Qallantı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Yoav Qallant İsrailin Baş naziri Benyamin Netanyahunun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İsrailin Baş nazirinə çatdırmağı xahiş etdi.

Söhbət zamanı dövlətimizin başçısı ilə İsrailin müdafiə naziri arasında bu il Münhendə keçirilən görüş xatırlandı.

İkitərəfli münasibətlərin inkişafından, o cümlədən hərbi-texniki sahədə əməkdaşlıqdan məmnunluq ifadə edildi. İsrail Prezidenti İsxak Hersoqun Azərbaycana səfərinin əlaqələrimizin inkişafında rolu qeyd olundu.

Görüşdə Azərbaycanın İsraildə səfirliyinin açılmasının əməkdaşlığın genişləndirilməsi baxımından önəmi vurğulandı.

## Hərbi qüdrətimizin artırılması və Böyük qayıdış proqramının icrası əsas prioritetlərdir

2023-cü ilin ötən altı ayının yekunlarına əsasən, ölkəmizin uğurları ilk növbədə qeyri-neft sektorunun inkişafı, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda aparılan irimiqyaslı bərpa və yenidənqurma işləri, davamlı sosial və iqtisadi islahatların aparılması və nəticələrində əks olunur. Ümumilikdə qeyri-neft sektoru 3 faizdən çox artmış, qeyri-neft sənayesində isə artım 6,5 faiz olmuşdur. Bu il rekord, yəni 33 milyard manat səviyyəsində olan dövlət büdcəsinə ilin ilk yarısında daha 3 milyard manat əlavə daxil olması nəticəsində dövlət büdcəsi 36 milyard manata yüksəlmişdir. 3 milyard əlavə vəsait ölkədə aparılan islahatlar nəticəsində maliyyə intizamının gücləndirilməsi, şəffaflığın yüksəldilməsi, vergi və gömrük yığımlarının artması hesabına əmələ gəlmişdir.

→ 7

## Azərbaycan əhalisinin sayı 10 milyon 148 min 57 nəfər təşkil edib

**Əhalinin son siyahıyaalınmasının nəticəsi əsasında yenidən hesablanmış əhalinin sayı 2023-cü il iyun ayının 1-i vəziyyətinə 10 milyon 148 min 57 nəfər təşkil edib.**



AZƏRTAC Dövlət Statistika Komitəsinə istinadla bildirir ki, əhalinin 54,6 faizi şəhər, 45,4 faizi kənd sakinlərindən, 49,8 faizi kişilər, 50,2 faizi isə qadınlardan ibarətdir.

## Qanunsuz erməni silahlıları mövqelərimiz qarşısında fortifikasiya qurğuları quraşdırmağa cəhd göstəriblər

İyulun 13-ü saat 11:15-də və saat 14:10-da Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri ordumuzun Ağdam və Kəlbəcər rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

## "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1288; 2018, № 8, maddə 1765) 1-ci hissəsi ilə yaradılmış Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya və Komissiyanın Katibliyinin tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Azərbaycan Respublikasının maliyyə naziri

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri

İqtisadi İslahatların Təhlili və Kommunikasiyası Mərkəzinin icraçı direktoru

Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin icraçı direktoru

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti

**Komissiyanın Katibliyinin rəhbəri**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyul 2023-cü il*

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaradılmasının 25 illiyi münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaradılmasının 25 illiyi münasibətilə **qərara alıram:**

Məhkəmə orqanlarında və dövlət qulluğunda səmərəli fəaliyyət göstərdiklərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Salmanova Sona Sadıx qızı

Qvaladze Rafael Sergeyeviç

Quliyev Rauf Rəhim oğlu

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Qaracayev Ceyhun Yasinəli oğlu

Şəfiyev Kamran Rauf oğlu

**"Tərəqqi" medalı ilə**

Babayev Anar Şahlar oğlu

Cəfərov Anar Əli oğlu

İbrahimov Sarıbəy Davud oğlu

Məmmədova Dürdanə Mirzə qızı

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Quliyev Zaur Ağayar oğlu

Məmmədov Əsgər Allahverdi oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyul 2023-cü il*

## İstanbulda "İş dünyası - 100 ilin zirvəsi" adlı biznes-forum-sərgi keçirilib







**İstanbul şəhərində "İş dünyası - 100 ilin zirvəsi" adlı biznes-forum-sərgi keçirilib.**

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA), Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin (MÜSİAD) tərəfdaşlığı, KOB Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) və "MÜSİAD Azərbaycan"ın təşkilatçılığı ilə keçirilən tədbir Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə və Türkiyə Respublikasının 100 illiyinə həsr olunub.

KOBİA-dan AZƏRTAC-a bildirilib ki, tədbirin məqsədi Azərbaycan və Türkiyənin KOB subyektləri arasında əməkdaşlığın genişləndirilməsi, şirkətlər arasında təcrübə mübadiləsi, yerli şirkətlərin məhsul və xidmətlərinin tanıdılması ilə satış imkanlarının genişləndirilməsi, mövcud investisiya imkanlarının təqdim edilməsidir.

Panel müzakirələr formatında təşkil olunan tədbirdə MÜSİAD-ın sədri Mahmut Asmalı, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, Türkiyənin Kiçik və Orta Müəssisələrin İnkişafı və Dəstəklənməsi Təşkilatının (KOSGEB) sədri Hasan Basri Kurt, Azərbaycanın İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun rəhbəri Yusif Abdullayev, Azərbaycanın Türkiyədə ticarət nümayəndəsi Tamerlan Tağıyev, Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyinin (TÜİB) sədri Hüseyn Büyükfırat, Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) İdarə Heyətinin sədri Cemal Yanqın, "MÜSİAD Azərbaycan"ın sədri Rəşad Cabirli və "PWN İstanbul" təşkilatının nümayəndəsi Aylin Olsun Azərbaycan-Türkiyə iqtisadi-ticarət əlaqələri, əməkdaşlıq perspektivləri, potensial investisiya imkanları barədə çıxış ediblər.

Sonra iştirakçılar tədbir çərçivəsində təşkil olunan sərgi ilə tanış olublar. Sərgidə kənd təsərrüfatı, İKT, tikinti və inşaat, xidmət, daşınmaz əmlak, turizm və hotelçilik, qida sənayesi, mebel istehsalı, reklam və poliqrafiya sahələrində fəaliyyət göstərən Azərbaycan və Türkiyə şirkətlərinin məhsul və xidmətləri nümayiş olunub.

Tədbir iş adamları arasında ikitərəfli görüşlərlə davam edib.

Sərgi iyulun 14-dək davam edəcək.

## Gədəbəyin Söyüdlü kəndində vəziyyətin araşdırılması üçün yaradılmış komissiyanın ikinci iclası keçirilib




**İyulun 13-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun yanında Gədəbəy rayonunun Söyüdlü kəndində vəziyyətin araşdırılması üçün Nazirlər Kabinetinin 2023-cü il 21 iyun tarixli Sərəncamı ilə yaradılmış komissiyanın ikinci iclası keçirilib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Baş nazir Əli Əsədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Gədəbəy rayonunun Söyüdlü kəndində iyunun 20-də yaranmış narahatedici və xoşagəlməz hadisə ilə əlaqədar monitorinqlərin aparılması və mövcud vəziyyətin qiymətləndirilməsi üzrə komissiyanın fəaliyyətinə dair iradlar bildirərək müvafiq tapşırıq verib. Həmin tapşırığın təxirə salınmadan icrası ilə əlaqədar komissiyada aşağıdakı məsələlərə baxılıb.

Komissiyanın sədri, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Söyüdlü kəndində tullantıxana sahəsində və ətraf ərazilərdə aparılmış monitorinqlərin nəticələri barədə geniş məlumat verib.

Baş nazir Ə.Əsədov Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən şirkətin fəaliyyət göstərdiyi ərazidə 2018-ci ildən bəri monitorinqin aparılmamasını ciddi nöqsan adlandırıb. Bildirilib ki, nazirlik öz səlahiyyətlərinə aid olan dövlət nəzarət funksiyalarını layiqincə yerinə yetirməyib.

Baş nazir icra hakimiyyəti orqanları ilə razılaşdırılmadan tullantı anbarında müxtəlif illərdə üç dəfə inşaat işlərinin aparılması, tullantı su anbarının tikintisinə dair layihə sənədlərinin ekspertizadan keçirilməməsi, bəndin dayanıqlığının qiymətləndirilməsinin aparılmaması, tullantı anbarının istismar imkanlarının artırılması ilə əlaqədar şirkət qarşısında heç bir tələbin qoyulmaması, tullantı sularını nəql edən boruların sanitar-mühafizə zonasının müəyyənləşdirilməməsi, məhdudlaşdırıcı hasarların çəkilməməsi, boru xətti boyu və tullantıxana sahəsində məlumatverici və qadağanedici lövhələrin quraşdırılmaması və digər nöqsanların ciddi araşdırılması və aradan qaldırılması ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinə və Fövqəladə Hallar Nazirliyinə tapşırıqlar verib.

Qeyd olunub ki, ərazidə fəaliyyət göstərən müəssisədə ekoloji və geoloji auditin aparılması məqsədilə beynəlxalq şirkət müəyyənləşdirilərək dəvət edilib və onun nümayəndələrinin yaxın günlərdə ölkəmizə səfəri gözlənilir. Bu şirkət tərəfindən ətraf mühit, təhlükəsizlik və sağlamlıq məsələləri qiymətləndiriləcək.

İclasda həmçinin komissiya üzvlərinin aparılan monitorinqlərin nəticələrinə dair məruzələri dinlənilib.

Səhiyyə nazirinin müavini Nadir Zeynalov bildirib ki, Söyüdlü kəndində və müəssisə ətrafında yerləşən yaşayış məntəqələrində müvafiq müayinələr və monitorinqlər aparılır.

Kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov qeyd edib ki, Söyüdlü kəndində və ətraf ərazilərdə heyvan sağlamlığı, arıçılıq, bitkiçilik, bitki mühafizəsi və torpaq münbitliyi sahələrində monitorinqlər həyata keçirilib, kompleks müşahidələr aparılıb, örüş-otlaq sahələrinin və təsərrüfatların mövcud vəziyyəti qiymətləndirilib.

Baş nazir aparılan monitorinqlərin daha da sərtləşdirilməsi və mütəmadi qaydada keçirilməsi ilə bağlı tapşırıqlarını verib.

Ə.Əsədov Söyüdlüdə təbiətə, insanların sağlamlığına yaranmış təhlükəni nəzərə alaraq şirkətin fəaliyyətinin müvəqqəti olaraq dayandırılması ilə bağlı qərar qəbul etdiyini deyib.

Cəlb edilmiş beynəlxalq şirkət tərəfindən aparılacaq qiymətləndirilmənin nəticələrinə və veriləcək tövsiyələrə uyğun olaraq işini təşkil edəcəyi təqdirdə müəssisənin fəaliyyətinin bərpası məsələsinə baxıla bilər.

Baş nazir qeyd edib ki, ərazidə fəaliyyət göstərən şirkət tərəfindən növbəti dövrdə istehsalatda müasir texnika və yeni texnologiyaların tətbiqi təmin edilməlidir. Bildirilib ki, bu müddət ərzində müəssisə müəyyən edilən bütün nöqsanları aradan qaldırmalı, fəaliyyətini müvafiq qanunvericiliyin tələblərinə uyğun qurmalı, o cümlədən işçilər qarşısında sosial öhdəliklərini yerinə yetirməlidir.

Vurğulanıb ki, beynəlxalq şirkətlər cəlb edilməklə mövcud tullantı anbarı və gölün bəndinin dayanıqlığının yoxlanılması və istifadə imkanlarının qiymətləndirilməsi, həmçinin ərazidə fəaliyyət göstərən şirkətin sosial-korporativ öhdəlikləri çərçivəsində yerli icmalarla münasibətlərin yaxşılaşdırılması, habelə bütün digər məsələlərin həllində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəhbərliyi və komissiyaya üzv olan dövlət qurumlarının iştirakı ilə əlaqələndirilmiş şəkildə ciddi və mütəmadi iş aparılmalıdır. Eyni zamanda Səhiyyə Nazirliyinə aidiyyəti üzrə daimi nəzarətin həyata keçirilməsi və kənd əhalisinin, o cümlədən müəssisədə çalışan əməkdaşların vaxtaşırı dispanserizasiya olunmalarının təmin edilməsi ilə bağlı göstəriş verilib.

Baş nazir komissiya üzvlərinin yaxın günlərdə Söyüdlü kəndinə bir daha səfər etmələri ilə bağlı tapşırıq verib, kənd sakinlərinin müraciətlərinin ən ciddi şəkildə araşdırılmasının davam etdirilməsinin zəruriliyini vurğulayıb.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 226** **QƏRAR** **Bakı şəhəri,11 iyul 2023-cü il**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər barədə" 2002-ci il 7 noyabr tarixli 174 nömrəli, "Lisenziya blanklarının və əlavələrinin hazırlanmasına sifarişin verilməsi, onların bölgüsünün həyata keçirilməsi, blanklardan istifadənin uçotunun və hesabatının aparılması Qaydası"nın və lisenziya, ümumi lisenziya, xüsusi lisenziya blanklarının və əlavələrinin formalarının təsdiq edilməsi haqqında" 2016-cı il 5 avqust tarixli 295 nömrəli və "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 770-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 7 noyabr tarixli 174 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 11, maddə 676; 2004, № 2, maddə 115; 2005, № 9, maddə 860, № 12, maddə 1234; 2006, № 2, maddələr 204, 205, № 9, maddə 822, № 12, maddə 1159; 2007, № 8, maddələr 849, 857, № 10, maddə 1025; 2008, № 1, maddə 37, № 10, maddə 928, № 12, maddələr 1110, 1114; 2009, № 1, maddələr 22, 32, № 2, maddə 156, № 4, maddə 279, № 8, maddə 670, № 9, maddələr 739, 754, № 12, maddə 1078; 2010, № 3, maddə 264; 2011, № 1, maddə 63; 2012, № 9, maddə 931; 2013, № 2, maddə 203,№ 6, maddə 735; 2014, № 10, maddə 1290; 2015, № 5, maddə 608, № 12, maddə 1567; 2016, № 1, maddə 179, № 4, maddə 807, № 9, maddə 1585; 2018, № 8, maddə 1817, № 12 (II kitab), maddə 2737; 2019, № 12, maddə 2091; 2020, № 6, maddə 794; 2022, № 5, maddə 558, № 8, maddə 1022) ilə təsdiq edilmiş "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 11-ci hissədə "Rabitə" sözü "Telekommunikasiya və poçt rabitəsi" sözləri ilə əvəz edilsin;

1.2. 11.8-ci bənddə "rabitə" sözü "telekommunikasiya" sözü ilə əvəz edilsin.

2. "Lisenziya blanklarının və əlavələrinin hazırlanmasına sifarişin verilməsi, onların bölgüsünün həyata keçirilməsi, blanklardan istifadənin uçotunun və hesabatının aparılması Qaydası"nın və lienziya, ümumi lisenziya, xüsusi lisenziya blanklarının və əlavələrinin formalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 avqust tarixli 295 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1433; 2017, № 8, maddə 1627) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 8-ci hissədə "rabitə" sözü "telekommunikasiya" sözü ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 9 nömrəli Əlavə - "Sellülar (mobil) rabitə xidmətlərinə (texnoloji standartın adı göstərilməklə) lisenziya" blankının formasının adında "rabitə" sözü "telekommunikasiya" sözü ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222, № 10, maddə 1273, № 11, maddələr 1403, 1408, № 12 (V kitab), maddələr 1589, 1597; 2021, № 2, maddə 203, № 3, maddələr 278, 288, 293, 300, 302, № 4, maddələr 395, 399, 404, 416, 417, 418, № 6 (IV kitab), maddə 695, № 7, maddələr 871, 874, № 8, maddələr 966, 973, № 9, maddə 1064, № 10, maddələr 1181, 1187, 1192, № 11, maddələr 1256, 1274, 1280, 1283; 2022, № 1, maddələr 53, 70, № 4, maddələr 377, 388, 398, 415, № 5, maddə 577, № 7, maddə 811, № 8, maddə 1026, № 9, maddələr 1085, 1101, № 10, maddə 1210, № 12, maddə 1552; 2023, № 2, maddə 320, № 4, maddə 588; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 26 may tarixli 170 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatı" üzrə:

3.1.1. 222300-cü paraqrafda "Rabitə" sözü "Telekommunikasiya və poçt rabitəsi" sözləri ilə əvəz edilsin;

3.1.2. 222320-ci maddəyə "Poçt" sözündən sonra "rabitəsi" sözü əlavə edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə" üzrə:

3.2.1. "222000. "İş və xidmətlərin alınması" köməkçi bölməsində "Rabitə" sözü "Telekommunikasiya və poçt rabitəsi" sözləri ilə əvəz edilsin;

3.2.2. "222200. "Kommunal xidmətlərin haqqının ödənilməsi" paraqrafında "rabitə, poçt" sözləri "telekommunikasiya və poçt rabitəsi" sözləri ilə əvəz edilsin;

3.2.3. "222300. "Rabitə xidmətləri haqqının ödənilməsi" paraqrafında "Rabitə" sözü "Telekommunikasiya və poçt rabitəsi" sözləri ilə əvəz edilsin və həmin paraqrafa "Poçt" sözündən sonra "rabitəsi" sözü əlavə edilsin;

3.2.4. "222320. "Poçt xidmətləri haqqının ödənilməsi" maddəsinə "Poçt" sözündən sonra "rabitəsi" sözü əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***



## Heydər Əliyev İli 2023



# 54 illik şərəfli missiya

*Əvvəli 1-ci səh.*

Heydər Əliyev milli-mənəvi dəyərlər və vətənpərvərlik hissinin qarşılıqlı əlaqəsinə böyük əhəmiyyət verirdi. L.N.Qumilyov yazır ki, milli-mənəvi, əxlaqi sahədə bu qazanılanlar "imperativə" çevrilir və zamanca "passizm" adlanan duyğu formasını qazanır. Bunun mahiyyəti ondan ibarətdir ki, etnik birliyin hər bir fəal qurucusu özünü əcdadlarının tutduğu xəttin davamçısı və ona nə isə əlavə edəcək şəxs kimi hiss edir. Yeni nə isə edilən bir şey onu ifadə edir ki, keçmiş itməmiş və o, insanın özündədir və odur ki, ona nə isə əlavə etməyə dəyər. Bununla da keçmiş itmədən indidə toplanır və gələcəyə doğru hərəkət edərək yaşayır. İnsanların vətəndaş cəmiyyətinə, hüquqi dövlətə və bir-birinə olan münasibətlərini tənzimləyən əsas vasitələrdən biri əxlaqi-mənəvi mədəniyyətdir. Ənənəvi cəmiyyətlərdə əxlaqi-mənəvi mədəniyyətin formalaşmasını, mənəvi tərbiyə funksiyasını din yerinə yetirir. Ənənəvi cəmiyyətlərin dağılması demokratik-hüquqi dövlət və vətəndaş cəmiyyətinin yaranması zamanı bu vəzifəni rasional əxlaq yerinə yetirir.

"Heydər Əliyev ili" çərçivəsində böyük dövlət adamı müxtəlif rakurslardan araşdırılır, onun barəsində çoxlu yazılar yazılır. Dahi şəxsiyyətin fenomeni bitib-tükənməz bir xəzinə olduğu üçün üfüqdə hələ yeni baxış bucaqlarının şahidi olacağımız şübhə doğurmur. Tarixi şəxsiyyətin fəaliyyətinin ən maraqlı dövrlərindən biri də SSRİ-də böyük səs-küyə səbəb olmuş birinci hakimiyyəti dövrüdür. Heydər Əliyevin birinici hakimiyyət dönəmi kimi Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış 1960-1970-ci illəri ölkəmizin həyatında intibah dövrü adlandırsaq, yanılmarıq. Həmin dövrü xarakterizə etmək üçün SSRİ-də olan proseslərə diqqət etmək zəruridir. Stalinin ölümündən sonra SSRİ-də şəxsiyyətə pərəstişin zərərləri haqqında açıq danışılırdı. Nikita Xruşşovun hakimiyyətə gəlməsi ictimai-siyasi mühitdə qismən loyallıq yaratmışdı. Bu, müttəfiq respublikalara da sirayət edirdi. Belə şəraitdə artıq Azərbaycanda ictimai-siyasi mühitdə canlanma yaranmışdı. Ədəbiyyatımızda özünəməxsus yeri olan 60-cılar nəsli məhz bu dövrdə təşəkkül tapmağa başlamışdı. Belə bir mühitdə Azərbaycan ziyalısına sahib çıxacaq, onu himayə edərək qoruyacaq milli vətənpərvər bir siyasi liderə ehtiyac var idi. Bu şəxsiyyət Uca Allahın hökmü ilə Azərbaycana bəxş edilmiş böyük dövlət adamı Heydər Əliyev idi. Heydər Əliyevin böyüdüyü Naxçıvan mühiti Azərbaycan ədəbiyyatına Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Əziz Şərif və onlarla başqa şəxsiyyətləri bəxş etmişdir. Belə bir ziyalı mühitindən çıxmış Heydər Əliyev artıq 1950-ci illərin ortalarında Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində rəhbər vəzifə tuturdu. Heydər Əliyevin DTK-də rəhbər vəzifə tutması ilə həmin dövrə qədər yalnız qeyri-millətlərdən təşkil olunan xüsusi xidmət orqanlarına milli kadrların yerləşdirilməsinə başlanıldı. Həmçinin milli vətənpərvər ziyalıların himayə edilməsi qabarıq şəkildə özünü göstərdi. Akademik Ziya Bünyadov, eks-prezident Ə.Elçibəy, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, Abbas Zamanov və digər ziyalılar ayrı-ayrı vaxtlarda öz müsahibələrində bu məsələyə toxunmuşlar.

Həmin dövrdə Qarabağın Azərbaycandan alınması ilə bağlı proseslərin genişlənməsi heç kimə sirr deyil. Heydər Əliyev Qarabağ məsələsi ilə bağlı ziyalıları qəbul edərkən həmin dövr barəsində maraqlı məlumatlar verərək bildirmişdi ki, 1967-ci ildə o, DTK-nin sədri olarkən Xankəndidə avtomobilə benzin tökərək 3 nəfər azərbaycanlı gənci vəhşicəsinə qətlə yetirmişdilər. DTK-nin sədri kimi bu hadisələri araşdırmaq üçün 15 gün orada qaldığını deyən Heydər Əliyev qeyd edirdi ki, həmin dövrlərdə də ermənilər Qarabağla bağlı iddia qaldırmış, lakin müxtəlif vasitələrlə onların qarşısı alınmışdır. Heydər Əliyevin Qarabağ problemi ilə bağlı açıqladığı bir fakt isə ziyalıların təəccübünə səbəb olmuşdu. Çünki bu barədə Heydər Əliyev ilk dəfə danışırdı. Heydər Əliyev deyirdi: "1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul olunurdu. Konstitusiya komissiyası təyin olunmuşdu, onun sədri Brejnev idi, biz komissiyanın üzvləri idik. Mən Azərbaycan nümayəndəsi idim. Vaxtaşırı komissiyanın müzakirələri keçirdi. Bunları da o vaxt Mərkəzi Komitənin katibi vardı - akademik Ponomaryov, o aparırdı. Brejnev o qədər iştirak eləmirdi. Bir dəfə mən Moskvaya, komissiyanın iclasına gəldim. Gördüm, xeyli ərizə gəlib ki, "Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb Ermənistana vermək lazımdır".

Gördüm ki, Ponomaryov deyir bunu komissiyanın müzakirəsinə qoymaq lazımdır - ermənilər ona da təsir göstərirdilər. Elə bu faktın özü ki, komissiyanın müzakirəsinə buraxılsın, başa düşürsünüzmü, bu nə deməkdir? Hələ komissiyanın iclasından bir gün qabaq mən buna nə qədər etiraz elədim, gördüm yox... Yenə də getdim rəhmətlik Brejnevin yanına. Ona dedim ki, bu nədir, belə şey ola bilməz! O, telefonu götürüb Ponomaryova zəng elədi ki, çıxar onu".

### SSRİ-də Heydər Əliyev epoxası

Heydər Əliyevin 14 iyul 1969-cu il tarixdə Azərbaycan Kommunist Partiyasının Birinci katibi seçilməsi və plenumda çıxışı SSRİ-ni silkələdi. Heydər Əliyev plenumda sovetlər birliyindəki çatışmazlıqlardan danışdı. SSRİ-də rüşvətxorluğun olması barəsindəki fikirləri isə ittifaq rəhbərliyində şok effekti yaratdı. Heydər Əliyevin çıxışı xarici radiostansiyaların manşet xəbərinə çevrildi. Bu, SSRİ rəhbərliyini narahat etməyə bilməzdi. Lakin Heydər Əliyev öz mövqeyindən geri çəkilmədi. O, əqidəsinə sadiq şəxsiyyət idi. O, bütün hallarda insanları vicdan normaları ilə yaşamağa səsləyirdi. Qapalı sovet mühitində bunu etməyin nə demək olduğunu o dövrü yaşamış hər kəs başa düşür. Həmin dövrün hakim ideologiyası kommunist ideologiyası idi. Heydər Əliyev kimi irimiqyaslı siyasi xadim təbii ki, öz mənəvi-əxlaqi dəyərlər sistemini yaradan konsepsiyasını hakim ideologiyanın pərdəsi altında vermək zorunda idi.

Heydər Əliyev fenomeninin sirri nədə idi? Sovet partiya xadimlərindən onu nə fərqləndirirdi? Stereotipləri dağıtması onu fərqləndirən əsas səciyyəvi xüsusiyyət idi. O, eyniliklərin dalınca getmirdi. İdeoloji quruluşun naqisliklərini cəsarətlə tənqid edirdi. Təbii ki, yeknəsəkliyin, ideoloji boşluğun olduğu bir sovet mühitində Heydər Əliyev kimi orijinal fikirli, özünəməxsus bir siyasi lider qısa müddətdə fenomenə çevrildi. O, öz şəxsi nümunəsi ilə əqidəsini ortalığa qoydu.

### Ən gözəl nümunə şəxsi nümunədir

Heydər Əliyev sovetlər dönəmində Azərbaycana rəhbərlik edərkən övladları öz yaşıdları ilə birlikdə sadə bir həyat tərzi keçirir, sinif yoldaşlarından heç nə ilə fərqlənmirdilər. Heydər Əliyev vəzifədən sui-istifadə edərək özünə dəbdəbəli həyat tərzi keçirən şəxslərlə mübarizə aparırdı. Bu baxımdan Heydər Əliyevin "Vicdanımızın normaları ilə" adlı tarixi müsahibəsində maraqlı məqamlar yer almaqdadır. O vaxt neft sənayesi sahəsində vəzifə daşıyan bir şəxsin toy şənliyi bütün SSRİ-yə səs salmışdı. Müxbirin Heydər Əliyevə bu mövzuda sualına cavabında Ulu Öndər vətəndaşları sadəliyə və vicdan norması ilə yaşamağa səsləmişdi: "Bəli, o hadisə ictimaiyyətin nəzərini cəlb etmiş və bizi bu cür halların təbiəti üzərində dönə-dönə düşünməyə vadar etmişdi. Təsəvvür edin: Bakının neft rayonunda fabrik mətbəxi bir neçə gün müştərilərin üzünə bağlanmışdı. Ona görə ki, burada təmtəraqlı toya hazırlıq görülürdü, sonra isə toy edilmişdi. Yüzlərlə qonaq toplaşmışdı, bir çoxları nə bəyi tanıyırdı, nə də bir-birini. Şəhərin bəzi məşhur işçiləri, alimlər, incəsənət xadimləri bir növ "toy generalları" rolunda idilər. Orkestr gurlayır, dinamiklər deyilən sağlıqları ətrafa yayırdı. Aşağıda, kiçik bir meydançada xudmani köşədə hər kəsin öz rütbəsinə və vəzifəsinə görə hansı məbləğdə hədiyyə gətirdiyi dəqiqliklə hesablanırdı. "Xalq ənənəsi" budurmu! Bir sözlə, toyun miqyası, dəbdəbəsi, toy sahiblərinin lovğa bəy ədaları bütün şəhərə səs salmışdı: baxın, görün biz nə qədər varlıyıq, nə qədər hörmətli, nə qədər səxavətli, nə qədər adlı-sanlıyıq. Təntənənin səbəbkarı, partiya uzvlüyünə namizəd, Artyomneft idarəsi komsomol komitəsi katibinin muavini, atası isə birliyin baş direktorunun muavini idi, bu böyük idarənin bütün ticarət və ictimai iaşə müəssisələri, o cümlədən adı çəkilən fabrik mətbəxi onun ixtiyarında idi. Yeri gəlmişkən, deyim ki, bəzi dairələrdə belə bir "xəstəlik" çox geniş yayılmışdır: başqalarının qarşısında öz qəlbinin genişliyi ilə, öz alicənablığı, əmək yaradıcılığı ilə deyil, müftəxorluğu, "kara gələn" tanış və dostları ilə, kimi isə haraya isə "düzəltmək", dəbdəbəli mənzil, "qıt" mal "tapmaq" qabiliyyəti ilə öyünmək, özlərini gözə soxmaq xəstəliyi. Görürsən ki, ikimərtəbəli bağ imarəti, maşın bəziləri üçün həyatda müvəffəqiyyətin meyarına çevrilir, az qala göylərdə günəşə bərabər tutulur. Güman edirlər ki, bunun xatirinə vicdansızlıq da etmək olar, bahalı "hədiyyə" də qəbul etmək olar, göz qabağında azğınlıq edən qəddar fırıldaqçıları "görməmək" də olar... Belə olduqda adamda partiyalılıqdan nə qalır?"

1 avqust 1979-cu ildə "Pravda" qəzetində müsahibəsində Heydər Əliyev hər kəsi vicdanın norması ilə yaşamağa dəvət edir. Heydər Əliyev deyir: "Yaxud başqa bir misal. Həddən artıq övladcanlı və səxavətli olan bəzi valideynlər öz yeniyetmə uşaqlarına bahalı hədiyyələr, çoxlu pul verir, maşın alır. Ömründə öz zəhməti ilə bir qəpik pul qazanmamış gənc atasının bağışladığı "Volqa"ya minib əda ilə ali məktəbə gəlir, o ali məktəbə ki, oraya da onu adlı-sanlı atası "düzəltmişdir".

Bu həmin dövr idi ki, SSRİ artıq kommunizm quruculuğunu elan etməyə hazırlaşırdı. Belə bir dövrdə sovet quruluşunun nöqsanlarını açıq şəkildə söyləmək cəsarət tələb edirdi. Heydər Əliyevdən uzun illər insanlarda hansı keyfiyyətə daha çox üstünlük verdiyini soruşduqda, o, hər şeyi sonradan öyrənmək olar, lakin insanda iki xüsusiyyət var ki, bunu sonradan öyrənmək mümkün deyil, bu cəsarət və sədaqətdir söyləmşdir. Heydər Əliyevin insanlarda görmək istədiyi bu iki xüsusiyyətin ən bariz nümunəsi məhz onun özündə ən parlaq şəkildə təzahür edirdi. Onun cəsarətinin mayasını da məhz vicdan normaları ilə yaşamaq təşkil edirdi. Bu səbəbdən hələ sovetlər birliyi dönəmində bütün neqativ halları cəsarətlə tənqid edən böyük dövlət adamı insanları öz vicdanlarının senzurasından keçməyə çağırırdı.

Neqativ üsullarla institut auditoriyalarına girən savadsız şəxslərin cəmiyyət üçün yararsız adam olacaqlarını bilən Heydər Əliyev respublikaya birinci hakimiyyəti dönəmində təhsilə xüsusi yer vermişdi. Peşəkar kadrların hazırlanmasına diqqət ayıran Heydər Əliyev ali təhsil sahəsində köklü dəyişikliklər etmişdi. Təsadüfi deyildir ki, 5 avqust 1969-cu il tarixli məşhur plenumda ən çox tənqid hədəfi olan məsələlərdən biri məhz ali təhsil ocaqlarında kök salmış mənfi halları idi.

Məhz Heydər Əliyevin təşəbbüsü ilə keçmiş SSRİ-nin 170-dən çox nüfuzlu ali təhsil müəssisəsində respublikamızın ayrı-ayrı sahələrini əhatə edən 250-dən çox ixtisas üzrə 15 mindən artıq gəncin ali təhsil almasına, yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan yaradıldı. Təhsil almağa göndərilənlər arasında daha çox sadə ailələrdən olan gənclərə üstünlük verilirdi.

Heydər Əliyev kommunist partiyası sıralarına öz şəxsi mənfəətlərini əldə etmək üçün qəbul olunmaq istəyən şəxsləri ciddi tənqid edərək bildirirdi: "Hər halda unutmayaq ki, yeniliyin köhnəliklə mübarizəsi boş bir yerdə getmir. İdeoloji cəbhənin xətti, adətən, deyildiyi kimi, adamların şüurundan və qəlbindən keçir. Mənə elə gəlir ki, burada hərbi terminologiyanın işlədilməsi təsadüfi deyildir. Müharibədə necə, burada da elə. O yerdə ki, biz zəiflik göstəririk, formalizmə və laqeydliyə yol veririk, orada bəzən köhnəlik canlanır, qənimətçi, mənsəbpərəst, fırıldaqçı baş qaldırır. İndi təsəvvür edin ki, sizinlə bizim diqqətsizliyimiz üzündən belə bir adam partiya bileti alır. Axı bu adam xalqın öz doğma partiyasına, onun kollektivdəki nümayəndələrinə bəslədiyi hədsiz hörmət və etimaddan öz faydası üçün istifadə etməkdən çəkinməyəcəkdir. Həm də Sov.İKP MK-nin qərarında deyildiyi kimi, çalışacaqdır ki, cəmiyyətə heç nə verməyib, özü cəmiyyətdən mümkün qədər daha çox şey qoparsın".

Heydər Əliyevin dilindən səsləndirilmiş bu fikirlər müasir dəyərlər rakursunda çox sadə görünə bilər. Lakin Azərbaycan kimi SSRİ miqyasında elə də aparıcı mövqeyə malik olmayan müttəfiq respublikanın rəhbəri tərəfindən SSRİ-nin ən aparıcı mətbuat orqanı olan "Pravda" qəzetində sovet adamlarını vicdanın normaları ilə yaşamağa çağırmaq cəsarət tələb edirdi.

Əqidə, mənəviyyat məsələlərində dövrün ehkamlarını və ideoloji gerçəkliklərini nəzərə almadan məsələlərə diletanat qiymət verən "tədqiqatçılar" unudurlar ki, cümhuriyyət dövrünün alovlu tərəfdarı, dahi Azərbaycan yazıçısı Cəfər Cabbarlı sonralar Azərbaycan sovet dramaturgiyasının banisi olmaqla sovet dövründə çox böyük ədəbiyyat nümunələri yaratdı.

Heydər Əliyev xoşbəxt siyasətçi idi ki, sovetlər birliyi dönəmində Azərbaycana rəhbərlik etməsinə baxmayaraq, Azərbaycanın müstəqilliyinin bayraqdarı oldu, müstəqil Azərbaycan dövlətinə rəhbərlik etdi.

Heydər Əliyevin müstəqillik dönəmində fəaliyyəti zamanı mənəvi-əxlaqi dəyərləri daha qabarıq şəkildə üzə çıxmağa başladı. Ulu Öndər 27 iyun 1998-ci ildə Respublika sarayında qaçqınlar və məcburi köçkünlərin məsələsinə həsr edilmiş müşavirə zamanı çıxışında məmur özbaşınalığına toxunaraq deyirdi: "Beləliklə, ayrı-ayrı adamların vəzifədən sui-istifadə etməsi və humanitar yardımların mənimsənilməsi halları aşkar olunubdur. İndi materiallar prokurorluqdadır. Baş prokuror burada məruzə etdi. Cinayətkarlar cinayət məsuliyyətinə cəlb olunubdur və cəzalarını çəkməlidirlər. Heç kəsə bu yolda güzəşt olmamalıdır. Bilirsiniz, şübhəsiz ki, bu hallar birinci növbədə bizi, dövləti narahat edir. Ancaq bizim işlərimizə zidd olan ayrı-ayrı qüvvələr də bunlardan istifadə edib şişirdirlər və problem yaradırlar. Baş prokuror burada məruzə etdi ki, guya, müxalifət düşərgəsində duran bəzi adamlar hətta ABŞ-yə məlumat verirlər ki, gələn humanitar yardımın yarısı hökumət tərəfindən mənimsənilir. Axı bu qədər də yalan, vicdansızlıq, insafsızlıq ola bilməz! Onlar bunu xəbər verərək təklif edirlər ki, Azərbaycana humanitar yardım göndərməyin. Xalqa nə qədər xəyanət etmək olar? Həmin bu adamlar hələ demək olar ki, bəlkə də siyasətin nə olduğunu bilmədikləri vaxtda Heydər Əliyev Azərbaycanda 1969-cu ildən başlayaraq korrupsiya ilə, ayrı-ayrı vəzifəli şəxslərin vəzifədən sui-istifadə etməsi ilə, dövlət əmlakının, xalqın əmlakının mənimsənilməsi halları ilə ardıcıl mübarizə aparıb və bu mübarizənin nəticəsində də çox işlər görülübdür. Mən bu mübarizəni prezident kimi bu gün də aparıram, sabah da aparacağam. Bu, ən əvvəl, mənim şəxsi mənəviyyatımla bağlıdır. Mən vəzifəsindən sui-istifadə edən, başqasının malını mənimsəyən, özünə cinayət yolu ilə mal, sərvət toplayan adamlara həyatım boyu, həmişə nifrət etmişəm, onlarla həmişə mübarizə aparmışam, həmişə mənəvi saflığımı qorumuşam və mənəvi saflıq uğrunda mübarizə aparmışam. Mənim şüurlu həyatımın demək olar ki, əlli ildən çox hissəsi buna həsr olunubdur, mən bu yoldan heç vaxt dönməmişəm və dönməyəcəyəm. Korrupsiya ilə, cinayətkarlıqla, cürbəcür mənfi işlərlə məşğul olan adamlar indi gəlib Azərbaycanda özlərini "ədalət müdafiəçisi", yaxud da "təmizlik müdafiəçisi" kimi qələmə vermək istəyirlər. Bu heç vaxt alınmayacaqdır. Bu heç vaxt mümkün deyildir. Sizlərə heç kim inanmaz. Çünki inandırmağa əsasınız yoxdur. Amma mənim əsasım vardır. Yenə də deyirəm, bu əsasımın da əlli ildən artıq tarixi vardır. Bu mövqedə olaraq, bu mənəviyyatla yaşayaraq mən bu gün də bütün dövlət, hökumət orqanlarından qəti tələb edirəm ki, cinayətkarlıqla mübarizə gücləndirilsin, hökumət, dövlət adamlarının vəzifəsindən sui-istifadə etməsi hallarının qarşısı alınsın və o cümlədən qaçqınlara, köçkünlərə aid olan məsələlərdə bu hallarla daha da kəskin mübarizə aparılsın. Ümumiyyətlə, hesab edirəm ki, cinayətkarı bağışlamaq olmaz. Ancaq kimisə, haradasa - əgər günahını başa düşübsə - əfv etmək olar. Bilirsiniz ki, mən çoxlarını əfv etmişəm. Ancaq bu gün də, gələcəkdə də deyirəm ki, qaçqın malına, köçkün malına, humanitar yardıma əl uzadan adamın əli kəsilməlidir. Bu adamlar qanunun tələbləri ilə, ən yüksək maddələri ilə cəzalanmalıdırlar".

Biz televiziya ekranları qarşısında görürdük ki, Heydər Əliyev məmurları vicdanlı olmağa dəvət edir, onları dəbdəbəli ad günləri, toy şənlikləri keçirməkdən, öz var-dövlətlərini nümayiş etdirməkdən çəkinməyə çağırırdı. Heydər Əliyev özünün qeyd etdiyi kimi, həmişə mənəvi saflığını qoruyaraq "Ən gözəl nümunə şəxsi nümunədir" prinsipinə sadiq qalmışdır. Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev həmişə sadə geyimləri və təvazökar davranışları ilə nümunə olmuşlar. Məmur özbaşınalığına qarşı mübarizə isə hər ikisinin ən çox mübarizə apardığı sahə olub.

### Prezident İlham Əliyev məmur özbaşınalığı ilə barışmazdır

Prezident İlham Əliyev 12 fevral 2013-cü ildə "Regionların 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda sərt bəyanatlarla çıxış edib. Prezident məmurları təvazökar olmağa çağırıb, vəzifəli şəxslərin ailə üzvlərini cəmiyyətdə bərqərar olmuş yüksək ali dəyərlərə dəvət edib: "Vəzifəli şəxslərin uşaqları qudurğanlığa yol verirlər, insanları təhqir edirlər, özlərini apara bilmirlər. Kim onlara bu statusu verib? Onların güvəndiyi adamları mən təyin eləmişəm vəzifəyə, mən də lazım bildikdə çıxaracağam. Əgər bir də bilsəm ki, kiminsə ailə üzvü xuliqanlıq edib, özünü apara bilmir, o adam həbs ediləcək, atası işdən qovulacaq".

Həmçinin həmin toplantıda dövlət başçısı bəyan edib ki, sahibkarları rayonlarda həyata keçirilən işlərə məcburi qaydada cəlb etmək yolverilməzdir: "Hər bir rayonun oz büdcəsi var. Prezidentin ehtiyat fondundan da mütəmadi qaydada vəsait ayrılır. Bu vəsaitlə iş görmək lazımdır. Sahibkarları bu işlərə cəlb etmək lazım deyil. Kim istəyir kömək eləsin, amma bəzi hallarda onları məcbur edirlər. Sahibkarlar böyük həcmdə xərc çəkirlər, sonra da onların pulunu vermirlər. Belə olmaz. Əgər kimsə fikirləşirsə ki, bu məlumatlar mənə çatmır, səhv edir. Bütün məlumatlar mənə çatır. Bir daha deyirəm, bütün icra başçıları bilsinlər, sahibkarları incidən cəzalandırılacaq".

Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana 6 aprel 2018-ci ildə verdiyi müsahibədə maraqlı məqama toxunaraq deyirdi: "Mən regionlarda çox tez-tez oluram. İlk vaxtlar yerli rəhbərlər fikirləşirdilər ki, Prezident gəldi, tapşırıqlar verdi, bir də haçan buraya gələcək. Mən isə yarım ildən sonra bir də, daha yarım ildən sonra bir də gedirdim".

Ölkə rəhbəri bildirirdi ki, onun regionlara ardıcıl səfərlərindən sonra yerlərdəki rəhbərlər başa düşdülər ki, qərarları yerinə yetirmək və öz işini Prezident oraya səfər edəndən-edənə deyil, hər gün görmək lazımdır.

Prezident İlham Əliyev 3 iyun 2020-ci ildə Ağcabədidə "ASAN Həyat" kompleksinin açılışında çıxışı zamanı demişdi ki, məmur özbaşınalığı ilə bağlı hər bir siqnal araşdırılacaq: "Mənim ünvanıma gələn minlərlə məktubda korrupsiya, rüşvətxorluq ilə bağlı bizim mübarizə çox yüksək qiymətə layiq görülür. Vətəndaşlar bunu təqdir edir, bəyənir və biz görürük ki, yerlərdən artıq siqnallar gəlməyə başlayır. Mən bir daha demək istəyirəm ki, mütləq ictimai nəzarət olmalıdır".

Dövlət başçısı vətəndaşları da məsuliyyətli olmağa çağıraraq əlavə etmişdi. "Təbii ki, bu siqnallar ədalətli olmalıdır. Burada da hansısa qarayaxma kampaniyasına yol vermək olmaz və kortəbii yanaşmaq olmaz. Hər bir siqnal ciddi araşdırılacaq. Çünki istisna deyil ki, kimsə yalandan ortalığa bir məlumat ata bilər, kiminsə kimdənsə xoşu gəlmir, onun haqqında nəsə yaza bilər, belə hallar da var. Ona görə ilk növbədə ədalət və ictimai nəzarət təmin edilməlidir. Əminəm ki, biz korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə də qalib gələcəyik".

Böyük dövlət adamı Heydər Əliyev və Müzəffər Ali Baş Komandan İlham Əliyev arasındakı paralellər eyni uğurla mənəvi-əxlaqi dəyərlər sisteminə münasibətdə də özünü ən parlaq formada təzahür edir. Bütövlükdə cənab Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin davamçısıdır. 44 günlük Vətən müharibəsinin ən təsirli anlarından biri Prezident İlham Əliyevin xalqımıza müraciəti zamanı söylədiyi "Mən xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!" - fikridir.

İlham Əliyev həmin məşhur nitqində daha sonra söyləyir: "Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyifsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!"

Ümummilli Liderimiz Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında Azərbaycanın bugünkü və gələcək nəsillərinin müqəddəs borcu onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi naminə fədakarlıqla çalışmaqdan, milli birliyimizə sədaqətlə xidmət göstərməkdən ibarətdir. Budur Azərbaycanı qələbələrə və aydın gələcəyə aparan Heydər Əliyev ideyaları.

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***



# Heydər Əliyev İli 2023

# Şanlı epoxa

**Xalqımızın Ümummilli Lideri, müasir və müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin adı ilə olan hər bir tarix bizim üçün əzizdir. Təsadüfi deyil ki, "Heydər Əliyev İli" olan 2023-cü ildə xalqımız Ulu Öndərin 100 illiyini böyük təntənə ilə qeyd edir. İlin əvvəlindən başlayan yubiley tədbirləri böyük coşqu ilə davam edir. Ötən ay həm də Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlişinin 30-cu ildönümünü böyük minnətdarlıqla qarşıladıq.**

## Ölkədə baş verən dəyişikliklər hamının rəğbətinə səbəb olmuşdu

Heydər Əliyevin adı ilə bağlı 14 iyul tarixinin də Azərbaycan dövlətinin və xalqımızın taleyində müstəsna rolu var. Çünki 54 il əvvəl, 1969-cu ilin məhz bu tarixində Ulu Öndər Azərbaycan KP MK-nin birinci katibi seçilmiş və bununla da ölkəmizi inkişafa, xalqımızı rifaha aparan şanlı epoxa başlamışdır.

O dövrün şahidi olanların yaxşı xatirindədir ki, Heydər Əliyevin birinci katib seçilməsi respublikada necə böyük əks-səda doğurmuşdu. Çünki ilk günlərdən sanki bütün sahələrdə bir inqilab, canlanma, işgüzarlıq yaranmışdı. Hər kəs yeni rəhbərdən danışırdı və baş verən yeniliklər hamının dərin rəğbətinə səbəb olmuşdu. 14 iyul plenumunda həmin vaxta kimi Azərbaycana rəhbərlik etmiş Vəli Axundov demişdir: "Heydər Əliyevə xas olan bütün siyasi və iş keyfiyyətləri söyləməyə imkan verir ki, o, respublikaya layiqincə rəhbərlik edəcək, böyük və çətin işin öhdəsindən bacarıqla gələcək. O, kifayət qədər savadlı, hərtərəfli hazırlıqlı, yüksək intellektə malikdir. O, bütün kadrlara qarşı eyni dərəcədə obyektiv, vicdanlı və layiqli insandır". Bəli, Heydər Əliyev ən yüksək keyfiyyətlərə malik idi və qısa zamanda Azərbaycan ictimaiyyəti bunun şahidi oldu.

Ulu Öndərin Azərbaycana rəhbərliyinin iki başlıca məqamına xüsusi diqqət yetirmək istəyirəm. Birincisi, Heydər Əliyev ilk gündən cəmiyyətdəki xoşagəlməz və neqativ meyillərə qarşı barışmaz mövqedə dayanmışdı. Təsadüfi deyil ki, "Qoy ədalət zəfər çalsın" şüarı da o dövrdə meydana çıxmışdı. Azərbaycan KP MK-nin 1969-cu il avqust plenumunda geniş məruzə ilə çıxış edən Heydər Əliyev respublikadakı vəziyyəti ardıcılıqla təhlil etdi, iqtisadiyyatda, sosial və mədəni sahələrə rəhbərlikdə buraxılmış nöqsanları, çatışmazlıqları, ölkədəki neqativ halları göstərdi. Problemlərin aradan qaldırılması üçün ilk növbədə diqqəti ölkədə mənəvi-psixoloji mühitin sağlamlaşdırılmasına yönəltdi. Bu gün fəxarət hissi ilə deyə bilərik ki, 1969-cu il Azərbaycanın müasir tarixinə inkişafa doğru dönüşün təməlinin qoyulduğu il kimi yazıldı.

## Heydər Əliyevin tövsiyələri fəaliyyətimin əsas istinadgahı oldu

Heydər Əliyevin fəaliyyətində diqqəti çəkən digər məqam kadr məsələlərinə xüsusi diqqət və həssaslıqla yanaşması, xüsusən azərbaycanlıların vəzifə pillələrində önə çəkilməsi idi. Əlbəttə, sovet illəri idi və xalqların dostluğu adı altında həmin dövrün bir sıra sərt tələbləri vardı. Amma buna baxmayaraq, Heydər Əliyev bütün fürsət və imkanlardan cəmiyyət həyatının hər bir sahəsində azərbaycanlıların üstün mövqeyinin təmin olunmasına çalışırdı.

Bu baxımdan Heydər Əliyev Azərbaycanın yüksəlişi naminə islahatlarını həm də idarəçilikdə kadr məsələlərindən və bu istiqamətdə azərbaycanlıların say göstəricilərinin artırılmasından başlamışdı. Hələ 1969-cu ilin avqust plenumunda Heydər Əliyev idarəetmədəki neqativ hallar barədə tənqidi fikirlərini diqqətə çatdırmış, kəskin şəkildə qeyd etmişdi ki, idarəçilik sistemində yerlibazlıq, regionçuluq təzahürləri önə çəkilmiş, dövlət işinə böyük xeyir gətirən, daha böyük səmərə verən təşkilatçılıq bacarığı, işgüzarlıq keyfiyyətləri kölgəyə alınmışdır.

Mənim üçün Heydər Əliyevin kadr siyasəti barədə danışmaq xüsusilə qürurvericidir. Çünki siyasi və idarəçilik fəaliyyətimdə ilk addımlarımı məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlamasından sonra atmışam. Əvvəlcə onu qeyd edim ki, Heydər Əliyevi ilk dəfə 1960-cı illərin ortalarında Lənkəranda görmüşdüm. O zaman Heydər Əliyev Lənkərana gəlmişdi. General mundirində olan Heydər Əliyev öz əzəməti ilə məndə xüsusi təəssürat oyatmışdı. 1969-cu ilin iyul ayında bildik ki, Azərbaycanın yeni rəhbəri həmin generaldır.

O zaman mən Lənkəranda çalışdığım müəssisənin ilk komsomol təşkilatının katibi idim. 1971-ci ilin fevral ayında Lənkəran rayonunda komsomolun ikinci katibi vəzifəsinə seçildim. 1972-ci ildə Lənkəranda komsomolun birinci katibliyinə namizədliyim irəli sürüldü. Kadr məsələlərinə diqqətlə yanaşan Heydər Əliyev komsomolun birinci katibliyinə namizədliyi irəli sürülənlərlə şəxsən görüşür, onlarla söhbət aparırdı. Bu, həm də Ulu Öndər şəxsiyyətinin böyüklüyü idi. 1972-ci il iyul ayının 4-də məni qəbul edən Heydər Əliyevin verdiyi tövsiyələr həyatım boyu siyasi fəaliyyətimin yeganə istinadgahı oldu. Bu görüş məndə həyat fəaliyyətimin istiqamətini birdəfəlik müəyyən edən təəssürat yaratdı. O görüşdə mənə verilən tövsiyələr, fikir mübadiləsi Heydər Əliyev məktəbinin birinci dərsi idi.

Sonrakı illərdə məhz Heydər Əliyevin göstərişi ilə Lənkəran komsomolunun birinci katibliyindən Ali Partiya Məktəbinə oxumağa göndərildim. Heydər Əliyev məni növbəti dəfə 1980-ci ildə Lənkəran Şəhər İcraiyyə Komitəsinin sədri təyin olunanda qəbul etdi. Həmin görüşdə də Heydər Əliyevin verdiyi tövsiyələr hər zaman fəaliyyətimin əsas istinadgahı oldu. Mənim üçün olduqca qürurvericidir ki, 1981-ci ildən etibarən Mərkəzi Komitənin Təşkilat-partiya işi şöbəsində inspektor vəzifəsində çalışdım. Heydər Əliyev kimi nəhəng, nüfuzlu və əzəmətli bir insanın rəhbərliyi altında çalışmaq həm şərəfli, həm də məsuliyyətli idi. Çünki bu komandada işləməyənə, fəal olmayana yer yox idi. Ona görə Ulu Öndərin komandasında olmaq mənim üçün həm həyat, həm də idarəçilik məktəbi idi.

## 14-cü yerdən liderlər cərgəsinə

O illərdə Azərbaycanda məhz Heydər Əliyevin rəhbərliyi ilə milli və sosial-iqtisadi intibah baş verdi. 1969-1982-ci illər ərzində respublikada milli gəlirin ümumi həcmi 2,5 dəfə, xalq istehlakı mallarının istehsalı 3 dəfə, sənaye istehsalı 2,7 dəfə artmışdı. Həmin illər ərzində iqtisadiyyata əvvəlki 50 ildəkindən 1,4 dəfə çox kapital qoyulmuşdu. Xalq təsərrüfatının inkişafına 21,3 milyard rubl vəsait cəlb olunmuşdu ki, bu da əvvəlki əlli illə müqayisədə 1,5 dəfədən də artıq idi. 250-dən çox iri zavod, fabrik və istehsal sexləri tikilmişdi. Azərbaycanda buraxılan 350 adda sənaye məhsulu dünyanın nə az, nə çox - düz 65 ölkəsinə ixrac olunurdu.

O illərdə Azərbaycan ittifaq ölkələri arasında 14-cü yerdən liderlər cərgəsinə yüksəlmişdi.

Kadr məsələlərinə gəldikdə, 1970-1980-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə respublikadan kənarda, SSRİ-nin 50-dən artıq şəhərinin 135 mülki, 105 ali hərbi məktəbində 250-dən çox nadir ixtisas üzrə 15 mindən çox mütəxəssis hazırlanmışdı. Heydər Əliyevin atdığı ən müdrik və cəsarətli addımlardan biri də Cəmşid Naxçıvanskinin adı verilən hərbi təyinatlı orta internat məktəbin fəaliyyətə başlaması oldu.

Heydər Əliyev sovet illərində xalqımızın tarixini, mədəniyyətini, milli ənənələrini cəsarətlə qorudu, onların sovet ideologiyasının təsiri altında itməsinə imkan vermədi. Olduqca qürurvericidir ki, Ulu Öndər Moskvada çalışdığı illərdə də bütün imkanlardan Azərbaycanın inkişafı üçün çalışdı.

## Dövlətçilik tariximizin şərəfli səhifələrini yazan şəxsiyyət

Heydər Əliyev kimi görkəmli şəxsiyyətlər harada və hansı vəzifədə olmasından asılı olmayaraq, vətənə və dövlətə layiqli xidmət nümunəsi göstərirlər. Təsadüfi deyil ki, Ulu Öndər heç bir vəzifə tutmadığı illərdə də Azərbaycan üçün çalışmış, müstəqilliyimiz uğrunda milli mücadilənin önündə getmişdir. Məhz Heydər Əliyevin cəsarəti ilə SSRİ-nin mövcud olduğu dövrdə üçrəngli bayrağımızın rəsmi şəkildə ucaldılması, bütün sovet rəmz və dəyərlərindən imtina olunması milli müstəqillik uğrunda mübarizə və bütövlükdə dövlətçilik tariximizin qürur doğuran səhifələridir.

Bu baxımdan müstəqilliyimizin ilk illərində üzləşdiyimiz dərin siyasi böhranın aradan qaldırılması, dövlətçiliyimizin xilası üçün xalqımızın Heydər Əliyevə müraciət etməsi təsadüfi deyildi. Çünki hər kəs yaxşı bilirdi ki, bu dərin böhranı yalnız Heydər Əliyev kimi görkəmli şəxsiyyət aradan qaldıra bilər. 30 il əvvəl xalqının səsinə səs verən Heydər Əliyev bu tarixi mərhələdə özünün xilaskarlıq missiyasını layiqincə yerinə yetirdi və müasir, müstəqil Azərbaycan dövlətinin banisinə çevrildi. İstər Gəncə hadisələrindən sonra yaranmış hərbi-siyasi böhranın, istərsə də, 1993-cü ilin avqustunda Lənkəranda baş verən hadisələrin aradan qaldırılması zamanı bir daha Heydər Əliyev şəxsiyyətinin böyüklüyünün şahidi oldum.

Mənim üçün olduqca qürurvericidir ki, müstəqillik illərində də Heydər Əliyevin rəhbərliyi altında çalışmışam. Həm Nazirlər Kabinetində, həm də qanunvericilik sahəsində çalışdığım illərdə bir daha Ulu Öndərin nə qədər vətənpərvər, bütün varlığı ilə dövlətini və xalqını sevən şəxsiyyət olduğunu gördüm. Heydər Əliyev məcburi köçkünlərin sosial qayğılarının təmin olunmasına çox böyük həssaslıqla yanaşırdı.

Mənim üçün Heydər Əliyev barədə danışmaq ona görə qürurvericidir ki, 1994-cü ilin avqust ayında Ulu Öndərlə birlikdə müqəddəs Kəbəni ziyarət etmişəm. Həmin ziyarət zamanı Heydər Əliyev Azərbaycan dövləti, xalqımız üçün dualar edirdi. O illərdə respublikada nə qədər problemlər vardı, büdcə boş idi, maaşları, pensiyaları verməyə pul yox idi. Görkəmli dövlət xadimi kimi Heydər Əliyev tədricən bütün məsələləri qaydaya saldı, nəticəyönümlü iqtisadi və sosial islahatlar həyata keçirdi. Heydər Əliyev bir milyondan artıq qaçqın və məcburi köçkünün sosial problemlərinin həllini həmişə diqqətdə saxlayırdı və ona görə neftdən gələn gəlirlər ilk olaraq bu insanların sosial və məişət qayğılarının həllinə yönəldilmişdi.

Heydər Əliyev bu gün nailiyyətləri ilə fəxr etdiyimiz dövlət quruculuğunu uğurla reallaşdırdı, Azərbaycanın yüksəlişi, xalqımızın rifahı üçün müəyyən etdiyi prioritetləri addım-addım inkişaf etdirdi.

## İlham Əliyev Ulu Öndərin ən böyük arzusunu həyata keçirdi

Azərbaycan Heydər Əliyevin ideyaları əsasında və yaratdığı möhkəm təməllər üzərində inkişaf edir, regionda və dünyada söz sahibi olan dövlət kimi tanınır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 20 ildə keçdiyimiz inkişaf yolu olduqca qüruvericidir. Bu dövrdə əldə olunan möhtəşəm nailiyyətlərin şahidləri kimi söyləyə bilərik ki, müstəqil Azərbaycan dövləti bu illər ərzində bir neçə on illərə bərabər sürətli inkişaf yolu keçib. İqtisadiyyatımızın 3 dəfə artması, Azərbaycanın beynəlxalq enerji bazarlarında aparıcı mövqeyə çıxması, regionun nəqliyyat qovşağına çevrilməsi, kosmik kluba üzv olması, sosial sferada baş verən böyük keyfiyyət dəyişiklikləri ölkəmizin keçdiyi mükəmməl inkişaf nümunələridir.

Bütün bunların nəticəsidir ki, xalqımız bütün seçkilərdə cənab İlham Əliyevə etimad göstərib. Bu etimad həm də zamanın sınaqlarından uğurla çıxan xalq-prezident münasibətlərindən irəli gələn böyük etibardır.

Bu dövrün ən böyük və tarixi hadisəsi isə, əlbəttə ki, 2020-ci ildə Vətən müharibəsinin nəticəsi olaraq torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün təmin olunmasıdır. Bununla da Müzəffər Ali Baş Komandan Ulu Öndər Heydər Əliyevin ən böyük arzusunu həyata keçirdi. Ona görə indi Heydər Əliyevin ruhu rahatdır və artıq Azərbaycan möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə onun görmək istədiyi güclü dövlətə çevrilib.

Ulu Öndər öz ideyaları ilə hər zaman yaşayacaq, yüksək ehtiramla anılacaq. Heydər Əliyevin misilsiz fəaliyyəti, bizlərə və gələcək nəsillərə ərmağan etdiyi zəngin irsi qiymətli bir xəzinə kimi uğurlu gələcəyə gedən yollarımızda əbədi məşəl kimi daim şölələnəcək. İllər keçdikcə nəsillər bir-birini əvəz edəcək, gələcək nəsillər tariximizin bu şanlı səhifələrini vərəqlədikcə onun müəllifini həmişə xatırlayacaq və minnətdarlıqla yad edəcəklər.

*Hadi RƏCƏBLİ,*
*siyasi elmlər doktoru, professor*



# Heydər Əliyev sıradan bir təqvim gününü fəaliyyəti ilə tarixə çevirmişdir

**İnsan cəmiyyəti təşəkkül tapandan bəri yaşam tərzini müəyyənləşdirmək, problemləri həll etmək, dövlət qurmaq, onun ərazisini qoruyub saxlamaq, cəmiyyəti idarə etmək haqqında düşünüb. Bu düşüncələr çərçivəsini müəyyənləşdirən, ona yeni ideya gətirənlər, cəmiyyəti idarə edən liderlər bu və ya digər formada tarixin yaddaşında qalırlar.**

Bir çoxları hələ sağlıqlarında fəaliyyətləri ilə tarix yazırlar. Məhz bu səbəbdən həmin görkəmli şəxsiyyətlərin adları tarix durduqca yaşayır, hər gələn nəsil onları öyrənir, qoyub getdikləri irsdən bəhrələnirlər.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev məhz belə tarixi şəxsiyyət, görkəmli dövlət və siyasi xadimdir. Bu böyük şəxsiyyət birinci dəfə - 1969-cu ildə Azərbaycanın rəhbəri seçiləndə fəaliyyəti, geniş dünyagörüşü və siyasi çəkisinin ağırlığı ilə sübut etdi ki, o nəinki Azərbaycanı, hətta böyük sovetlər ittifaqını idarə etməyə qadirdir. Keçmiş sovet mətbuatını, xüsusilə 40-50 il əvvəlin qəzet-jurnallarını vərəqləməklə bu fikrin təsdiqini tapmaq mümkündür. O dövrün nüfuzlu mətbuat orqanları gənc Azərbaycan rəhbərinin idarəetmə üsullarından, qısa zamanda respublikanın əldə etdiyi böyük uğurlardan çox yazmışlar. Və yazılanların hamısı da həqiqəti əks etdirmiş, Heydər Əliyevin fəaliyyətinə obyektiv qiymət vermişdir.

Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev epoxasının müstəsna yeri var. Elə ona görə də Ulu Öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul günü daim xatırlanır, qeyd olunur. Bu tarix Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış günüdür.

1969-cu il iyulun 14-dən başlayaraq Azərbaycan iqtisadiyyatının inkişafı Ulu Öndərin fəaliyyətinin əsasını təşkil etdi. Çünki həmin vaxta qədər respublikamızda iqtisadi vəziyyət acınacaqlı idi. Azərbaycan SSR iqtisadi göstəricilərinə görə keçmiş SSRİ-də ən geridə qalmış respublikalardan biri idi. Sənaye və kənd təsərrüfatı sahələrinin günün tələblərinə cavab verməməsi əhalinin güzəranının getdikcə pisləşməsi ilə nəticələnmişdi. Baxmayaraq ki, respublikanın imkanları yetərincə idi. Amma təbii sərvətlərimizdən əldə olunan gəlir Moskva tərəfindən digər müttəfiq respublikaların inkişafına yönəldilirdi, Nəticədə ötən əsrin 50-ci illərindən sonra SSRİ-də başlanan sənayeləşmə Azərbaycandan yan keçir, respublikada işsizlərin sayı artır, gənc əhalinin bir qismi iş dalınca ittifaqın müxtəlif şəhərlərinə üz tuturdu.

Az vaxtda Heydər Əliyev Azərbaycandakı bu tənəzzülə son qoydu. Onun hakimiyyətə gəlişi ilə həyatın bütün sahələrində yüksəliş, milli ruhun və mənəviyyatın oyanış dövrü başladı. Azərbaycan keçmiş SSRİ-də inkişaf tempinə görə ön sırada yer tutdu. Heydər Əliyevin dövlət xadimi və siyasi rəhbər kimi mövqeyi sovetlər birliyində o qədər möhkəmləndi ki, mərkəzi hakimiyyətdə təmsil olunan ermənilərin yaratdığı bütün manеələrə baxmayaraq, Azərbaycanın böyük oğlu SSRİ-nin rəhbərlərindən biri kimi yüksək vəzifəyə irəli çəkildi.

ABŞ-nin məşhur dövlət və siyasi xadimi Zbiqnev Bzejinski xatirələrində yazır: "Sovet İttifaqı dövründə Heydər Əliyevlə görüşməmişdim, amma, əlbəttə, onun haqqında eşitmişdim. Mən xüsusilə Ağ evdə çalışarkən sovet sistemi ilə maraqlanırdım və sovet liderləri ilə əlaqələrim var idi. Bilirdim ki, Heydər Əliyev aparıcı rəhbərlərdən biridir və onun adı hansısa məqamda hətta partiyanın baş katibi vəzifəsi üçün hallandırılırdı. Mən bilirdim ki, onun geniş siyasi təcrübəsi var. Heydər Əliyev Azərbaycanın beynəlxalq miqyasda mövqeyinin möhkəmləndirilməsi üçün, şübhəsiz, çox müsbət işlər görmüşdür. Siyasi sabitliyin yaradılması sahəsində gördüyü işin nə qədər səmərəli olduğunu isə hazırda heç kim qiymətləndirə bilməz. Azərbaycanın siyasi sistemi ilkin inkişaf mərhələsində olduğundan bu məsələyə qəti cavab vermək mümkün deyildir, bunu gələcək göstərəcəkdir".

Bu, doğrudan da, belədir. Ulu Öndər Azərbaycanın bir ölkə kimi dünya xəritəsindən silinməsinin qarçısını alan xilaskardır. Bu xilaskarlığın tarixi Azərbaycan Respublikasının SSRİ adlanan imperiyanın tərkibində olduğu vaxtlara gedib çıxır. Ümummilli Lider 1969-1982-ci illərdə Azərbaycan üçün əlindən gələni əsirgəməmiş, onun inkişaf etməsi, çiçəklənməsi, ən qabaqcıl respublikalar sırasına çıxması yolunda bütün qüvvə və bacarığını sərf etmişdir. Azərbaycanı keçmiş müttəfiq respublikalar sırasında önə çıxaran Heydər Əliyev həmin dövrdə respublikamızda yüzlərlə sənaye və kənd təsərrüfatı obyektləri tikdirmiş, Bakıda, eləcə də digər şəhər və rayonlarda çoxlu sayda yaşayış massivləri inşa etdirmiş, yollar və körpülər saldırmış, ucqar kəndlərə belə elektrik və qaz xətləri çəkdirmişdir.

Heydər Əliyev dövrünün ən parlaq simalardan biri kimi Sovet İttifaqının rəhbərliyinə yüksələn ilk azərbaycanlı idi. Elə həqiqətlər var ki, onu mütləq demək lazımdır. Ulu Öndər keçmiş SSRİ-də rəhbər postlardan birinə yiyələnməklə yanaşı, Sov.İKP Siyasi Bürosu üzvləri arasında sovet rejiminin çökəcəyinin labüdlüyünü hamıdan tez hiss edən bir şəxsiyyət olmuşdur. Bununla bağlı 2001-ci ildə Ulu Öndər Rusiya telekanallarından birinin "SSRİ niyə dağıldı?" sualına belə cavab vermişdi: "SSRİ-nin dağılması təsadüfi hadisə deyildi. SSRİ bütün bu illər ərzində bu süquta doğru gedirdi. Dağılması isə qanunauyğun yekun idi. Bu, SSRİ-də və dünyada baş verən ictimai-siyasi proseslərin nəticəsi idi. Mən Moskvada işləmişəm, Siyasi Büronun üzvü olmuşam. O zamandan artıq hiss olunurdu ki, bu quruluşun perspektivi yoxdur. Sovet quruluşu qapalı sistem üçün nəzərdə tutulmuşdu. Sonra ölkə yavaş-yavaş açıldıqca sovet ölkəsi ilə digər ölkələr arasında həyat səviyyəsi arasındakı fərq hiss olunmağa başladı. Bu fərq ildırım sürəti ilə olmasa da, tədricən insanlara təsir etməyə başladı".

Sovet imperiyası dağıldıqdan sonra Ümummilli Liderin hakimiyyətə qayıdışı dövlətimizin beynəlxalq təqdimatında böyük hadisə oldu. Onu dünya, sadəcə, təkcə kiçik bir ölkənin başçısı kimi yox, həm də vaxtilə dünyanın altıda bir hissəsinə malik və fövqəldövlət olan SSRİ-nin rəhbərlərindən biri kimi qəbul etdi. Ulu Öndərin hakimiyyətə qayıdışı həm də bütün dünyaya ismarış idi. Həmin ismarışın mahiyyəti belə idi: indi Azərbaycan rəhbərliyinə təcrübəli və məşhur siyasətçi gəlib. İkinci dəfə rəhbərlik etdiyi 10 ildə o, Azərbaycanı dünyaya tamamilə başqa formada, xalqının və dövlətinin layiq olduğu şəkildə təqdim etdi. Ölkəmizin dünyaya inteqrasiya etməsi üçün ən zəruri addımları atdı.

Azərbaycan xalqının yaddaşına Ulu Öndərin adı ilə düşən 1969-cu ilin 14 iyulu respublikamızın tarixində dönüş günü, xalqımızın yaddaşında əlamətdar gün kimi qalır. Dövlətimizin mədəni, iqtisadi yüksəlişində, xalqımızın rifah halının yaxşılaşmasında, indiki müstəqil dövlətimizin təməlinin qoyulmasında və Azərbaycan tarixinə 44 günlük savaşın akkordunu şərəflə yazan Böyük Zəfərdə də həmin günün payı əvəzsizdir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



# Heydər Əliyev İli 2023

# Milli dövlətçilik tariximizdə unudulmaz gün

## Ulu Öndər 1969-cu ildən başlayaraq Azərbaycanda inkişaf və tərəqqi dövrünün əsasını qoydu

**Əlamətdar tarixlər böyük şəxsiyyətlərin misilsiz xidmətləri ilə yaranır. 14 iyul 1969-cu il də məhz belə tarixlərdəndir. 54 il əvvələ qədər bu gün Azərbaycanın həyatında, bəlkə də, sıradan bir gün idi. Amma zəmanəsinin böyük şəxsiyyətlərindən olan Ümummilli Lider Heydər Əliyevin adı, həyat və fəaliyyəti, zəngin irsi bu günə xüsusi məna qazandırdı. Bu günü milli dövlətçilik tariximizin ən əhəmiyyətli və şərəfli səhifələrindən birinə çevirdi. 14 iyul 1969-cu il Heydər Əliyevin Azərbaycana rəhbər seçildiyi gündür.**

### Azərbaycanda başlanan yeni tarix

Həmin gündən Azərbaycanda yeni bir tarix başlanmışdır. Bu, xalqın milli ideyalar ətrafında səfərbər olunması, milli dövlətimizin yüksəlişi dövrüdür. Ötən əsrin sonlarına doğru Azərbaycanın müstəqillik nemətinə qovuşmasında və indiki uğurlarında da həmin dövrün çox böyük rolu var.

Heydər Əliyevin sovet Azərbaycanına rəhbər seçilməsi respublika həyatının xeyli mürəkkəb və ziddiyyətli zamanına təsadüf edirdi. Bu mürəkkəbliklərin və ziddiyyətlərin müəyyən bir qismi keçmiş SSRİ rəhbərliyində baş verən dəyişikliklərdən qaynaqlanırdı. Məlum olduğu kimi, ötən əsrin 60-cı illəri keçmiş SSRİ-nin həyatında da ciddi təbəddülatlar yaşanırdı. 60-cı illərin ortalarında isə hakimiyyət rəhbərliyində mühüm dəyişikliklər baş verdi, N.Xruşşovu L.İ.Brejnev əvəz etdi. Bu proses həm daxili və xarici siyasətin dəyişməsi, həm də kadrların əsaslı şəkildə yerdəyişməsində öz ifadəsini tapdı. Heydər Əliyevin Azərbaycana rəhbər təyin edildiyi 1969-cu il ərəfəsindəki vəziyyət Azərbaycanın xalq təsərrüfatında böhran hallarının artması ilə də xarakterik idi. Bunun səbəbləri bir tərəfdən idarəetmə problemi ilə bağlı idisə, digər tərəfdən də mərkəzin respublikaya münasibətindən irəli gəlirdi. Azərbaycan ona qədər daha çox öz nefti ilə məşhur idi. Böyük neft yataqlarının istismarına başlanmasından artıq bir neçə on il keçmişdi. Sovet rəsmilərində belə bir təsəvvür vardı ki, respublikanın məşhur neft yataqlarının əhəmiyyəti artıq azalıb. Azərbaycan iqtisadiyyatı ona qədər, əsasən, neftə hesablandığından bunun alternativi barədə düşünən yox idi. Ona görə də Azərbaycan geridə qalmış xammal ölkəsi kimi sosial-iqtisadi göstəricilərinə görə başqa ittifaq respublikalarının ardınca sürünür, ən axırıncı yerlərdə qərar tuturdu.

O dövrə aid tarixi faktlara görə, Azərbaycan milli gəlirin həcminə əsasən ümumittifaq səviyyəsindən 2 dəfə, əsas fondlara görə 1,8, kapital qoyuluşuna görə isə 1,7 dəfə geri qalırdı. Neft sənayesində, energetikada, qara metallurgiyada, kimyada, neft kimyası sahələrində fasiləsiz iş ritmi pozulmuşdu. Kənd təsərrüfatında istehsalın səviyyəsi enməkdə davam edirdi. Taxıl, pambıq, tərəvəz, üzüm, çay yarpağı və digər kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı ən aşağı səviyyədə idi.

Bu vəziyyət cəmiyyət həyatının başqa sahələrinə də sirayət edirdi. Məsələn, 1969-cu ilə qədər 10 il ərzində planda nəzərdə tutulduğundan bir milyon yarım kvadratmetr az yaşayış sahəsi salınmışdı. Ümumilikdə 28 min yerlik məktəblərin tikintisi ləngidilirdi. Bu səbəbdən nəinki məktəblərdə məşğələlərin ikinci növbədə keçirilməsini aradan qaldırmaq mümkün olmuş, hələ üçüncü növbənin təşkili məcburiyyəti də yaranmışdı. O illərdə demoqrafik göstəriciləri xeyli yaxşı səviyyədə qeydə alınan Azərbaycan xalqının sayı getdikcə artır, amma insanlar ağır mənzil şəraitində yaşayırdılar. Yeni doğulan, məktəb yaşına çatan uşaqların təhsil alması üçün məktəblər və sinif otaqları çatışmırdı. İnsanlar tarlalarda, o dövrün müəyyən sənaye müəssisələrində səhərdən axşama qədər zəhmət çəksələr də, bunun əvəzini görə bilmirdilər. Dolanışıqları çox acınacaqlı idi. Kəndlərdə də, şəhərlərdə də vəziyyət getdikcə pisləşirdi. Eyni zamanda vəzifə imkanlarına, sosial statusa malik müəyyən bir imtiyazlı zümrə formalaşmışdı ki, bütün inkişaf imkanları bu məhdud zümrənin əlində cəmləşmişdi. İmkanlar hər kəs üçün bərabər və əlçatan deyildi. Bu da cəmiyyətdə ciddi mənəvi böhran yaradır, insanların əlini işdən soyudur, gələcəyə böyük ümidsizlik aşılayırdı. İttifaq rəhbərləri çıxış yolları tapmaq əvəzinə, vəziyyətlə barışmaq yolu tutmuşdular. Ona görə də neqativ tendensiyalar tədricən güclənərək daha dərinlərə kök salırdı. Ölkə rəhbərliyinin bir çox hallarda lazımi qətiyyət, iradə göstərməməsi əmək intizamının pozulmasına, səhlənkarlığa gətirib çıxarırdı. Kölgə iqtisadiyyatı hətta dövlətin daxilində də özünə yer eləmişdi. Sənaye və kənd təsərrüfatının ayrı-ayrı sahələri, demək olar ki, müəyyən şəxslərin xüsusi mülkiyyəti kimi istismar olunurdu.

### Mürəkkəb dövrün lideri

Respublika rəhbərliyində dəyişiklik o dövrdə zamanın, şəraitin ortaya çıxardığı zərurət idi. Vəziyyətin artıq son həddə gəldiyini dərk edən SSRİ rəhbərliyinin məhz Heydər Əlirza oğlu Əliyevin namizədliyi üzərində dayanması isə heç də təsadüfi deyildi. Böyük rəhbər dövlət təhlükəsizliyi sistemində dəmir iradəsi, yorulmazlığı, işgüzarlığı, prinsipiallığı ilə nüfuz qazanmışdı. Moskvada da bu gənc generalın rəyini dinləyir, müxtəlif məsələlərdə peşəkar kimi onunla məsləhətləşirdilər.

Heydər Əliyevin parlaq təşkilatçılıq qabiliyyəti, idarəetmə bacarığı mərkəzi hakimiyyətin diqqətini çəkmişdi. Ona görə də mərkəzin Azərbaycanın yeni rəhbəri kimi öz təmiz imicini, prinsipiallığını, qətiyyətini qoruyub saxlamağı bacarmış Heydər Əliyevin namizədliyi üzərində seçim etməsi respublikada vəziyyəti qısa müddətdə nizama salmaq, cəmiyyətdəki neqativ hallara qarşı barışmaz mübarizə aparmaq, ölkəni üzləşdiyi vəziyyətdən çıxararaq inkişafa yönəltmək niyyətindən irəli gəlirdi.

Beləliklə, 1969-cu il iyulun 14-də keçirilən plenum yekdilliklə Heydər Əliyevin namizədliyinə səs verdi. Respublikanın yeni rəhbəri qısa nitqində bildirdi ki, qarşıda duran çətin və mürəkkəb vəzifələri bütün məsuliyyəti ilə anlayır. Əməli işində bunların həlli üçün əlindən gələni əsirgəməyəcək: "Mən bütün büro üzvlərinin köməyinə ümid edirəm və hesab edirəm ki, birgə, mehriban əməkdaşlığımız gələcək uğurlarımıza gözəl zəmin yaradacaqdır".

Bu ümid özünü doğrultdu.

Heydər Əliyev adı ona qədər Azərbaycan insanlarına o qədər də yaxşı tanış deyildi. Uzun illər ərzində məşğul olduğu işin xarakteri, vəzifəsinin spesifik xüsusiyyətləri onu insanlara görünməz etmişdi. Bununla belə, bu böyük dövlət adamının respublikanın ali rəhbərliyinə gəlişi sıravi insanlarda çox böyük ümid yaratdı. Bu tarixə qədər Dövlət Təhlükəsizlik Komitəsi xalq arasında yüksək etimad ünvanı idi. Məhz Heydər Əliyevin peşəkarlığı, yüksək idarəetmə məharəti sayəsində bu qurum həm azərbaycanlı kadrlar hesabına xeyli milliləşmiş, həm də göstərdiyi prinsipiallığa, qətiyyətə, vətəndaşların müraciətinə həssas münasibətinə görə böyük inam yarada bilmişdi. Bir sözlə, Ulu Öndər 1969-cu ildə ölkə rəhbərliyinə gəlişi ilə cəmiyyətə ədalət gətirmişdi. Haqqın gücünə insanların sönmüş inamını bərpa etmişdi. Onlar görmüşdülər ki, artıq yuxarılarda hər kəsin sözünü deyən, problemlərini eşidən var.



Heydər Əliyevin ölkə rəhbərliyinə seçildiyi dövrdə Azərbaycanda milli şüurun oyanışı istiqamətində də müəyyən meyillər özünü hiss etdirirdi. Burada ağır sosial-iqtisadi, mənəvi böhran da öz sözünü deyirdi. İnsanlar SSRİ-nin tərkibində Azərbaycanın heç də ağ günə çıxmadığını, vəziyyətin başqa ittifaq respublikalarındakından ağır olduğunu, digərləri ilə müqayisədə xeyli aşağı vəziyyətdə yaşadıqlarını görürdülər. Bu isə adamları milli haqlar barədə düşünməyə sövq edirdi. Belə bir zamanda ölkə rəhbərliyinə Heydər Əliyev kimi böyük dövlət adamının gəlişi idarəetməni düzgün istiqamətə doğru yönləndirdi.

Ulu Öndər ilk gündən mövcud vəziyyətlə bağlı qətiyyətli, prinsipial mübarizə yolu tutdu. Problemləri əsla gizlətmədi, əksinə, onları üzə çıxardı, diqqətə çatdırdı, bu vəziyyətə görə məsuliyyət daşıyan bütün vəzifə adamlarını mövcud durumdan narahat olmağa çağırdı. Heydər Əliyevin 5 avqust 1969-cu il tarixli məşhur məruzəsi çoxlarının yaxşı yadındadır. Azərbaycan KP MK-nin avqust plenumundakı həmin məruzəsində yeni rəhbər uğurlardan daha çox, respublikanın partiya və sovet orqanlarındakı ciddi çatışmazlıqlarından söhbət açdı və hər kəsin vəziyyəti düzgün dəyərləndirməsini, nəticə çıxarmasını, problemlərin həlli barədə düşünməsini istəyirdi.

### Qətiyyətli və adil rəhbər

Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə atılan addımlar, görülən işlər, əldə edilən nəticələr bütün bu deyilənlərin, sadəcə, söz olmadığını göstərdi. Ümummilli Lider Azərbaycanın problemlərdən qurtuluş və inkişaf yoluna çıxması üçün aydın bir strategiya müəyyənləşdirərək onu uğurla həyata keçirdi. Böyük zəhməti, fədakarlığı, eyni zamanda mərkəzdəki şəxsi nüfuzu, başqalarını inandırma bacarığı hesabına respublikanın inkişafı üçün bir neçə ardıcıl dövlət proqramının qəbul olunmasına, sürətlə icraya yönəldilməsinə nail oldu.

Azərbaycanın çətin vaxtlarında məsuliyyəti üzərinə götürərək insanları böyük məqsədlər ətrafında səfərbərliyə almaq və irəli aparmaq taleyi Heydər Əliyevə sanki bir missiya kimi verilmişdi. Ötən əsrin 70-ci illərində Ümummilli Lider Azərbaycanı sosial-iqtisadi böhran vəziyyətindən çıxarmağa müvəffəq oldu. Güclü bir komanda formalaşdırdı. Məhz Heydər Əliyevin qətiyyəti, idarəetmə bacarığı, gələcəyə strateji baxışı sayəsində Azərbaycan qısa zamanda geridə qalmış xammal ölkəsindən inkişaf edən sənaye respublikasına çevrildi. Bütün ölkəboyu sənaye müəssisələri tikilərək istifadəyə verildi, o dövrə görə müasir infrastruktur quruldu, adamların həyatı yaxşılaşdı. Azərbaycan fəhləsi, kəndlisi yavaş-yavaş əməyinin bəhrəsini görməyə başladı. İnsanların dolanışığı düzəldi. Qısa tarixi zamanda Heydər Əliyev dünyanın ən iri müəssisələrinin Bakıda tikintisinə nail oldu. Kənd təsərrüfatında, yerli emal sənayesində uğurlar qazanıldı. Bunlar praktik olaraq Azərbaycanın müstəqil ölkəyə keçməsini təmin edəcək milli iqtisadi bazanın yaradılması demək idi.

Respublikada iri maşınqayırma, kimya, neft kimyası və elektron sənayesi, əlvan və qara metallurgiya, yüngül, yeyinti və emal sənayesi müəssisələri inşa olundu, habelə elektroenergetika, nəqliyyat kompleksi ciddi şəkildə inkişaf etməyə başladı. 1980-ci ilin göstəricilərinə görə sənayenin əsas istehsal fondlarının dəyəri 1969-cu illə müqayisədə iki dəfə artdı. Azərbaycanda sənaye istehsalı üç dəfə yüksəldi. 1976-cı ildən etibarən respublika sənaye istehsalının artım sürətinə görə ittifaq üzrə ön sıralara çıxdı.

1982-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalının həcmi 1969-cu ildəkinə nisbətən 3,9 dəfə artdı. Məhz Heydər Əliyevin təşəbbüsü ilə keçmiş ittifaq hökuməti 1979-cu ilin 22 fevralında "Azərbaycan SSR-də üzümçülüyün və şərabçılığın inkişaf etdirilməsi haqqında" qərar qəbul etdi. Bu qərara görə 1985-ci ilədək Azərbaycanda üzüm istehsalı üç milyon tona çadırılmalı idi.

Respublikada geniş tikinti-quruculuq işləri aparıldı. 1970-1985-ci illərdə yeni mənzillər tikildi ki, bu da sovet Azərbaycanında əvvəlki illərdə inşa edilmiş binaların 70 faizinə bərabər idi. Yeni iş yerlərinin yaradılması nəticəsində iqtisadiyyatda çalışanların ümumi sayı 1985-ci ildə 2,4 milyon nəfərə çatdı. Bu, 1970-ci ilin müvafiq göstəricilərindən 1,5 dəfə çox idi. 1969-cu ildə orta aylıq əməkhaqqının səviyyəsinə görə Azərbaycan 15 müttəfiq respublika arasında axırıncı yerdə dayandığı halda, 1980-ci ildə dördüncü yerə yüksəldi.

Azərbaycan Prezidenti İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubiley mərasimindəki çıxışında Ulu Öndərin sovet dövründəki xidmətlərini qeyd edərək demişdir: "Məhz onun rəhbərliyi ilə sovet dövründə Azərbaycan müttəfiq respublikalar arasında ən geridə qalmış yerdən ən qabaqcıl yerlərə qədər yüksəldi. O vaxt, - gənclər təbii ki, bunu bilmirlər, - respublikaları fərqləndirən bir neçə əlamət var idi. Onların arasında keçici "Qırmızı bayraq" var idi. Yəni "Qırmızı bayraq" ilə o respublikalar təltif olunurdu ki, orada həm sənayedə, həm kənd təsərrüfatında, həm də bütün digər sahələrdə böyük uğurlar var idi. Bax Heydər Əliyevin dövründə 13 il ərzində Azərbaycan hər il bu "Qırmızı bayrağ"ı alırdı. Bu bir daha onu təsdiq edirdi ki, onun rəhbərliyi ilə Azərbaycan böyük uğurlu yol keçmişdir".

Qazanılan nailiyyətlər nəticəsində insanlar təhsil haqqında, gələcək inkişaf barədə düşünməyə başladılar. Özlərinin, övladlarının oxuması qayğısına qaldılar.

Heydər Əliyev inkişafın, tərəqqinin bu yolunu da bütün vətəndaşlarımız üçün əlçatan etdi. Müxtəlif stimullaşdırıcı metodların tətbiqi sadə zəhmətkeş balalarının ali təhsil almaq imkanlarını asanlaşdırdı. Biliyindən, istedadından başqa güvənc yeri olmayan gənclərə qapı açdı. Onların peşəkar mütəxəssislər kimi cəmiyyətə xidmət göstərmək arzularını reallaşdırdı. Bunun qarşılığında Ulu Öndər öz vəzifəsinə, səlahiyyətinə güvənərək bütün imtiyazları mənimsəmək istəyən məqam sahiblərinin meydanını daraltdı. Onların istədiklərini etmələrinə, başqalarının haqqına girmələrinə heç zaman imkan vermədi. Fürsət yaranan kimi bundan istifadə etməyə çalışanlar da Heydər Əliyevin adı, qətiyyəti qarşısında özlərində o cəsarəti tapa bilmədilər. Ümummilli Lider Azərbaycan insanlarının daim arzuladıqları adil rəhbər obrazını yaratdı. İmkanları hamı üçün bərabərləşdirdi. Hər kəs gördü ki, qanunlar qarşısında da, işdəməkdə də, inkişaf imkanları mühitində də hamı tam bərabərdir. Kim çox zəhmət sərf edib ümumi inkişafa töhfə verərsə, qanun-qaydalara hörmət göstərərsə, nümunəvi vətəndaş olmağa çalışarsa, inkişaf imkanlarından bəhrələnməyə özündə güc və iradə taparsa o, irəli gedəcək.

### Tarixi missiya

Heydər Əliyev o dövrdə təzahür edən milli şüur hisslərini doğru müstəviyə gətirdi. Bu duyğuların ədəbiyyat, mədəniyyət, elm sahəsində öz ifadəsini tapmasına geniş imkanlar yaratdı. Eyni zamanda millətçiliyin neqativ müstəvilərdə inkişafına, qaragüruh düşüncəyə çevrilməsinə, başqa xalqların təmsilçilərinə qarşı yönəlməsinə də imkan vermədi. Ulu Öndər Azərbaycanda milli düşüncənin ifadəçisi olan ziyalılarımıza sahib çıxdı. Xalqımızın zəngin potensialını onların sözündə, düşüncəsində, sənət adamlarımızın istedadında dünyaya təqdim etdi. Azərbaycanı dünyaya zəngin mədəniyyəti, böyük şəxsiyyətləri, tükənməz potensialı ilə tanıtdı. Heydər Əliyev xalqımızın böyük mənəvi potensialının özünə əlverişli mühit tapa bilməsindən ötrü xalqın balaları üçün yeni məktəblər açdı, respublikadakı ali və orta ixtisas təhsili müəssisələri şəbəkəsini genişləndirdi. İstedadlı gənclərimizi o dövr üçün nadir ixtisaslara yiyələnmək məqsədilə keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərinə təhsil ardınca göndərərək respublikamızın gələcəyi üçün peşəkar kadr bazası formalaşdırdı.

Ümummilli Lider mədəniyyəti, təhsili böyük bir dəyərə çevirdi, cəmiyyət qarşısında gələcəyin aydın inkişaf mənzərəsini canlandırdı. Gördüyü işlərlə, yaratdığı nəticələrlə Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm əsaslar formalaşdırdı. Ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq Azərbaycan müstəqllik nemətinə bu əsaslar üzərində qovuşdu.

Ölkənin müstəqilliyini yenicə əldə edərək gələcəyə doğru yönünü hələ dəqiq bilmədiyi, tərəddüdlərlə, çətin vəziyyətlərlə, ağır sınaqlarla üzləşdiyi o çətin günlərdə də yenə Ümummilli Lider Heydər Əliyev öz tarixi missiyasını yerinə yetirməyə başladı. Xalqın təkidli tələbi ilə ölkənin taleyinə görə məsuliyyəti üzərinə götürdü. Müstəqil dövlətimizi üzləşdiyi çətin vəziyyətdən, vətəndaş müharibəsi təhlükəsindən, parçalanma riskindən, ağır sosial-iqtisadi böhrandan çıxardı. Demokratik, hüququ dövlət kimi Azərbaycanın rəvan inkişaf yolunu müəyyənləşdirdi.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tarixinin ən qüdrətli çağlarına yetirdiyi müstəqil dövlətimiz Ulu Öndərin şah əsəridir. Ümummilli Liderin Azərbaycana rəhbər seçildiyi 14 iyul 1969-cu il tarixi bu əsərin şərəf salnaməsində öz layiqli yerini tutur.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün Ağstafada da qeyd olunmuşdur



**Ağstafada "14 iyul 1969-cu il: müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün" mövzusunda tədbir keçirilmişdir. Şəhid ailələri üzvlərinin, qazilərin, eləcə də ictimaiyyət nümayəndələrinin qatıldığı tədbirdən əvvəl iştirakçılar Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmişlər.**

Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə öncə Ümummilli Liderin zəngin və mənalı həyatından, siyasi fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilmişdir. Sonra tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Seymur Orucov xalqımızın taleyində misilsiz yer tutan Ulu Öndərin Azərbaycana rəhbər seçildiyi 1969-cu ilin 14 iyul tarixinin əhəmiyyətindən söz açmışdır. Diqqətə çatdırmışdır ki, Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi həmin illər müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq səhifələrini yazmış, bütün ideoloji-siyasi maneələrə sinə gərərək Azərbaycan xalqının milli inkişaf konsepsiyasını irəli sürmüş, respublikanı bütün sahələr üzrə inkişaf etdirmişdir.

Zəlimxan və Tatlı kənd tam orta məktəblərinin direktorları Qalib Cəfərov və Fəridə Həsənova isə 1969-1982-ci illəri Azərbaycanın intibah dövrü adlandırmışlar. Bildirmişlər ki, Heydər Əliyev yalnız Azərbaycanın intibah dövrünün müəllifi deyil, həm də müstəqil dövlətimizin qurucusudur.

Tədbir mədəniyyət və incəsənət ustalarının təqdimatında geniş konsert proqramı ilə yekunlaşmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Heydər Əliyevin titanik fəaliyyəti müasir Azərbaycanın hərtərəfli inkişafında müstəsna rol oynayıb



**Mingəçevir Dövlət Universitetində (MDU) "Heydər Əliyev İli" çərçivəsində "14 iyul 1969-cu il: müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün" mövzusunda "dəyirmi masa" keçirilib. Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilən tədbirdə universitetin bir qrup professor-müəllim heyəti üzvü, tələbə və magistrantlar iştirak ediblər.**

Universitetdən AZƏRTAC-a bildirilib ki, əvvəlcə Ümummilli Liderimizin və qəhrəman şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edən MDU-nun rektoru Şahin Bayramov Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda birinci dəfə hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul tarixini ölkəmizi tərəqqiyə aparan yolun başlanğıc günü kimi dəyərləndirib və bu əlamətdar tarixi hadisənin böyük ictimai-siyasi əhəmiyyətindən bəhs edib. Bildirib ki, sovet dönəmində milli maraqlara uyğun fəaliyyətlərin böyük çətinlikləri və həyati riskləri fonunda o zaman respublikamızda hökm sürən ağır tənəzzül şəraitinə baxmayaraq, qısa müddət ərzində sosial, iqtisadi və mədəni yüksəlişin əldə edilməsi, milli özünüdərkin oyanması və milli intibaha nail olunması məhz Heydər Əliyev dühasının nəticəsidir. Vurğulanıb ki, rəhbərliyinin bütün dövrlərində dünyaşöhrətli siyasətçi Heydər Əliyevin titanik fəaliyyətinin nəticələri müasir Azərbaycanın hərtərəfli inkişafında və qüdrətlənməsində müstəsna rol oynayıb.

Sonra MDU-nun Humanitar fənlər kafedrasının müdiri Esmira Cəfərova məruzə ilə çıxış edib. Məruzədə Ulu Öndər Heydər Əliyevin birinci siyasi hakimiyyəti dövründə Azərbaycanda ictimai həyatın bütün sahələrində baş verən əhəmiyyətli kəmiyyət və keyfiyyət dəyişikliklərindən, həyata keçirilmiş kompleks və sistemli islahatlardan, milli müstəqilliyimizə hədəflənən uzaqgörən və cəsarətli addımlardan bəhs edilib.

Məruzə iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. Daha sonra "dəyirmi masa"nın mövzusu ilə bağlı çıxışlar edilib, dahi şəxsiyyətin zəngin irsinin davamlı öyrənilməsi və təbliğinin önəmi diqqətə çatdırılıb.

# Azərbaycanla İsrail arasında hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub














**İyulun 13-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan İsrail Dövlətinin müdafiə naziri cənab Yoav Qallantın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə İsrailin nümayəndə heyəti Şəhidlər xiyabanına gələrək ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının, həmçinin Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun məzarlarını ziyarət edib və üzərinə gül dəstələri düzüblər. "Əbədi məşəl" abidəsi önünə əklil qoyulub.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. İsrailin müdafiə naziri fəxri qarovul dəstəsinin önündən keçib, hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin dövlət himnləri səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

General-polkovnik Z.Həsənov israilli həmkarını salamlayaraq onu ölkəmizdə görməkdən məmnun olduğunu bildirib, ölkələrimiz arasında tərəfdaşlığın yüksək səviyyədə olmasının təkcə dövlətlərimizin inkişafında deyil, habelə bütün regionda təhlükəsizliyin təmin edilməsində mühüm rol oynadığını qeyd edib.

İsrail Dövlətinin müdafiə naziri kimi ölkəmizə ilk səfərindən və səmimi görüşə görə məmnunluğunu ifadə edən Y.Qallant Azərbaycan-İsrail əlaqələrinin dostluq və qarşılıqlı etimada əsaslandığını vurğulayıb, hərbi əməkdaşlığın daha da inkişaf etdirilməsi baxımından bu cür görüşlərin və qarşılıqlı səfərlərin zəruriliyini qeyd edib.

Strateji münasibətlərin daha da möhkəmləndirilməsi və təhlükəsizlik üzrə əlaqələrin genişləndirilməsinin əhəmiyyəti xüsusi vurğulanıb.

Görüşdə Azərbaycan ilə İsrail arasında hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

# Dövlət Sərhəd Xidmətinin rəisi İsrail Dövlətinin müdafiə naziri ilə görüşüb







**İyulun 13-də ölkəmizdə rəsmi səfərdə olan İsrail Dövlətinin müdafiə naziri Yoav Qallantın rəhbərlik etdiyi nümayəndə heyəti Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev tərəfindən qəbul edilib.**

Dövlət Sərhəd Xidmətinin Mətbuat mərkəzindən AZƏRTAC-a bildirilib ki, DSX-nin aparatında rəsmi qarşılanma mərasimi təşkil olunub, İsrailin müdafiə naziri Yoav Qallant fəxri qarovul dəstəsinin önündən keçib, "Fəxri qonaqlar kitabı"na ürək sözlərini yazıb.

Görüşdə DSX-nin rəisi general-polkovnik Elçin Quliyev Azərbaycan Respublikası və İsrail Dövləti arasında qarşılıqlı faydalı münasibətlərin bütün istiqamətlərdə, o cümlədən hərbi-texniki sahədə uğurla inkişaf etdiyini vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında Vətən müharibəsində qazanılmış tarixi Zəfər nəticəsində ölkəmizin ərazi bütövlüyünün bərpa olunması vurğulanıb, azad edilmiş ərazilərdə dövlət sərhədlərinin mühafizəsi və müdafiəsi üzrə fəaliyyətlərin təşkili, zəruri infrastrukturun yaradılması istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib.

Müzakirə zamanı qurumlar arasında birgə əməkdaşlıq fəaliyyətlərinə nəzər salınıb, bu kimi səfərlərin ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsində əhəmiyyətli rolu vurğulanıb, qarşılıqlı maraq kəsb edən istiqamətlərdə əməkdaşlığın inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparılıb.

# Diplomatik xidmət orqanları rəhbərlərinin müşavirəsi "Ağdamın dirçəlişi" adlı tədbirlə yekunlaşıb








**İyulun 13-də Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının rəhbərlərinin müşavirəsi çərçivəsində Xarici İşlər Nazirliyinin rəhbər heyətinin və xarici ölkələrdə akkreditə olunmuş diplomatik nümayəndəliklərimizin rəhbərlərinin Ağdam şəhərinə səfəri təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, səfərdə iştirak edən xarici işlər naziri Ceyhun Bayramov, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov, Xarici İşlər Nazirliyinin rəhbər heyəti, xaricdəki diplomatik missiyalarımızın rəhbərləri ilk öncə Ağdam Şəhidlər xiyabanını ziyarət edib, vətən uğrunda canından keçmiş şəhidlərin məzarlarının üzərinə gül dəstələri qoyublar.

Sonra "Ağdamın dirçəlişi" adlı tədbir keçirilib.



Tədbirdə açılış nitqi ilə çıxış edən nazir Ceyhun Bayramov Ağdamın, Qarabağın Azərbaycan xalqı üçün əhəmiyyətindən bəhs edərək, bir zamanlar ölkəmizin ən inkişaf etmiş bölgələrindən biri olan bu gözəl şəhərin Ermənistan tərəfindən məqsədyönlü şəkildə dağıdılmasının Ermənistanın Azərbaycana qarşı etnik nifrət və dözümsüzlük siyasətinin tərkib hissəsi olduğunu bildirib. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın qayğısı nəticəsində bütün işğaldan azad olunmuş ərazilərimizin, o cümlədən Ağdamın qarış-qarış bərpa edilməsinin diqqət mərkəzində olduğu bildirilib. Mövcud çətinliklər, dağıntıların miqyası və mina təhdidinə baxmayaraq, Azərbaycanın işğaldan azad olunmuş ərazilərin bərpası və məcburi köçkünlərimizin öz yurdlarına layiqli qayıdışı prosesin irəlilədilməsində qərarlı olduğu bildirilib.

Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğalına son qoyulmasından sonra diplomatiyamız qarşısında duran ən vacib məsələnin azad edilmiş ərazilərimizdə təhlükəsizliyə hədə ola biləcək addımların qarşısının alınması və bərpa-quruculuq işləri istiqamətində bütün səylərin səfərbər edilməsi olduğu bildirilib.

Daha sonra çıxış edən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov aparılan genişmiqyaslı bərpa və quruculuq işləri barədə tədbir iştirakçılarını ətraflı məlumatlandırıb.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov işğaldan azad olunmuş ərazilərin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi məqsədilə görülən işlər barədə təqdimat edib.

Tarix üzrə elmlər doktoru, professor Mais Əmrahov isə Ağdamın, Qarabağın tarixi ilə bağlı mühazirə ilə çıxış edib.

Tədbirdə eyni zamanda işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərinə həsr olunmuş videoçarx nümayiş olunub.

Səfər çərçivəsində müşavirə iştirakçıları Ağdamda aparılan bərpa və quruculuq işləri, ərazilərimizin minalardan təmizlənməsi ilə bağlı fəaliyyətlə tanış olublar. Tədbir iştirakçıları mina partlayışı tədbirində iştirak ediblər. İştirakçılar Ağdamın tarixi və mədəni irs nümunələri ilə tanış olublar.

Ağdama səfər və "Ağdamın dirçəlişi" tədbiri ilə iyulun 11-də öz işinə başlayan diplomatik xidmət orqanları rəhbərlərinin müşavirəsi yekunlaşıb.

# Laçına növbəti köç:

## daha 23 ailə doğma yurduna çatıb









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Böyük qayıdış çərçivəsində keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın şəhərinə qayıdışı davam edir. İyulun 13-də növbəti köç karvanı Laçın şəhərinə çatıb.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın şəhərinə doğma sakinlərinin geri dönüşü davam edir.

Növbəti köç karvanında 23 ailə olmaqla 85 nəfər Laçına çatıb. Laçına qədəm qoyan ailələr şəhərdə qarşılanıb. Onlar sevinc göz yaşları ilə Laçının havasını udub mənzərəsini seyr ediblər. Daha da gözəlləşən və abadlaşan Laçına qovuşan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər. Bununla da Laçın şəhərində 93 ailə, yəni 351 nəfərin daimi məskunlaşması təmin edilib.

Qeyd edək ki, köçürülən ailələr, Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlət başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar.

# Hərbi qüdrətimizin artırılması və Böyük qayıdış proqramının icrası əsas prioritetlərdir

**Hazırda beynəlxalq aləmdə hökm sürən gərginlik İkinci Dünya müharibəsindən sonra ən kritik həddə çatmışdır. Siyasi, hərbi, iqtisadi və digər sahələrdə yaranmış çətinliklər ayrı-ayrı ölkələrin həyatında öz mənfi təsirlərini buraxmaqdadır. Vəziyyətdən çıxış və həll yolları isə hələlik mümkün görünmür.**

Şübhəsiz, dünya sivilizasiyasının bir parçası olan Azərbaycan da bu böhranlı vəziyyətin və dünyada böyük hərbi qarşıdurmaların baş verdiyi bir dövrdə müxtəlif çağırışlarla üzləşir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasətin nəticəsidir ki, bu gün ölkəmizdə sabitlik və dayanıqlı inkişaf hökm sürür, dünyada baş verən gərginliklər, qlobal maliyyə və iqtisadi böhranlar fonunda müsbət sosial-iqtisadi göstəricilər əldə olunur. Bunu Prezident İlham Əliyevin cari ilin 11 iyul tarixində bu ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə məzmunlu çıxışı zamanı verdiyi mühüm bəyanatlardan və istinad etdiyi statistik rəqəmlərdən aydın görmək olar.

2023-cü ilin ötən altı ayının yekunlarına əsasən, ölkəmizin uğurları ilk növbədə qeyri-neft sektorunun inkişafı, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda aparılan irimiqyaslı bərpa və yenidənqurma işləri, davamlı sosial və iqtisadi islahatların aparılması və nəticələrində əks olunur. Ümumilikdə qeyri-neft sektoru 3 faizdən çox artmış, qeyri-neft sənayesində isə artım 6,5 faiz olmuşdur. Bu il rekord, yəni 33 milyard manat səviyyəsində olan dövlət büdcəsinə ilin ilk yarısında daha 3 milyard manat əlavə daxil olması nəticəsində dövlət büdcəsi 36 milyard manata yüksəlmişdir. 3 milyard əlavə vəsait ölkədə aparılan islahatlar nəticəsində maliyyə intizamının gücləndirilməsi, şəffaflığın yüksəldilməsi, vergi və gömrük yığımlarının artması hesabına əmələ gəlmişdir.

Dövlət büdcəsinə daxil edilmiş əlavə 3 milyard manatın iki əsas prioritet istiqamətə yönəldilməsi qərara alınmışdır. 1.8 milyard manat Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinə xərclənəcəkdir. Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işlərinə bu ilin sonuna qədər 12 milyard manat



xərclənməsi nəzərdə tutulmuşdur. Büdcəyə daxil olan əlavə vəsaitin 1.1 milyard manatı hərbi potensialımızın gücləndirilməsinə sərf olunacaq. Hərbi qüdrətimizin artırılması bu günün reallıqlarından və gələcək təhlükəsizliyimizin təmin edilməsi zərurətindən irəli gəlir. Bu gün biz Vətən müharibəsində böyük qələbə qazanmışıq. Amma Ermənistan və havadarları bunu həzm edə bilmirlər.

Beynəlxalq hüququn işləmədiyi, gücün hakim rol oynadığı bugünkü dünyada hərbi qüdrətin daimi artırılması zərurətdir. Eləcə də hərbi qüdrətimizin gücləndirilməsi və ordumuzun döyüş hazırlığının yüksək səviyyədə saxlanması Ermənistan üçün sülhə məcburedici rol oynamalıdır. Ermənistan bilməlidir ki, sülh müqaviləsini imzalamasa, onun aqibəti Vətən müharibəsində olduğundan daha ağır olacaq.

Son günlər "Arbat" adlı erməni batalyonun Ermənistan bayrağı altında erməni kilsəsinin və keşişinin xeyir-duası ilə Ukraynaya qarşı döyüşəcəyi barədə xəbərlər mediada geniş yayılmışdır. Ukrayna ərazisində real döyüş təcrübəsi toplayan bu dəstənin gələcəkdə Azərbaycana qarşı təxribatlara və terror aktlarına cəlb edilməyəcəyinə heç kəs təminat verə bilməz. Digər tərəfdən, Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdışın rəvan baş verməsi, vətəndaşlarımızın orada təhlükəsiz və əmin-amanlıq şəraitində yaşaması üçün də ordumuzun hərbi qüdrəti yüksək səviyyədə olmalıdır.

Beləliklə, dövlət büdcəsində xüsusi önəm verilən həmin iki prioritet istiqamət bir-biri ilə əlaqəlidir və onların həyata keçirilməsi Azərbaycanın daha qüdrətli dövlət kimi inkişaf etməsi üçün mühüm zəmin yaradır. 2023-cü ilin ilk altı ayının nəticələri hər iki prioritet istiqamətdə nəzərdə tutulan fəaliyyətlərin uğurla və səmərəli şəkildə həyata keçirildiyinə sübutdur.

***Adil ƏLİYEV,***
***Milli Məclisin Sədr müavini***

# 8 şəhər, 22 qəsəbə və kənd...

## Qurucu lider İlham Əliyev indiyə qədər Qarabağ və Şərqi Zəngəzurda 30 yaşayış məntəqəsinin təməlini qoyub

*Əvvəli 1-ci səh.*

### İlin sonunda zabuxlular və suslular da doğma yurdlarına dönəcəklər

Vətən müharibəsinin üzərindən ötən müddət ərzində Azərbaycan dövləti işğaldan azad edilən ərazilərdə bərpa və quruculuq prosesləri ilə bağlı mühüm işlər həyata keçirib.

Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasını təmin etmək məqsədilə, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi bu istiqamətdə görüləcək işlər üçün mühüm yol xəritəsidir. Tədbirlər planına əsasən, tərtib edilmiş planlar üzrə bərpa qrafikinə uyğun olaraq mərhələli formada inşa edilmiş evlərə ailələrin köçürülməsi planlaşdırılır. Həmçinin 2025-ci ilədək 10270, 2026-cı ilədək isə 34500 ailənin köçürülməsi nəzərdə tutulur.

Yol, enerji, su və digər kommunikasiya layihələrinin uğurla həyata keçirildiyi Qarabağ və Şərqi Zəngəzura artıq Böyük qayıdış gerçəkləşib, yüzlərlə keçmiş məcburi köçkün ailəsi Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış kəndlərinə və Laçın şəhərinə qaytarılıblar.

"Ağıllı kənd" konsepsiyası ilə yenidən qurulmuş Ağalı kəndinə üç mərhələdə 86 ailə - 420 nəfər daimi məskunlaşma üçün köçürülüb. Ağalıya köçün dörd mərhələdə həyata keçirilməsi planlaşdırılıb.

Tərtərin Talış kəndinə isə bu il martın 16-da ilkin mərhələdə 20 məcburi köçkün ailəsi - 90 nəfər köçürülüb.

Laçın şəhərinə ilk 20 ailə bu il mayın 27-də qayıdıb. Daha sonra mərhələli şəkildə ailələrin Laçına köçü davam edib. İlin sonuna qədər Laçın rayonunun Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlərin geri dönüşü təmin ediləcək.

### Birinci mərhələdə 100 yaşayış məntəqəsi yenidən qurulacaq

"Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər bizim artıq beş yaşayış məntəqəmizdə - bir şəhər və dörd kəndimizdə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar", - deyən dövlət başçısı iyulun 11-də keçirilən müşavirədə məlumat verdi ki, bütövlükdə Böyük qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur.

30 yaşayış məntəqəsinin - 8 şəhər, 22 qəsəbə və kəndin təməlinin qoyulmasında iştirak etdiyini deyən Prezident məlumat verdi ki, baş planlar hazırlanıb təsdiqlənib, bir çox yerlərdə fəal inşaat işləri aparılır. İlk növbədə infrastruktur layihələri icra olunur. Eyni zamanda yaşayış evlərinin inşası sürətlə gedir.

Cəmi səkkiz ay ərzində Laçın şəhərinin böyük hissəsi tamamilə bərpa edilib və burada yeddi yüzdən çox ailə üçün həm fərdi evlər, həm çoxmənzilli evlər hazırlanır. Həmçinin Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar da atılacaq.

Qarabağ və Şərqi Zəngəzurda görülən bütün işlər, iki məktəb istisna olmaqla, qalan bütün infrastruktur, inşaat işləri Azərbaycanın öz büdcəsi hesabına və dövlət şirkətləri tərəfindən həyata keçirilir.

Xatırladaq ki, Qarabağ iqtisadi zonasına daxil olan Füzuli rayonunda Özbəkistan tərəfindən tam orta məktəb binası, Qazaxıstan tərəfindən isə Kurmanqazı adına Yaradıcılıq İnkişaf Mərkəzi inşa edilir.

Eləcə də Heydər Əliyev Fondu tərəfindən tarixi ərazilərimizdə ondan çox məscid yenidən inşa edilir, yaxud da ki, onlar əsaslı şəkildə bərpa edilir.

Elə mayın 10-da - Ulu Öndərin 100 illik yubileyində Şuşada Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin açılışı da fond tərəfindən bu istiqamətdə gerçəkləşdirilən və xalqımıza töhfə olan möhtəşəm işlərə nümunələrdir.

### Doğma yurdlarda əbədi həyat

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bütün quruculuq və bərpa işləri birbaşa dövlət başçısının şəxsi nəzarəti altında həyata keçirilir. Prezident İlham Əliyev işğaldan azad edilən ərazilərə mütəmadi səfərlər edərək görülən işlərlə yerindəcə tanış olur.

2021-ci ildə Şərqi Zəngəzura və Qarabağa 32 dəfə, 2022-ci ildə isə 21 dəfə səfər edərək tarixi yurdlarımızda yeni-yeni layihələrin əsasını qoyan İlham Əliyev cari ildə də bu ənənəni davam etdirir.

Mart ayında Tərtərin Talış kəndinə yollanaraq bayram tonqalını məhz Qarabağ torpağında, doğma kəndlərinə qaytardığı talışlılarla birgə alovlandıran qalib lider İlham Əliyev mayın 2-dən etibarən 10 gün müddətində Qarabağ və Şərqi Zəngəzuru, sözün həqiqi mənasında, qarış-qarış gəzdi, bu ərazilərdə həyata keçirilən quruculuq işləri ilə tanış oldu, yeni açılışlar etdi, təzə bünövrələr qoydu.

Müstəqillik Günündə - Mayın 28-də isə Prezident İlham Əliyev yolunu Şərqi Zəngəzurun məğrur qalası Laçından saldı, bu əsrarəngiz şəhərə qaytarılan sakinlərlə görüşdü.

2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədəki çıxışında ölkə rəhbəri söylədi ki, biz bu sahədə görüləcək işləri daim diqqət mərkəzində saxlamalıyıq: "Deyə bilərəm ki, mənim gündəlik fəaliyyətimdə bu məsələ bu gün birinci yerdə dayanan məsələdir və biz daim bütün işlərə nəzarət edirik. Hökumət üzvləri və digər rəsmi şəxslər müntəzəm olaraq azad edilmiş bölgələrə ezam olunurlar. Biz hər şeyi planlı şəkildə edirik, orada ən yüksək standartlar tətbiq edilir və edilməlidir".

Göründüyü kimi, birbaşa Prezident İlham Əliyevin rəhbərliyi və şəxsi nəzarəti altında "Böyük qayıdışa dair I Dövlət Proqramı" sürətlə və uğurla icra edilir.

Bütün bunlar isə xalqımıza, keçmiş məcburi köçkünlərə çox tezliklə Qarabağ və Şərqi Zəngəzurda əbədi həyatın başlayacağına dair xoş müjdələrdir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Hayastan həm də ekologiya terrorçusudur

Hayastan bu dəfə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhədində ekoloji terror törətməyə hazırlaşır. Belə ki, Sədərək rayonu ilə sərhədyanı bölgədə, Arazdəyəndə inşa olunan iri metallurgiya zavodunun zəhərli maddələri Araz çayına töküləcək. Bu, Naxçıvanın flora və faunasına da mənfi təsir göstərəcək.
Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.





### Zavodun Naxçıvanla sərhəddə inşası məqsədlidir

Milli Məclisin deputatı Ceyhun Məmmədov qeyd edib ki, Hayastan Azərbaycana qarşı müxtəlif formalı təxribatlarını və ekoloji cinayətlərini davam etdirir: "Ermənilər Azərbaycanla sərhəddə iri metallurgiya zavodu inşa etməyə hazırlaşırlar. Zavodun başqa ərazidə yox, məhz Naxçıvanla sərhəddə inşa edilməsinin planlaşdırılması məqsədlidir. Hayastan çalışır ki, Azərbaycana bacardığı qədər çox ziyan vursun. Nəzərə almaq lazımdır ki, ərazidə belə bir zavodun tikilməsi ekoloji tarazlığı pozacaq. Zavodun yerləşəcəyi Arazdəyən kəndi Araz çayının yaxınlığında olduğuna görə tullantılar da həmin çaya axıdılacaq. Bu, sözsüz ki, orada yaşayan sakinlərin sağlamlıqlarını təhlükə altına ala bilər".

Deputat Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışına diqqət çəkib. Qeyd edib ki, dövlət başçısı həmin iclasda bu mövzu ilə bağlı mövqeyini bir daha nümayiş etdirdi: "Prezident bildirdi ki, ermənilərin növbəti ekoloji terroru beynəlxalq hüquqa və konvensiyalara ziddir və ölkələrin mənfi transsərhəd təsirlərdən qaçmaq üçün bir-biriləri ilə məsləhətləşmələr aparması olduqca vacibdir. Hayastan bunu mütləq nəzərə almalıdır. Həmçinin beynəlxalq ictimaiyyət və xarici dövlətlər də məsələyə sərt reaksiya verməlidirlər. Əks halda Hayastan xarici güclərə güvənərək özünə bəraət qazandırmağa davam edəcək. Bir sözlə, Azərbaycana qarşı ekosid siyasətinə birdəfəlik son qoyulmalıdır".

Ceyhun Məmmədov vurğulayıb ki, Transsərhəd kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasının şərtlərinə görə, Azərbaycan və Ermənistan həmin konvensiyanın tərəfləri olduğu üçün hazırlanan qiymətləndirmə sənədinə yalnız Hayastanın deyil, eyni zamanda Azərbaycanın müvafiq qurumları da baxmalıdırlar. Həmçinin bölgəyə yaxın yaşayan azərbaycanlılarla da ictimai dinləmələr keçirilməlidir. Nəzərə almaq lazımdır ki, zavodun inşası geniş zolaqda ətraf mühitin, ekosistemin pozulmasına, havanın zəhərli tullantılarla çirklənməsinə səbəb ola bilər.

### Bu qanunsuz fəaliyyət regionun ekoloji mühitini təhlükə altına alır

Milli Məclisin deputatı Arzu Nağıyev bildirib ki, Hayastanın Naxçıvanla həmsərhəd ərazidə metallurgiya zavodu inşa etməsi onu göstərir ki, bu ölkə beynəlxalq səviyyədə Birləşmiş Millətlər Təşkilatının Transsərhəd kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasının müddəalarını ciddi şəkildə pozur. Belə bir zavodun tikilməsi təkcə Azərbaycana deyil, bütün regiona ciddi ekoloji təhlükə yaradacaq. Ona görə də bunun qarşısı mütləq şəkildə beynəlxalq səviyyədə alınmalıdır.

Hayastanın da sözügedən konvensiyanın üzvü olduğunu diqqətə çatdıran deputat deyib ki, bədnam qonşumuz beynəlxalq ekoloji hüquqazidd davranışlar sərgiləyir: "Dəfələrlə "Metsamor" Atom-Elektrik Stansiyası ərazisində yeni nüvə reaktoru tikintisi ilə bağlı da açıqlamalar verib. Bu isə təkcə Azərbaycan üçün deyil, bütün region üçün irimiqyaslı təbii fəlakətə gətirib çıxara bilər".

Arzu Nağıyev əlavə edib ki, Hayastan ictimaiyyətinin bu məsələyə səssiz qalacağını hesab etmir. Xatırlayırsınızsa, mis-molibden zavodu və Qafan Mis Emalı Kombinatının istehsalında da sularımız zəhərləndi, onların Oxçuçaya axıtdıqları tullantılar fəsadlar verdi. Bu, müəyyən ərazidə flora və faunanın dağılmasına gətirib çıxardı".

Deputat vurğulayıb ki, beynəlxalq ictimaiyyət Hayastana bu qanunsuz fəaliyyətini dayandırması üçün təzyiq göstərməlidir: "Ümumilikdə regionun ekoloji mühitini təhlükə mənbəyinə çevirə biləcək bu fəaliyyətə son qoyulmalıdır".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***



# Erməni vandalizmi: insanlığın və təbiətin düşməni

## İşğal zamanı Qarabağın və Şərqi Zəngəzurun 60 min hektar meşə fondu məhv edilib

**Xəbər verildiyi kimi, iyulun 11-də Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirilib. Tədbirdə dövlət başçısı iqtisadi və sosial məsələlərlə yanaşı, mövcud ekoloji vəziyyət barədə də geniş şəkildə fikrini bildirmişdir.**

Tarixdən məlumdur ki, erməni vəhşiliyinin hədd-hüdudu yoxdur. Onlar fürsət ələ keçən kimi qadın, uşaq, qoca, xəstə demədən bütün dinc əhalini qətlə yetirirlər. Biz bunun Birinci Qarabağ müharibəsi zamanı da şahidi olduq. Onlar çirkin məqsədlərinə çatmaq üçün Xocalıda və digər yaşayış məntəqələrində minlərlə dinc vətəndaşımızı yaşına baxmadan güllədən keçirmişlər. Amma 44 günlük Vətən müharibəsində torpaqlarımız işğaldan azad olunarkən ermənilərin təbiət düşməni olduğunu da gördük.

Prezident İlham Əliyev adıçəkilən müşavirədə düşmən tərəfindən törədilən ekogenosid barədə demişdir: "Bir məsələyə də mən toxunmaq istərdim. Bu da ekoloji tarazlıqla bağlı olan məsələdir. Qarabağ və Şərqi Zəngəzur ekoloji fəlakət zonasına çox yaxın idi. Çünki Ermənistan həm Ermənistandakı müəssisələrin fəaliyyəti nəticəsində, eyni zamanda o vaxt işğal edilmiş torpaqlarda - Qarabağda və Şərqi Zəngəzurda təbii resurslarımızın vəhşicəsinə istismarı nəticəsində təbiətimizə böyük zərbə vurub. Təkcə onu demək kifayətdir ki, 60 min hektardan çox meşə fondu ermənilər tərəfindən dağıdılıb, talan edilib, çıxarılıb, satılıb, yaxud parket düzəldiblər və satıblar".

30 illik işğal dövründə ermənilər təbii sərvətlərimizi vəhşicəsinə istismar edərək ekologiyamıza böyük ziyan vurmuşlar. Buradakı mədənləri istismar edərkən heç bir ekoloji normaya əməl etməyərək torpağa və su hövzələrinə qənim kəsilmişlər. Onlar bu qanunsuz fəaliyyətlərinə xarici şirkətləri də ortaq etmişlər. Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, ermənilərin bu qanunsuz əməllərinə ortaq olub ölkəmizin təbii sərvətlərini talan edən və ətraf mühitə zərər vuran şirkətlər cəzasız qalmayacaq, məhkəmə qarşısında cavab verəcəklər.

Yeri gəlmişkən, qeyd edək ki, Ermənistanın ekologiyaya düşmən münasibəti hələ sovetlər dönəmindən məlumdur. Ermənistan SSR ərazisindəki Qacaran mis-molbid mədəni o illər respublikamızın ekologiyasına ciddi ziyan vurur, ortaq çaylar zərərli maddələrlə çirkləndirilirdi ki, bu da hətta əhalinin səhhətinə mənfi təsir edirdi.

İndi də Ermənistan düz sərhədimizin 500 metrliyində metallurgiya zavodu tikdirir. Bununla bağlı beynəlxalq qaydalar mövcuddur. Həmin qaydalara görə, daha dəqiqi, Espo Konvensiyasına əsasən, transsərhəd zolanarda ekologiyaya mənfi təsir göstərə biləcək müəssisələr tikilərkən qonşu ölkələrə məlumat verilməli və müəyyən məsələlərdə razılığa gəlinməlidir. Lakin nə xeyri?! Ermənistan həmişə olduğu kimi, bu dəfə də beynəlxalq qaydalara arxa çevirir.

Dövlət başçısı da müşavirədə sözügedən məsələyə toxunarkən bildirmişdir ki, Azərbaycan ictimaiyyəti, qeyri-hökumət təşkilatları bununla bağlı Ermənistanın rəsmi dövlət orqanlarına müraciət ünvanlayıblar. Ekologiya sahəsində fəaliyyət göstərən beynəlxalq ekspertlər və qeyri-hökumət təşkilatlarının nümayəndələri bu müraciətə qoşulublar. Prezident həmçinin vurğulamışdır ki, qeyri-hökumət təşkilatları ilə yanaşı, dövlət qurumları da hansı təşkilatlara müraciət etməli olduqlarını müəyyənləşdirməlidir. Məqsəd Ermənistanın bu təhlükəli əməlinə son qoymaqdır.

Biz Ermənistanın öz ərazisində hansısa müəssisə tikməsinə etiraz etmirik, təbii ki, həmin müəssisə sərhədimizin 500 metrliyində tikilməsəydi. Qeyd etdiyimiz Espo Konvensiyasının tələbləri bir yana, dəqiq bilirik ki, həmin müəssisədə təhlükəli maddələrdən istifadə ediləcək və onlar Araz və Oxçu çaylarına töküləcək. Bu iki çayın suyu Ermənistandan sonra axdığı yeganə ölkə Azərbaycandır. Buna görə də etirazımız ədalətlidir və Ermənistan bununla razılaşmalıdır.

Bu yerdə bildirək ki, Prezident İlham Əliyevin ekoloji sahədə apardığı siyasət dünyada təqdir olunur. Dövlətimizin başçısının təşəbbüsü ilə neft-qazla zəngin olan ölkəmizin "yaşıl enerji" zonasına çevrilməsinin qarşıya məqsəd qoyulması sıradan fakt deyil. Hətta bu istiqamətdə nəhəng layihələrin icrası üçün müqavilələr imzalanıb. Məqsəd "yaşıl enerji" ilə ölkənin daxili tələbatını ödəməklə yanaşı, onun ixracına da nail olmaqdır.

Dövlət başçısı müşavirədə həmçinin ölkəmiz üçün qəbulolunmaz bir hadisəyə kəskin tənqidi münasibətini bildirmişdir. Bu, xeyli vaxtdır cəmiyyətdə müzakirə olunan Gədəbəy rayonunda baş verən məlum hadisədir. Həmin məsələyə münasibət bildirən dövlət başçısı qeyd etmişdir: "Ekologiya və Təbii Sərvətlər Nazirliyi ən azı səhlənkarlığa yol verib, nəzarətsizlik nümayiş etdirib, passiv müşahidəçi kimi çıxış edib və bunun nəticəsində xarici investor bizim təbiətimizi zəhərləyib. İnsanlar haqlı olaraq öz etiraz səsini ucaldıblar, amma onların səsinə baxan olub? Yox! Bir gün, iki gün, üç gün, beş gün, hara baxırdı Ekologiya və Təbii Sərvətlər Nazirliyi? Bilmirdimi ki, belə problem var? Ya bilirdi gözünü yumurdu, ya da bilmirdi. Hər ikisi qəbul edilən deyil".

Dövlət başçısı hadisə ilə bağlı dövlət qurumlarına iradını bildirməklə yanaşı, bəzi vətəndaşların qanunazidd hərəkətlərinə də obyektiv qiymət vermiş, hadisədən sui-istifadə edib ölkədə xaos, dövlət orqanları ilə qarşıdurma yaratmaq istəyənlərə sərt xəbərdarlıq etmişdir. Sözsüz ki, dövlət başçısının bu ədalətli mövqeyi Gədəbəy rayon sakinləri, eləcə də Azərbaycan ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanıb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

# "Eyləyirsən yenə qiyamət, Şuşa!"

Prezident İlham Əliyevin 2020-ci il noyabrın 8-də səsləndirdiyi "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" sözlərindən sonra çox keçmədi ki, Qarabağın incisi, məğrurluq simvolu, mədəniyyətimizin ocağı, musiqimizin beşiyi, Qarabağ xanlığının mərkəzi sayılan qədim qala şəhəri Şuşa, sözün gerçək mənasında, ayağa durdu.




30 ilə yaxın erməni işğalında qalan Şuşanın siması bu iki il yarımda çox dəyişib. 2020-ci ilin Şuşası ilə bu günün Şuşası arasındakı fərqi görməmək mümkün deyil. Dağıdılmış evlər, uçurulmuş inzibati binalar, yerləyeksan olmuş məscidlər, məhv olmuş tarixi abidələr, güllələnmiş heykəllər işğaldan əvvəlki vəziyyətinə qaytarılaraq bərpa edilib. Yollar çəkilib, infrastruktur qurulub, enerji təsərrüfatı yenilənib, su təchizatı yoluna qoyulub, bir sözlə, Şuşa normal həyata qayıdıb.

Vətən müharibəsi zəfərlə başa çatandan cəmi iki ay sonra - 2021-ci il yanvar ayının 14-də Şuşaya səfər edən Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzulidə hava limanının təməlini qoymuş və yolun yeni işlənmiş layihəsində körpü və tunellərin inşasının nəzərdə tutulduğunu bildirmişdi. Elə həmin vaxt Füzuli Hava Limanı ilə əlaqələndiriləcək bu yoldan İsa bulağına yeni yolun çəkiləcəyinin də nəzərdə tutulduğunu qeyd edən dövlət başçısı Füzuli Beynəlxalq Hava Limanının tikintisindən sonra turistlərin Şuşaya və xarici qonaqların Füzulidən Şuşaya çox rahatlıqla gedə biləcəklərini demişdi. Artıq bu, reallıqdır. İndi Şərqi Zəngəzura və Qarabağa təkcə rahat, müasir avtomobil yolu ilə yox, təyyarə ilə də getmək mümkündür.

Elə həmin səfər zamanı Şuşadakı Saatlı, Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa məscidlərində olan Azərbaycan Prezidenti bu müqəddəs inanc yerlərimizə Məkkədən gətirdiyi "Qurani-Şərif"i bağışlamış və işğal dövründə ermənilər tərəfindən dağıdılmış tarixi-dini abidələrin hər birinin əsaslı təmirinin Heydər Əliyev Fondu tərəfindən həyata keçiriləcəyini söyləmişdi. Ali Baş Komandan özü ilə Şuşaya Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin və Bülbülün 30 ilə yaxın Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılan büstlərini də gətirmişdi. Çox keçmədi ki, həmin büstlər yeniləndi, əvvəlki görkəmində yerinə qoyuldu. İndi Şuşaya gələnlər həmin büstləri qürurla ziyarət edirlər.

Zəfər yolu ilə Şuşaya növbəti dəfə səfər edən Ali Baş Komandan 1992-ci ildə şəhərin işğalı zamanı ermənilər tərəfindən dağıdılmış Molla Pənah Vaqifin məqbərəsinin Heydər Əliyev Fondu tərəfindən bərpasına başlanıldığını, Şuşa məscidlərinin, buradakı bulaqların bərpa olunması ilə bağlı müvafiq göstərişlərin verildiyini diqqətə çatdırmışdı. Səfər zamanı İlham Əliyevlə birlikdə Birinci vitse-prezident Mehriban Əliyeva və qızları Leyla Əliyeva vaxtilə Pənahəli xanın sarayı, Karvansara Tarix-Memarlıq Kompleksi, Rəsm Qalereyası yerləşən, amma dağıdılaraq viran qalmış ərazilərdə olmuş, "Qarabağ" mehmanxanasında görüləcək təmir-bərpa işləri ilə tanışlıqdan sonra Şuşa Xalça Muzeyinə və Şuşa sanatoriyasına baş çəkmişlər. Sonrakı səfərlərində də dövlət başçısı Şuşanın tezliklə tam bərpa olunacağını, quruculuq və abadlıq işlərinin qısa zamanda başa çatacağını vurğulamışdır.

Bu gün Prezidentin söylədikləri gerçəkliyə çevrilib. Artıq şəhərdə "Xarıbülbül" və "Qarabağ" kimi mehmanxanalar tikilib istifadəyə verilmiş, Şuşanın simvollarından biri olan, 1873-cü ildə Xurşidbanu Natəvanın vəsaiti hesabına tikilmiş Xan qızı bulağı, eləcə də "Saatlı", Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidləri bərpa edilmişdir. Şəhərin yeni tikilən obyektləri arasında 1 saylı orta məktəb, Əhmədbəyli-Füzuli-Şuşa yolunda tunel, yeni hotel və konfrans mərkəzi də var. "Qoç ət" restoranı, "Bravo" supermarketi, xalça muzeyi, parklar, "Şuşa" hoteli, Üzeyir bəy Hacıbəylinin heykəli, Ağa Qəhrəman Mirsiyab oğlunun Şuşadakı karvansarası, Şuşa Şəhər İcra Hakimiyyətinin binası, çoxlu sayda müasir və qədim üslubda tikilmiş yaşayış evi şəhəri ziyarət edənlərin sevinə-sevinə fotoaparatlarına köçürdükləri obyektlərdir.

Zəfər Günü Azərbaycan əsgərinin Şuşanın Yuxarı Gövhər ağa məscidinin minarəsindən Allah dərgahına ucalan azan səsi Milli Ordumuzun dünyaya ismarıcı idi. Bəli, dünyanın gözü önündə tarixi gerçəklik bərpa olunmuşdur. İndi qalib Azərbaycan vətəndaşı Cıdır Düzündə "Yallı" oynayır, İsa bulağından su içir, can dərmanı olan tərtəmiz hava ilə nəfəs alır. Səməd Vurğun demişkən:

*Xırdaca-xırdaca yağışın yağar,*
*Çən-çiçək içindən günəşin doğar,*
*Bir ağız bir bulaq suyunu içər,*
*Eyləyirsən yenə qiyamət, Şuşa!*

Məhz Azərbaycan əsgərinin və Ali Baş Komandanın qətiyyəti və siyasi iradəsi sayəsində dünənə kimi Şuşaya virtual səyahət layihəsi bu gün real səyahət turları ilə əvəzlənib. Artıq hər kəs Şuşanı ziyarət edə bilir. İlin bütün fəsillərində qədim şəhərdə həyat qaynayır. "Xarıbülbül" Musiqi Festivalı əsrarəngiz gözəlliyi, qonaqpərvərliyi ilə seçilən Şuşanın simvoluna çevrilib.

Şuşa dünənki qaranlığından bugünkü işığına qovuşmaq üçün 30 ilə yaxın gözlədi. Gözlədi ki, işğalçılar rədd olub getsinlər və o, işıqlı günə qovuşsun. Bilirdi ki, bu işıq bütün Qarabağı, Azərbaycanı nuruna qərq edəcək və bir də dünyanın bəzi kor olmuş gözlərinə nur verəcək. Verəcək ki, açılan gözlər haqqı, ədaləti görə bilsin.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Yanvar-iyun aylarında 60,3 milyard manatlıq ÜDM istehsal olunub

**2023-cü ilin yanvar-iyun aylarında ölkədə 60 milyard 302,1 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.**

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,1 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 3,1 faiz artmışdır.

ÜDM istehsalının 43,7 faizi sənaye, 9,2 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 5,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 4,7 faizi tikinti, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi informasiya və rabitə sahələrinin, 17,7 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,3 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 5946,9 manata bərabər olmuşdur.

## Əsas kapitala 7,1 milyard manat yönəldilmişdir

**2023-cü ilin yanvar-iyun aylarında əsas kapitala 7 milyard 148,3 milyon manat məbləğində, yaxud 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 10,4 faiz çox vəsait yönəldilmişdir.**



Dövlət Statistika Komitəsi bildirmişdir ki, neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 21,4, qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 4,2 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 4 milyard 322,9 milyon manatı və ya 60,5 faizi məhsul istehsalı, 2 milyard 426,6 milyon manatı (33,9 faizi) xidmət sahələrinə, 398,8 milyon manatı (5,6 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 5 milyard 208,9 milyon manatını və ya 72,9 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 5 milyard 48,7 milyon manatı və ya 70,6 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 48,6, büdcə vəsaitləri 33,8, əhalinin şəxsi vəsaitləri 7,2, bank kreditləri 3,4, sair vəsaitlər isə 7,0 faiz olmuşdur.

## İqtisadi sektorda orta aylıq əməkhaqqı 920 manata yaxındır

**İyunun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 20,3 min nəfər və ya 1,2 faiz artaraq 1 milyon 726,3 min nəfər olmuşdur.**

Onlardan 898,6 min nəfəri iqtisadiyyatın dövlət, 827,7 min nəfəri isə qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 19,2 faizi təhsil, 18,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,9 faizi sənaye, 8,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 faizi tikinti, 6,5 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,6 faizi peşə, elmi və texniki fəaliyyət, 2,1 faizi maliyyə və sığorta fəaliyyəti, 14,2 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2023-cü ilin yanvar-may aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,1 faiz artaraq 916,8 manata çatmışdır. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## Xarici ticarətdə 6 milyard dollarlıq müsbət saldo

**Cari ilin yanvar-may aylarında Azərbaycan dünyanın 185 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib. 106 ölkəyə məhsul ixrac, 175 ölkədən idxal olunub.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac edilən xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2023-cü ilin yanvar-may aylarında ölkənin xarici ticarət dövriyyəsi 19 milyard 602,3 milyon dollar olmuşdur. Ticarət dövriyyəsinin 12 milyard 763,6 milyon dollarını və ya 65,1 faizini ixrac, 6 milyard 838,7 milyon dollarını (34,9 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 5 milyard 924,9 milyon dollar məbləğində müsbət saldo yaranmışdır.

Ötən ilin eyni dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 8,2 faiz azalmış, real ifadədə 2,3 faiz artmışdır. İdxal isə real ifadədə 11,1 faiz artmış, ixrac 0,5 faiz azalmışdır.

# Qeyri-neft məhsullarının ixracında 22,1 faiz artım qeydə alınıb

**Qeyri-neft-qaz sektorunun inkişafı üçün ölkədə həyata keçirilən islahatlar bəhrəsini verir. Bunu əvvəlki illərə nisbətən qeyri-neft-qaz sektorundan büdcəyə daxilolmaların xüsusi çəkisinin artmasından da görmək mümkündür.**

Son bir neçə ildə bu sektor üzrə istehsalın həcmi, ixracın çəkisi sürətlə artmaqdadır. Belə tendensiya daxili tələbatın ödənilməsinə müsbət təsir göstərməklə yanaşı, ixracın yüksəlməsi hesabına ölkəyə daha çox valyutanın daxil olmasına imkan yaradır. Dünya iqtisadiyyatında baş verən hadisələr fonunda bu faktorların hər ikisi ölkəmiz üçün faydalıdır.



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin yaydığı məlumata görə, cari ilin yanvar-may aylarında qeyri-neft sektoru üzrə ixracın dəyəri 1,5 milyard dollar olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 22,1 faiz çoxdur. Sözügedən dövr yeyinti məhsulları üzrə ixracın dəyəri 334,4 milyon dollara çatmışdır. O cümlədən spirtli və spirtsiz içkilərin ixracı 5,9 dəfə, şəkər ixracı 43,8, meyvə-tərəvəz ixracı isə 10,4 faiz artmışdır. Hesabat dövründə aqrar və aqrar sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri isə 16,9 faiz artaraq 349,1 milyon dollar olmuşdur. Qeyri-neft-qaz məhsullarının ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 55,8 faiz artaraq 92,2 milyon dollara çatmışdır.

Yanvar-may ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi birinci, pomidor (tomat) ikinci, ilkin formalı polipropilen isə üçüncüdür. Beş ay ərzində Türkiyəyə 464,6 milyon, Rusiya Federasiyasına 404 milyon, Gürcüstana 161,2 milyon, İsveçrə Konfederasiyasına 53 milyon, Qazaxıstana 47,7 milyon dollarlıq qeyri-neft məhsulları ixrac olunub.

May ayında isə qeyri-neft məhsullarının ixracının dəyəri 278,2 milyon, o cümlədən yeyinti məhsulları üzrə 98,2 milyon, qeyri-yeyinti məhsulları üzrə 180 milyon dollarlıq olub. May ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası birinci, Türkiyə ikinci, Gürcüstan üçüncü yerdə qərarlaşıb.

Cari ilin yanvar-may ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlərdir: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Baku Steel Company" QSC, "Best Logistik" MMC, "STP Global Cable" MMC, Şirinov Elvin Valeh oğlu, "My Fruit" MMC, "Lexus-Bakı" MMC, "P-Aqro" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC. Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə "Azərenerji" ATSC başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: ARDNŞ-nin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi, "SOCAR Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azəripək" MMC, "ASK Tütün" MMC.

Cari ilin beş ayında "Azərkosmos" da 7,8 milyon dollar dəyərində xidmət ixrac edib. Başqa sözlə desək, "Azərkosmos" tərəfindən dünyanın 42 ölkəsinə 7,8 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri göstərilib. Agentliyin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 77 faizini təşkil edib. May ayında isə "Azərkosmos" dünyanın 40 ölkəsinə 1,6 milyon dollar dəyərində xidmət ixrac etməyə nail olub. Cari ilin yanvar-may ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində olan ölkələr Birləşmiş Krallıq, Lüksemburq, BƏƏ, Almaniya və Pakistandır.

İyun ayı ərzində "Bir pəncərə" İxraca Dəstək Mərkəzindən 16,9 milyon dollar dəyərində qeyri-neft ixracı həyata keçirilib. Ay ərzində mərkəzə 103 müraciət daxil olub.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 6,5 faiz artıb

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-iyun aylarında ölkə üzrə 34,7 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Neft-qaz sektorunda məhsul istehsalı 2,3 faiz azalmış, qeyri-neft-qaz sektorunda 6,5 faiz artmışdır.**

Sənaye məhsullarının 69,5 faizi mədənçıxarma, 25,3 faizi emal, 4,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 7,7 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 3,2 faiz artmışdır.

Emal sektorunda ağacın emalı və ağacdan məmulatların istehsalı 2,0 dəfə, kompüter, elektron və optik məhsulların istehsalı 88,9, toxuculuq sənayesi məhsullarının istehsalı 48,7, kağız və karton istehsalı 35,7, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 34,9, poliqrafiya məhsullarının istehsalı 33,3, içkilərin istehsalı 26,5, neft məhsullarının istehsalı 23,0, hazır metal məmulatlarının istehsalı 21,5, tikinti materiallarının istehsalı 20,3, rezin və plastik kütlə məmulatlarının istehsalı 16,0, qida məhsullarının istehsalı 11,9, maşın və avadanlıqların istehsalı 10,9, mebel istehsalı 7,2, tütün məmulatlarının istehsalı 7,0, elektrik avadanlıqlarının istehsalı 6,4, kimya sənayesi məhsullarının istehsalı 3,1 faiz artmışdır.



Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 3,6, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 17,0 faiz artmışdır.

**«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 22 dekabr (Bazar günü) tarixli 70-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Yekşənbə, 18 rəbiüləvvəl sənə 1337.
22 kanuni-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Ağakişi, İbrahim və Zeynəlabidin Atakişiyev, birincinin oğlu, ikincilərin qardaşı Kazım Atakişiyevin vəfatını kamali-təhəssür və hüznlə [böyük bir kədər və hüznlə] öz qövm və əqrəbalarına, dost-aşnalarına xəbər verirlər. Cənazə, bu gün yekşənbə [bazar] günü, kanuni-əvvəlin [dekabrın] 22-də səhər saat 10-da öz evlərindən (Kamenisti küçədə nömrə 106) qaldırılıb Qasım bəy məscidinə gətiriləcəkdir.

*2612*

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Hacı Cəbrayıl və Həsənağa Rəsulov öz sevgili dayıoğluları Kazım Atakişiyevin vəfatını kamaliyə'slə [böyük bir kədərlə] öz qövm və əqrəbalarına və dostaşnalarına xəbər verirlər. Cənazə bu gün yekşənbə günü kanuni-əvvəlin 22-də səhər saat 10-da öz evlərindən (Kamenisti nömrə 106) qaldırılıb Qasım bəy məscidinə gətiriləcəkdir.

*2613*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**Yeni Kabinə təşkili**

Kanuni-əvvəlin [dekabrın] 18-də Azərbaycan Məclisi-Məbusanı sədri doktor Həsən bəy Ağayev həzrətləri, Rəisi-vükəla [Baş nazir] Xan Xoyski həzrətlərinə böylə bir məktub göndərmişdir:

*"Alişan [şanı uca] Fətəli xan Xoyski!*

*Yeni hökumət təşkili münasibətilə zati-alilərinizə yazmış olduğum 13 kanuni-əvvəl tarixli məktubuma cavabi-rədd aldım. Buna baxmayaraq, ikinci dəfə camaat namindən sizə müraciətlə təvəqqe edirəm vətənimizin böylə ağır günlərində hökumət təşkili kimi məsuliyyətli bir işdən boyun qaçırmayıb, müştərək Kabinə təşkilini öhdənizə alasınız.*

*Ümidvaram, təvəqqemə əməl edərsiniz. Bilxassə [xüsusilə] ki, Parlamanın ümum fraksiyaları bir səslə sizin namizədliyinizdə ittifaqirəy [yekdillik] hasil edərək bu mənsəbdə sizi görmək istəyirlər.*

*Fürsətdən bilistifadə [istifadə edərək], səmimi ehtiram və ixlasımı [məhəbbətimi] qəbul buyurmanızı rica edirəm.*

*Məclisi-Məbusan Sədri əvəzinə:*
*Doktor Həsən bəy Ağayev"*

Mövsuq mənabedən [etibarlı mənbələrdən] aldığımız məlumata görə, Fətəli xan həzrətləri Kabinə təşkil etməyə razı olmuşlardır.

### Dördüncü (fövqəladə) iclas Qarabağ əhvalı haqqında

Cümə günü, kanuni-əvvəlin 20-də Azərbaycan Məclisi-Məbusanının fövqəladə iclası dəvət edilmişdi. Doktor Ağayev həzrətləri saat bir tamamda iclası şu müxtəsər nitq ilə açdılar:

Möhtərəm Parlaman əzası [üzvləri]!

Bu gün Parlamanın fövqəladə iclası dəvət edilməsinə iki fövqəladə hadisə səbəb olmuşdur. Bu iki əsəfnak [təəssüf doğuran] məsələ yekdigəri [bir-biri] ilə o qədər mərbut [bağlı] və sıxı əlaqədardır ki, bunları bir-birindən ayırmaq əsla qabil deyildir. Bunlardan birisi, neçə gün əvvəl vaqe olmuşdur. O birisi isə bir neçə müddət bundan qabaq başlanıb bu vaxtadək də davam etməkdədir. Hamınıza məlumdur ki, iki həmsayəmiz [qonşumuz] olan erməni və gürcü millətləri arasında əlaqə pozulub, hətta müsadiməyə müncər olmuşdur [toqquşmaya gəlib çıxmışdır]. Rəsmi surətdə elani-hərb edilməmişsə də, müharibə qeyri-rəsmi bir surətdə başlanmışdır. Yenə də qan, çaylar kimi axır. Yenə köylər yanır, şəhərlər dağılır; yenə toplar patlayır, yüzlərcə adam top və mitralyoz qurbanı olurlar. Guya beş sənəlik müharibə vəhşiləri doyurmamış, guya beş illik vuruşma bayquşları qane etməmişdir. Biz müsəlman nümayəndə və firqələri hələ Tiflisdə ikən Seymdə demişik ki, qonşularımızla sülh və müsalimətlə [barışıqla] yaşamaq istəyiriz. Bunu yalnız quru sözlə deməyib, feilən [əməli] hərəkətimizlə də isbat etmişiz. Gürcü qonşularımız da həmin bu fikirdəydilər və böylə də siyasət yürütməyə çalışırdılar. Lakin, üçüncü qonşumuz olan ermənilərdən bəzi məsuliyyətsiz dəstələr vəhşiliklərini yürüdərək bizim və gürcü qonşularımızın hüququmuza təcavüz edirlər. Məsələn, Gəncənin üç qəzasında – Şuşa, Cəbrayıl və Zəngəzur mahallarında və Tiflisin Sanain tərəfində toplar patlayır, mitralyozlar qurşunu yağır.

Həmin bu iki məsələdir ki, bizi bu gün yığışmağa vadar etmişdir.

Bu münasibətlə əvvəl Qarabağ məbusları və daha sonra Sosialistlər fraksiyası, Hökumətə müraciətlə böylə istizah [sorğu] vermişlərdir:

Azərbaycan Məclisi-Məbusan Rəisi hüzuri-alilərinə Parlamanda Sosialistlər fraksiyonu tərəfindən Hökumət namına [adına] istizah:

Bu axır vaxtlarda varid olan [gələn] xəbərlərə görə Andranik, təhti-komandasındakı [əmri altındakı] qoşunla Azərbaycan Cümhuriyyətinin hüdudunu keçib Zəngəzur, Şuşa və Cəbrayıl qəzalarında bir çox kəndləri xarab edib, köməksiz xalqı bəzən qırıb, bəzən də səhralara salır.

Bu əhvalat Hökumətə məlumdurmu? Əgər məlum isə nə binagüzarlıq olunubdur [nə kimi addımlar atılmışdır]?

Bədəhu [sonra], məsələnin təcili surətdə müzakirə edilməsi lüzumundan danışılaraq hamı məsələnin təcili surətdə müzakirəsini tələb edir. Hökumət tərəfindən Rəisi-vükəla Fətəli xan Xoyski həzrətləri izahat verərək deyirlər ki, Zəngəzur əhvalatı təzə bir şey deyildir. Bu, çoxdan başlanmış bir işdir. Burada əyləşən məbuslara məlumdur ki, bir para ermənilər tərəfindən Qarabağ haqqında bir məsələ qaldırılmışdı. Hələ iyul ayında Andranik, başına bir dəstə çeteci [quldur] yığaraq İrəvan quberniyasından Gəncə quberniyası hüduduna keçdi (burasını ərz etməliyəm ki, Andranik Türkiyə təbəəsidir). O vaxt, Azərbaycan Hökuməti hələ Gəncədə ikən erməni hökumətinə müraciətlə istizah etmişdi ki, Andranik sizin tərəfinizdənmi iş görür, yoxsa bu hərəkətlər onun şəxsi təşəbbüsüdür və onun qoşunu erməni hökumətinə tabedirmi, yoxsa bu hərəkətləri adi bir üsyan və xüsusi bir təşəbbüsdür? Erməni hökuməti bizə cavab verdi ki, Andranikin Ermənistan Cümhuriyyəti ilə heç bir əlaqəsi yoxdur, özü də adi bir asidir [üsyançıdır]. Erməni hökuməti özü də onun dəf'ini və üsyanın yatırılmasını istəyir, fəqət gücü yoxdur, bir iş görə bilməyir.

Sizə məlumdur ki, Andranik iyul ayında Zəngəzur mahalında böyük fənalıqlar icra edərək, bir çox köyləri dağıtdı və nəhayət Şuşa qəzasına keçərək Əsgəran yolunu bağladı. O zaman Andranik çeteciləri böyük fəlakətlər çıxarırlardı, fəqət Azərbaycan Hökumətinin bütün zehni və əsgəri qüvvəsi tamamilə Bakı məsələsinə münhəsir [həsr olunmuş] idi. Ona görə də qəti bir iş görə bilməyib, ancaq Gəncədən iki dəfə qarışıq erməni-müsəlman deleqası [nümayəndə heyəti] göndərdi. Lakin, bundan da bir şey çıxmadı, Andranik öz əməlində davam edirdi. Sentyabr ayında Bakı alındıqdan sonra Hökumət buraya köçdü və dərhal bu məsələyə diqqət verərək özünə borc bildi ki, Andranik məsələsinə bir xitam çəksin. Ona görə də çetecilər müqabilinə [qarşısına] bir dəstə əsgəri qüvvə göndərdi. Qoşunumuz müharibə nəticəsində Andraniki Əsgərandan çıxarıb Şuşa uyezdindən tamamilə və Zəngəzur mahalının çox yerindən qovdu. Andranik Gorusa qaçdı. Burada demək istəmədiyim bəzi səbəblərə görə, qoşunumuz bundan sonra irəli yürüşünü artıq davam etdirə bilməzdi. Bu iş, oktyabr ayında idi. O zaman sakitlik hökmfərma [hökmran] oldu. Andranik Gorusda idisə də, heç bir hərəkətdə bulunmayırdı. Hətta, bir xəbər varid oldu ki, sülh və asayiş artıq pozulmayır.

Noyabr ortalarında işlər tamamilə dəyişdi və Müttəfiqilərin təklifinə görə türk əsgərləri Azərbaycanın hər yerindən çıxıb getdilər. Övza [vəziyyət] dəyişib, əhval qeyri-müəyyən bir şəkil aldı. Noyabrın 20-dən sonra Andranik yenə baş qaldırıb, ayın 25-dən etibarən fəlakətlər çıxarmağa başladı. Böyük fənalıqlar əmələ gəldi. Bu xüsusda Hökumətə bir çox teleqraflar gəlmişdir ki, vaxtilə qəzetələrdə yazılmış olduğundan dübarə oxumağa hacət yoxdur. Hamınıza məlumdur ki, Andranik çetecilərinin əli ilə Zəngəzur mahalında nə qədər müsəlman köyləri dağıdılmış, yandırılmışdır; əhali nə qədər zərər və xəsarətə düçar olmuşdur. Şübhəsizdir ki, Hökumət bu işlərə laqeyd baxa bilməzdi. Binaileyh [ona görə], biz öz tərəfimizdən lazım və mümkün olan qədər çalışıb tədbirlər gördük. Onların müqabilinə əsgəri qüvvə göndərilməsi barəsində teleqrafən binagüzarlıq etdik [sərəncam verdik]. Eyni zamanda özümə borc bildim, Müttəfiqlər nümayəndəsi general Tomsona məlumat verim. Çünki o mənə də deyib, qəzetələrdə də yazılmışdı ki, Müttəfiqlərin məqsədi Qafqaziyada sülh və müsaliməti [əminamanlığı] davam etdirməkdir. Binaileyh, həman mənə gələn teleqrafların surətini bir məktubla bərabər general Tomsona göndərdim. Tomson dərhal bəzi tədbirlər görməyi lazım bildi. Mən general Tomsona məktubu ancaq xəbərdar [məlumat] kimi yazmışdım; daha yazmamışdım ki, təvəqqe edirəm bizə kömək edəsən. O özü lazım bildi ki, Qarabağa bir heyət göndərsin ki, onun məktubunu Andranikə yetirsin. Heyət ingilis, türk və erməni nümayəndələrindən ibarət idi. Bundan əlavə Tomson, erməni başçılarına da bir çox teleqraflar çəkdi.

Noyabrın 27-də deleqasiya Şuşaya və Zəngəzura əzimət etdi [yola düşdü]. Bir neçə gün Şuşada qalıb heyət ümum qəza əhalisinə əmnü asayişlə yaşamalarını təkliflə, xəbər verdi ki, ingilislər və onların Müttəfiqləri heç vaxt xəta və iğtişaşa razı olmayacaqlardır.

Bir neçə gün Şuşada qaldıqdan sonra deleqa heyəti Zabux denilən yerə gədib – ki həmin yerdə müharibə olurdu – İngiltərə nümayəndəsi Andranik yanına gedib məktubu vermiş və bildirmişdir ki, asayiş bərpa edilməsə bütün məsuliyyət onun öhdəsinə düşəcəkdir. Bundan əlavə, sair adamlara da teleqraf çəkmişdi. Çünki o zaman ermənilər çox yerdə baş qaldırıb Gəncə, Qazax və Cavanşir qəzalarında quldur dəstələri kimi iş görürlərdi.

Andranikə yazılan məktubu mən görməmişəm, amma özlərinin dediklərinə görə, həman teleqraflar məzmunanda imiş. *(Teleqrafları oxuyur.)* Sonra, Tomson Şuşadakı deleqalara teleqraf çəkərək Tərtər, Qazax və sair yerlərə də getmələrini tövsiyə etmiş və filhəqiqə [həqiqətən] onlar da Şuşadan sonra oralara gəlmişdilər. Bu işdən sonra bir neçə gün tam sakitlik oldu. Qəzalardan şikayət xəbəri gəlmədi. Fəqət, üç-dörd gün sonra yenə teleqraf-teleqraf üstündən yağmağa başladı ki, Andranik öz dəstələri ilə hərəkata davam edirlər. Çünki müsəlmanlar, ingilis heyətinə inanıb səngərlərdən çıxmışlar və ermənilər həman saat fürsətdən istifadə edərək başlamışlar kəndləri yandırıb, arvad-uşaqları dağlara, meşələrə salmağa. Bu xəbər yetişən kimi biz əlimizdə olan hər növ tədbirləri gördük və dekabrın 3-də Tomsona belə bir məktub yazdım. *(Oxuyur.)*

Aldığımız teleqrafların da surətini göndərdim. Biz əsgəri qüvvə göndərməklə bərabər Tomsondan da xahiş etdik ki, tədbir görsün. Tomson Zəngəzura yeni bir heyət göndərməyi lazım bilib, xəbər verdi ki, bu səfər heyət əsgəri surətdə olmalıdır. Bu heyət 15 qədər ingilis əsgər və zabiti, iki zirehli avtomobil və bir nəfər bizim nümayəndəmizdən ibarət idi. Bunlar Şuşaya getmişlərdir. Fəqət heyət hələ qayıtmamış və nə etdikləri barəsində bir xəbər yoxdur. Şuşadan o tərəfə getmələri haqqında məlumatımız yoxdur. Heyət gəldikdə, yaxud cavab aldıqda sizə bəyanat verməyə özümü borclu biliram.

Qəzetələrdə bir xəbər vardı ki, guya general Tomson tərəfindən əvvəl dəfə Andranikə məktub göndərildikdə, Qarabağın ümuri-idarəsi [idarə edilməsi işləri] guya Andranikə tapşırılmış imiş. Şübhəsizdir ki, böylə olsaydı Hökumətimizin kökünə əl atmış olardılar. Əgər böylə olsaydı, Azərbaycanın hüququna təcavüz edilmiş olardı. Halbuki, biz var qüvvəmizlə Azərbaycanın hüququnu müdafiə edəcək və heç kəsə yol verməyəcəyiz ki, kənardan gəlib Azərbaycanın hüququna təcavüz etsinlər. *(Gurultulu alqış.)*

Aşkardır, Hökumət laqeyd baxa bilməzdi ki, başqaları gəlib Azərbaycanda hakim olsun. Bu xəbərləri eşitdikdə mən təhqiqata başladım. Mən əmin idim ki, mədəni hökumət hüququmuzu təpikləyib əlimizdən almazlar. Zənnim doğru çıxdı. Buna bir çox sübutlarım da var. Əmin olunuz ki, Tomson tərəfindən Andranikə qəzetələrdə deyilən kimi məktub yazılmamışdır. Mən heyət gedən zaman Tomsona dedim ki, Qafqaziya çox heyətlər görmüşdür. Sözlə deyil, başqa yolla icrayi-təsir etmək lazımdır.

Sonra yenə alınan teleqrafları oxuyaraq nitqinə davamla Rəisi-vükəla həzrətləri deyirlər ki, bu surətlə Müttəfiqlərlə lazım olan tədbirləri görmüşəm. Bunlardan başqa, öhdəmizdə xüsusi vəzifələrimiz də vardır. Əsgəri qüvvəmizin silah gücü ilə hərəkət etməsi haqqında əmr verilmişdir. Bu xüsusda müfəssəl məlumat vermək istəməyirəm. Andranikin və çetesinin məqsədi Zəngəzur və Şuşa qəzalarını Azərbaycandan ayırıb, Ermənistana mülhəq etməkdir [birləşdirməkdir]. Bunların müqabilinə [qarşısına] əsgəri qüvvə göndərildikdə, bir qədər sakit olub sonra yenə fürsət tapan kimi işə başlayırlar. Azərbaycan keçmişdə və hazırda heç vaxt ixtilaflı məsələləri silah gücü ilə həll etmək istəməmişdir. Hərgah böylə məsələlərin həlli üçün silaha sarılmaq lazım gəlmişsə, məcbur olmuşuq. Hər bir ixtilaflı məsələni sülhlə həll etməyə çalışaraq, qonşularımıza da böylə təklif etmişik. Azərbaycan Hökuməti erməni, müsəlman və sairənin qanı tökülməmək üçün var qüvvəsilə çalışmışdır. Yenə bu uğurda çalışmalıyız. Əgər silaha sarılmaq məcburiyyətində qalsaq, hamı bilməlidir ki, bizi vadar və məcbur etmişlərdir. Hökumət namından [adından] deyirəm ki, biz bu məsələnin qansız, zərərsiz həllinə çalışır və çalışacağız. Əks surətdə Hökumət silah qüvvəsilə Azərbaycan Cümhuriyyətini hər bir təcavüzdən mühafizə edəcəkdir. *(Mərkəzdən və soldan alqış.)*

(Məbədi [ardı] var)

## QARABAĞ ƏHVALI ƏTRAFINDA

General Tomsondan Azərbaycan Rəisi-vükəlası Fətəli xan Xoyski həzrətlərinə 20 kanuni-əvvəldə böylə bir məktub gəlmişdir:

*"Rəisi-vükəla F. xan Xoyskiyə.*

*Dövlətli əfəndim!*

*"Znamya truda" qəzetəsinin 17 kanuni-əvvəl [dekabr] tarixli nömrəsindəki general Tomson tərəfindən Qarabağın mühafizəsi general Andranikə verildiyi xəbəri həqiqətə müvafiq deyil və əsasdan xalidir [əsassızdır].*

*Bakıda Müttəfiqlər qoşunu komandanı namına [adına]*
*general Tomson"*

## BAKI NEFT TİCARƏTİ VƏ ONUN MÜXTƏSƏR TARİXİ

### IV

Hələ "buruq" quyuları aralığa gəlməmiş illərdə, "əl" quyularının mədaxili sahiblərini ödəyirdi; böylə ki, o vaxtlar neftin putunu 40-45 qəpiyə sataraq əmələ [fəhlə] və mayəhtacın [avadanlıqların] xərcindən əlavə böyük pullar da qazanırdılar.

Bir də buruqlar çıxır, neft fontanları sel kimi axıb gedər. Milyonlarla özbaşına aşıb-daşan neftin qiyməti də putu 2-3 qəpiyə satılmaq dərəcəsinə qədər tənəzzül eylər [aşağı düşər]. Binaileyh [ona görə] "əl" quyusu, "buruq" quyusu ilə rəqabətdən aciz qalır; çünki əl və kəndirlə çəkilmiş neft, sahiblərinə 2-3 qəpikdən artıq qiymətə tamam olur. Daha bundan sonra mənfəətsiz əl quyuları ehtiramdan düşüb qapanmağa başlar və həştadıncı illərdə əl quyuçuluğu tərk olub dəbdən düşər.

Doxsanıncı illərə qədər neft fəvvarələri davam edər. Lakin bundan sonra getdikcə fontanlar dərindən atmağa başlar. Odur ki, buruqların dərinliyi ilk dəfə yüz sajın olduğu halda, bu gün bəzi buruqların dərinliyi dörd yüz sajını keçmişdir. Bundan əlavə, fontanla neft atan quyuların ədədi mürurla [gedərək] azalır. İndi "fontan" nüdrətən [nadir hallarda] ittifaq düşən [rast gəlinən] əlamətlərdəndir.

Söz yox ki, dörd yüz sajınlıq quyuların qazılmaq və sair xərcləri iki yüz minlərlə pul tələb eyləyir. Neftin miqdarı getdikcə azalır, məxarici isə artır. Paroxod və fabrikalarda daş kömür əvəzinə neft işlətmək adəti, neftin güclü rəvacına bais olur. Odur ki, bu səbəblərə məbni [görə], neftin qiyməti yavaş-yavaş qalxır və bir dərəcəyə gəlir ki, ucuzluqda zərər göstərən əl quyuları bu dəfə ortalığa mənfəət də çıxarır. Həmin vaxtdan başlayaraq əl quyularını təzədən işə-başa salırlar.

İştə əl quyuları dirilib təzədən min doqquz yüzüncü illərdən bəri iş görməyə başlar və gündən-günə ədədcə artar. Lakin, bu vaxtlar Rusiya məmləkətinin neft məhsulatı, yuxarıda zikr olunan səbəblərə görə, ildən-ilə azalmağa başlar. Məsələn, 1901-ci ildə yeddi yüz altı milyon put neft hasil olduğu halda, 1912-ci ildə ancaq beş yüz əlli altı milyon put hasil olmuşdur.

Bakı neftinə gəldikdə, bu da həmin müsibətə düçar olmuşdur. Böylə ki, ayda otuz iki milyonluq məhsulatımız, bu gün on beş milyona qədər tənəzzül etmişdir! (Daha doğrusu, indi səkkiz milyona qədər olar.) Bunun müqabilində, əl quyularından hasil olan neft, əksinə olaraq, ildən-ilə sürətlə artmaqdadır. Böylə ki, 1909-cu ildə əl quyularından bir milyon put neft hasil olarkən, 1912-ci ildə on beş milyon və 1913-cü ildə də hətta on doqquz milyon put hasil olmuşdur. Məmləkətin ümum nefti azaldığı bir zaman əl quyuları, hasilatı qırx-əlli milyona qədər artırıb daha böyük tərəqqilər niyyətində bulunur.

Bu gün əl quyularının ədədi iyirmi minə çatmışdır. Bunlardan cüzisi köhnə mədənlərdə, küllisi isə Binəqədi, Xozazan, Qirməki, Hökməli, Biləcər, Masazır, Digah, Xırdalan və Şubanı yerlərindədir. Bunların ehtiyacını rəf etmək [aradan qaldırmaq] üçün yüz verstlik uzunluğu qədər yirmi altı yerdə neft mənquləsi [kəməri] (нефтепровод) çəkilmişdir.

Lakin əl quyuçularının bu tərəqqisi və ələlxüsus təntənəli bir gələcəyi, bizim böyük neftçiləri rəqabət cəhətincə təşvişə salıb, quyuçuluğa bir sədd çəkmək fikrinə gətirir. Bu barədə tədbirlər ittixaz olunur [həyata keçirilir] və quyuçuluğun qabağını almaq üçün mahal idarələrinə işarələr vurulur. Quyular qazıldığı əsnada, fəhlələrin quyuda boğulduğu bəhanə olaraq, quyuların qapanması hökmü idarələrdən verilir. Böylə ki, quyuların ağzını bağlayıb otuz min fəhlə ilə beş min də iş sahiblərini bayıra atmaq niyyəti aralığa çıxır. 1907-ci ildən başlayaraq ildə bir komisyon tərtibi ilə mahal idarəsi, quyuçuların ixtiyarlarını ənvai [müxtəlif] qərardadlarla azaldır və axırda 1913-cü ildə Qafqaz canişini əli ilə öylə qanunlar ittixaz [qəbul] olunur ki, quyuçular daha artıq iş görməyə imkanları qalmayır. Bu qanunlar, səkkiz fəsildən ibarət olub ümdə cəhətləri bu aşağıdakı maddələrdən ibarətdir:

1) Təzə quyu qazmaq heç bir vəchlə və heç yerdə qoyulmasın.

2) Köhnə quyulardan neft çəkməyə mane olub, az bir müddətdə bu quyular, sahiblərinin xərcinə, torpaqla doldurulsun.

3) Quyulara adam salmaq qadağan olsun. Köhnə quyulardan mənfəətbərdar olmaq istəyənlər, qırx sajın dərinliyi şərtilə quyulara qabaqca əl ilə boru (трубы) sallayıb, sonra nefti çəksinlər, heç bir motor və vışka qoymağa izin verilməsin.

4) Köhnə quyular torpaqla doldurulduqdan sonra ixtiyar sahiblərindən alınıb kənkan [əl ilə quyu qazan, quyuçu] ilə yox, əl buruğu ilə qazmaq şərtilə sair icarədarlara bir il müddətinə icarəyə (yaxud "razvedka"ya) verilsin.

İştə istibdad dövrü və təsiri ilə təsdiq olunmuş qanunlar!

Əsl mətləb buradadır ki, Rusiyanın əsas qanunları arasında əl quyularına dair heç bir şey yazılmamışdır. Rumıniya və Amerika ölkələrində bu məsələyə dair müfəssəl qanunlar vardır. Oralarda buruq quyuları ilə bərabər əl quyuları da yaşayırlar. Qazınmaqları qadağan deyil, bərəks [əksinə] xahiş-məndlərə [istəyənlərə] müsaidələr və mərhəmətlər göstərilir.

Bu gün Bakı neftçiləri yövmiyyə [günlük] azı beş yüz put neft verən quyuya qiymət qoyduqları halda, rumınlar və amerikalılar hətta məhsulatı beş puta qədər çatmış quyulara da məna verirlər. Bu tayfaların nəzərində bir ovuc neftdən belə istifadə etməyib hədər yerə buraxmaq, vətənə xəyanət etməkdir. Amma bizim köhnə hakimlərimiz ildə 40-50 milyonluq məhsulatı olan quyuların basdırılmasına fərman vermişlərdir! Vətənin neft kimi əziz bir məhsulatı[nın] bu hakimlərin yanında heç bir qiyməti yox imiş!

Rumın qanunları mövcibincə [qanunlarına görə], neft təhsil [hasil] etmək üçün külüng və bel ilə əl quyusu qazmaq heç bir kəsə qadağan olmayıb, bəzi şərtləri gözləməklə hamıya izin verilir. Bu şərtlərdən biri: quyu qazan kankanın "nicat kəməri" mütləq belində bağlı olsun; ikincisi: kankanı quyuya sallamağa və quyudan torpaq çəkməyə işlənən kəndirlər qırılmaz bir maddədən gərək olsun; üçüncüsü: hər kankanın böyük bir dəmirçi körüyü ilə ağ dəmirdən nazik boruları olsun ki, bunların vasitəsilə quyuya yuxarıdan müdam [davamlı] hava daxil olsun; dördüncüsü: kankan quyuya daxil olduğu əsnada sərxoş olmayıb ciblərində də çaxmaqqov, kibrit, papiros və sair alovlandıran və yandırıcı şeylər özü ilə götürməsin. Odur ki, hər gün sübh tezdən hökumət məmuru gəlib kankanın [quyuqazanın] ciblərini axtarar, kəndirlərin və sair tədarükatın davamlı [avadanlığın möhkəm] olduğunu təsdiq edərsə, kankanın quyuya daxil olmağına izin verər və bu izin, məmur tərəfindən sadir olmayınca [əldə edilmədən], kankanın quyuya girməyi qadağandır.

İştə, Rumıniya qanunlarının insaniyyətpərəstliyi ilə bahəm neftçilərə yaxud vətən ticarətinə müavinəti [yardımı]! Əcəba, bizim qanunlar da mı ticarət və insaniyyətpərəstlik nöqteyinəzərilə aralığa çıxmışdır, ya burada ayrı bir məsələ vardırmı? Bu barədə gələcək məqaləyə müraciət buyurula.

*Fərhad Ağazadə*

## TELEQRAF XƏBƏRLƏRİ

**Royter acentəliyindən**

* Hamburqda yeni Bəhriyyun [Donanma] Şurası təşkil edilmişdir. Şura, bütün ticarət donanması üzərində kontrol təyin edilməyi tələb edir. Əks surətdə tabe olmayanları batırmaqla təhdid edirlər. Alınan məlumata görə, Hamburqda britaniyalılar Bəhriyyun Şurasına daxil olmaq təklifini rədd etdiklərindən naşi [ötrü] üsyan qalxmışdır.

* Portəgiz [Portuqaliya] sabiq prezidenti mayor Sidoniuo Pais, kanuni-əvvəlin [dekabrın] 14-də, üç tapanca qurşunu [gülləsi] ilə qətl edilmişdir. Üsyana gəlmiş xalq, qatilə cəza vermişlər. Pais vəfat etmişdir.

* Qandley Kaj, öz müsahibəsində demişdir ki, mülki teyrə [uçuşa] izin verilən gündən, Uzaq Şərqlə və Hindistanla post və sərnişin münasibatına başlanacaqdır.

* Lord Milner müxbirə demişdir ki, bolşeviklər hər bir işdə bizim düşmənlərimizə kömək etdiklərinə görə, az bir miqdarda ingilis əsgərləri ilə bərabər Rusiyaya Müttəfiq əsgərlər göndərilmişdir. Bolşeviklərin hərəkəti yüz minlərcə alman əsgərlərini azad etdi. Bolşeviklər Qara dəniz donanmasını almanlara verib öz vətənlərinin azadlığı üçün mübarizə etməkdən ötrü Rusiyanı tərk etməyə çalışan çexslav[lar] üzərinə cinayətkar bir surətdə hücum etdilər. Müttəfiqlərin müdaxiləsi müvəffəqiyyətbəxş olub, çexslavlar xilas edildi. Bununla bərabər, Sibirya və Cənubi Rusiya yolları düşmən üzünə qapanıb, Rusiya limanlarının alman sualtı qayıqları üçün üssülhərəkəyə [bazaya] döndürülməsi bərtərəf edilmişdir [aradan qaldırılmışdır]. Müttəfiqlərin [köməyi ilə] asayiş bərpa edildikdən sonra, Müttəfiq dövlət əsgərləri bir gün də olsun Rusiyada qalmayacaqlardır. Hərgah Müttəfiqlər bu saat Rusiyanı tərk etsələr, Rusiyada hökmfərma olan [hökm sürən] hərc-mərclik Rusiyanın hər bir yerinə sirayət edər [yayılar].

## CÜMƏ GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

* Samara – Sibiryadan verilən məlumata görə, Qərb cəbhəsi Baş komandanı Semyonov, Omskdakı inqilabı və Kolçakın diktatorluq elam [elan] etməsini qəbul etməmişdir. Cəbhəyə verdiyi əmrində general Semyonov deyir ki, onun qoşunları fəqət [yalnız] onun əmrinə itaət etməlidirlər. Qoşunların ittihadını [birliyini] poza biləcək heç bir müraciətnamə və təbliğatın aparılmasına yol verməyəcəkdir.

* Voronej – Talnik, Çemilnik, Deryazki və başqa kəndlərdə kəndçilər üsyanı olmuşdur. Üsyançılar bir neçə kəndlərdə füqəra şuralarını tövqif [həbs] edib, müdhiş surətdə qətl etmişlər. Qəza fövqəladə komisyonu qoşunu üsyançıları güllələbaran etmişdir. Bundan sonra Şura Hökuməti təcdid [bərpa] edilmişdir.

* Kaluqa quberniyasında kəndçilərin üsyanı olmuşdur. Üsyan, bolşeviklər əleyhinə olaraq kəndçiləri məcburən Qırmızı orduya almaq və həczlər [müsadirələr] nəticəsində baş qalxızmışdır. Bolşeviklər, üsyanı müdhiş vəsaitlə [dəhşətli üsullarla] yatırırlar.

* Kiyev küçələrində böylə bir elannamə yapışdırılmışdır:

*"Kiyev könüllü dəstəsi, bütün sadiq və qüvvəliləri öz sırasına dəvət edir ki, Rusiyanın işbu azad hissəsini bolşevik ağalığından müdafiə etmək mümkün olsun."*

* Almaniyada müntəşir [nəşr olunan] "Lokal-Anzeyqer" yazır ki, Leypsiq Şurası ordu baş ərkanı [qərargahı] buraxılaraq, Hindenburqun tövqif [həbs] edilməsini təhti-qərara almışdır.

* "Qolos Kiyeva" qəzetəsinin məlumatına görə, cəbhələrdəki vəziyyətdən dolayı bolşeviklər ehtiyat hissələri düzəltmək xəyalındadırlar. İşbu ehtiyatın hesabı 300 minədək artırılacaqdır. Ehtiyat qoşunları cənbində [nəzdində] xüsusi topçu dəstələri düzəlir.

* Ən mövsuq [mötəbər] mənbələrdən alınan xəbərlərə görə, Müttəfiqlər qət etmişlər ki, Sülh Konqresində sabiq imperator Vilhelm və kronprinsin təslimini tələb etsinlər.

* Bolşeviklər Vıborqdan qərbə tərəf qoşun çıxarmaq istəmişlərsə də, dəf' edilmişlər. Helsinqfors ilə Revel miyanında [arasında] müxabirat [əlaqə] kəsilmişdir.

* Rusiyanın gələcək şəkli-idarəsi barəsində Könüllü orduda ixtilaf əmələ gəlmişdir. Ordunun füqəra sinfi demokratik tərəfdarı olduğu üçün yuxarı siniflərdən narazıdırlar.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 22 dekabr (Bazar günü) tarixli 70-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

* Karlsruedən xəbər verirlər ki, Badendəki Tərəqqipərvər firqəsi, Baden əhalisinə müraciətlə Berlin bolşeviklərindən xilas olmağı təklif etmişlər. Müraciətnamə, bütün nemesləri, militarizm düşmənləri olduqları kimi, Berlin anarşisi düşmənləri kimi də təbrik edir.

* "Havas" acentəliyinin verdiyi məlumata görə general Foşa, ingilis karolu Corc tərəfindən "Merit" nişanı əta edilmişdir. İşbu nişan, ən ali nişandır.

* Sokolov işbu günlərdə Bakıya varid olmuşdur [gəlmişdir]. Aldığımız məlumata görə, Sokolov Bakı demokratiyasına müraciətən, Könüllü ordunun Gürcüstan üzərinə yürüməyi ehtimalı qarşısına etirazda iştirak etməyə dəvət edəcəkdir. İşbu etiraz, demokratiya dairələrinin hüsn-təvəccöhünü qazanır. Zira ki, Gürcüstan zorla Rusiyaya mülhəq edilərsə [birləşdirilərsə], bir qədər də geri getmiş olacaqdır. Ehtimala görə, işbu məsələ demokratlar müşavirəsində qalxızılacaqdır.

* Kanuni-əvvəlin [dekabrın] 15-də erməni fəhlələri ictimaiyyuni-amiy-yunlarının [sosial-demokratlarının] ümumi iclası olmuşdur. İclasda Sanain hadisatı barəsində məlumat verildikdən sonra ümumiyyətlə qət edilmişdir ki, hadisat müsəbbibləri [hadisəni törədənlər] əleyhinə etiraz edilsin.

## GÜRCÜSTAN

**Gürcülərin qələbəsi**

Gürcüstan Hökumətinin Bakıda olan siyasi nümayəndəsi Kartsivadze, keçən gün Xariciyyə naziri Gegeç-koridən böylə bir teleqraf almışdır:

*"Bu iki gün müddətində bizim əsgərlərimizlə erməni qoşunları arasında Axalkələk uyezdi ilə Yekaterinenfeld (Borçalı uyezdi) və Sadaxlı mövqifi [stansiyası] yanında üç böyük müharibə olmuşdur. Bu üç müharibə, erməni qoşunlarının məğlubiyyəti ilə qurtarmışdır. Bizim vəziyyətimiz möhkəmdir. Bir çox əsir və silah almışıq."*

İdarəmizdə alınan axırıncı xəbərlərə görə, gürcü əsgərləri hücuma keçib erməni qoşunlarını Allahverdi mövqifindən çəkilməyə məcbur etmişlərdir. Zirehli avtomobillər və əsir alınmışdır. Əsirlər arasında rus zabitlər də vardır.

**Gürcü tələbələri və hökumət qulluqçuları**

Gürcü tələbələrinin təcili iclasında, müharibəyə getməkdən ötrü könüllü dəstəsi təşkil edilməsi qərara alınmışdır.

Gürcüstan Hökumətinin dövləti müəssisə qulluqçuları ittifaqı xüsusi bir dəstə təşkil edib müharibə meydanına getməyi qərara almışdır.

**Erməni Milli Şurası nümayəndələri**

Erməni Milli Şurası nümayəndələri Davidxanyan, Zurabov və Tumanov, Gürcüstan Xariciyyə naziri nəzdinə getmişlərdir. Məzkur [adı çəkilən] nümayəndələr, ermənilərlə gürcülər arasında sərhəd məsələsi üstündə olan müəssif [təəssüflü] hadisə haqqında danışmışlardır. Milli Şura nümayəndələri izhar etmişlər ki, müharibəni rədd etməkdən ötrü Ermənistan Hökumətinə mənəvi icrayi-təsir edəcəklərdir.

**Gürcüstan siyasi nümayəndəsilə müsahibə**

Gürcüstan siyasi nümayəndəsi Kartsivadze, Sanain yanında erməni-gürcü müsəlləh [silahlı] toqquşması haqqında müxbirimizlə müsahibə əsnasında demişdir ki: Erməni müsəlləh dəstələrinin Gürcüstana hücum etmələri gözlənilməyən bir surətdə olmuşdur. Çünki bir məhəlli [regional] məsələlərin silah gücü ilə deyil, beynəlmiləl həkəm [arbitr] müzakirəti ilə həll olunması nöqteyi-nəzərində idik.

Biz indiyə qədər inanmaq istəmirik ki, erməni demokratiyası [xalqı] iki qonşu milləti qardaş öldürücü müharibəyə sövq etməkdən ötrü öz millətinin müharib [müharibə tərəfdarı] ünsürünə yol versin. Erməni tərəfindən izhar edirlər ki, hal-hazırda sərhəd mübahisəsi silah gücü ilə həll olunur. Bu mübahisə də Axalkələk və Borçalı uyezdləri üstündədir. Bu uyezdlər məsələsi, Gürcüstanla Ermənistan arasında nə qədər mübahisəli add [hesab] olunmuş olsa da, məhəlli [yerli] hökumətlərin Ümumqafqaziya Konfransında, yaxud Gürcüstanla Ermənistan arasında saziş yolu ilə və ya bitərəf həkəm vasitəsi ilə həll olunmalıdır. Bizim hökumətimiz bu vəsilələrə [vasitələrə] müraciət etsə də, Gürcüstanla Ermənistan arasında olan siyasi müxabiratdan [əlaqələrdən; yazışmalardan] görünür ki, Ermənistan Hökuməti mübahisəli məsələlərin həlli üçün təklif edilən vəsilələrin tədriclə boyun qaçırmışdır.

Bu məsələnin sülhlə bərtərəf ediləcəyi [aradan qaldırılacağı] sualına Kartsivadze demişdir ki:

Erməni millətinin idraklı sinfi, öz müharibələrini [müharibə tərəfdarlarını] silaha istinad etməkdən saqındıra [çəkindirə] bilər. Məlum olduğu qədər, "Daşnaksaqan" firqəsinin Bakı təşkilatı, öz Tiflis yoldaşlarına yuxarıdakı məzmunda bir xahiş teleqrafı göndərmişdir. Tiflisdə olan Erməni Sosial-Demokrat Firqəsi də bu nöqteyi-nəzərdədir.

Kartsivadze demişdir ki, müharibə başlandığı təqdirdə, sülhdost [sülh-sevər] gürcü demokratiyası [xalqı] özünün qurban vermək istedadına malik olduğunu da göstərər. Millətlə birləşmiş olan gürcü demokratiyası öz hökuməti dairəsinə heç bir kəsi buraxmamaq qüvvəsinə malik olduğunu göstərər.

Hal-hazırda gürcü demokratiyası camaat narazılığının Gürcüstan kəndlərində və şəhərlərində olan ermənilər əleyhinə bir cür iğtişaş şəklinə düşməməsi üçün bütün qüvvəsini sərf etməkdədir. Eyni zamanda gürcü millətinin hər bir sinfi özünü hökumət ixtiyarına vagüzar etmişdir [tapşırmışdır]. O qədər ruh yüksəkliyi və gürcü ordusuna daxil olan könüllü vardır ki, elan edilən dörd illik istehzari-əsgəriyyə [səfərbərlik] lazım gəlməyib, cəbhəyə kifayət qədəri təlim görmüş əsgər göndərmək mümkün olacaqdır.

Kartsivadze öz müsahibəsinin axırında demiş ki: Bizim Hökumət və gürcü dairələri, mübahisəli sərhəd məsələlərinin silahla deyil, sülhlə həll olunması nöqteyi-nəzərindədirlər. Qafqaziya millətləri bir-birləri ilə sülhcu [sülhsevər] bir halda yaşamaq bacarıqlarını isbat etməlidirlər. Hər kəs bu əsası xələldar etsə, idraklı və idraksız bir surətdə, öz istiqlaliyyətini məhv etmək deməkdir.

**Gürcüstan Hökumətinin Müttəfiq nümayəndələrinə müraciəti**

Gürcüstan Hökumətinin Xariciyyə naziri, Müttəfiq dövlət nümayəndələrinə böylə bir protesto notası ilə müraciətdə bulunmuşdur:

*"Hökumətimin sifarişinə görə, sizə xəbər verirəm ki, kanuni-əvvəlin [dekabrın] 9-da Ermənistan sərhədi Sanain və Vorontsovkada dayanmış olan sərhəd qaraqolxanamız [postumuz] erməni müntəzəm [nizami] əsgərləri tərəfindən xəyanətkar bir hücuma məruz olmuşlardır. Sərhəd dəstəsinin bir hissəsi qırılıb, bir hissəsi əsir alınmışdır. Teleqraf müxabiratı [əlaqəsi] qət edilib [kəsilib], dəmiryol xətti xarab edilmişdir.*

*Gürcüstan Hökuməti bu hücumun qəsdən və ya Ermənistan Hökuməti razılığı ilə vaqe olduğunu xəyalına belə gətirməyib, teleqrafla Ermənistan Hökumətinə müraciətən qan tökülməyi dayandırmaqdan ötrü tədbirlər ittixaz olunması [tədbirlər görülməsi] təklifində bulundu. Lakin tədbirlər ittixazı deyil, hərbiyyə hərəkatı gəldikcə şiddətlənməkdədir.*

*Ermənistan Hökumətindən aldığımız rəsmi bəyanatda, bu xəyanətli hücumun erməni hökuməti əmri ilə olduğu göstərilir.*

*Gürcüstanda olan Erməni Milli Şurası nümayəndələri ilə bərabər bizim tərəfimizdən məhəlli-hadisəyə [hadisə yerinə] göndərilən heyət az qalmışdı ki, hadisat qurbanı olsun.*

*Bir ay ziyadə bundan əqdəm [qabaq] Gürcüstan Hökuməti hamı mübahisəli məsələləri həll etməkdən ötrü Qafqaziya Konfransı çağırılmasını təklif etmişdi. Lakin Ermənistan Hökuməti əvvəlcə Erməni-Gürcü Konfransı dəvətini təkidlə, konfransda iştirak etməkdən imtina etdi.*

*Gürcüstan Hökuməti bütün mübahisəli məsələlərin sazişlə həlli və buna nail olmadıqda beynəlmiləl həkəmi vasitəsilə həll olunmasından ötrü Ermənistan Hökumətinin arzusuna müvafiq bir təklifə razı oldu. Hər gün Ermənistan Hökumətinin nümayəndələrini gözləməkdə idik. Lakin erməni nümayəndələri hal-hazıra qədər gəlməmişlərdir. Bunun əvəzində isə biz heç bir beynəlmiləl münasibatına yaraşmaz əhdşikənanə [müqavilələri pozan; xaincə] hücumlar görürüz.*

*Hər iki qonşu cümhuriyyətlər üçün həlakətli [məhv edici] və rüsvayçılığı mövcib [rüsvayçılığa səbəb] olan qan tökmək işini bərtərəf etməkdən [aradan qaldırmaqdan] ötrü burada söylədiyimiz hər bir vəsiləyə əl uzatdıq. Gürcüstan Hökuməti bütün cahan qarşısında erməni hökumətinin bu hərəkəti əleyhinə ciddi surətdə protesto edib, hər iki qardaş millətin töküləcək qanlarının məsuliyyətini erməni hökuməti öhdəsinə atır. İndiyə qədər bir dəfə də olsun erməni-gürcü milləti arasındakı münasibat [münasibətlər] xələldar edilməmişdir. Bu münasibatın xələldar edilməsi məsuliyyəti erməni hökuməti boynuna düşür.*

*Xariciyyə naziri: Gegeçkori."*

## AZƏRBAYCAN TÜRK SOSİALİSTLƏRİNİN GÜRCÜSTAN VƏ ERMƏNİSTAN DEMOKRATİYASINA MÜRACİƏTİ

Tiflis. Gürcüstan Parlamanı Rəisinə. Surəti Gürcüstan Hökuməti Rəisi-vükəlasına [Baş nazirinə] və "Borba", "Qruziya", "Kavkazskoye slovo", "Znamya truda", "Probujdeniye" qəzetələrinin idarələrinə.

İrəvan. Ermənistan Parlamanı Rəisinə. Surəti Ermənistan Hökuməti Rəisi-vükəlasına [Baş nazirinə].

Dörd sənəlik qanlı müharibənin nəticəsində bütün dünya demokratiyası və imperialist məmləkətləri hökumətləri bütün ixtilaflı məsələlərin həllini yalav qılınc ilə deyil, həkəm [arbitr] vasitəsilə həll etmək mümkün olacağını təsdiq etmişlərdir. Böylə bir vaxtda – ki Zaqafqaziya millətləri demokratiyası inqilab nəticəsində alınmış azadlığı möhkəmləşdirməlidirlər – öylə bir vaxtda qonşu millətlər demokratiyasını fəlakətə salacaq hadisat baş qalxızır. Qarabağ və Sanaində bir çox köylər yandırılıb, bir çox uşaq, böyük və qadınlar kəsilərək təxribat icra edilir. Bunların səbəbləri bir neçə cani ünsürlərdir ki, torpaq və hüdud məsələlərini qanla həll etmək xülyasına düşmüşlər. Azərbaycan sosialist demokratiyası daima Zaqafqaziya millətləri miyanındakı [arasındakı] bütün ixtilaflı məsailin [məsələlərin] silah zoru ilə deyil, bəlkə millətlərin etilafı [uzlaşması] və yaxud məhkəmə vasitəsilə həll edilməli olduqlarını izhar edir. Şimdi demokratiyanın qardaş qanı axıdılır, nahiyələr xaraba qalır, sülhcu [mülki] zəhmətkeş əhali kəsilir. Böylə bir halda biz Azərbaycan sosialistləri, demokratiya ittifaqına zərbə vuranlar, azadlıq üçün məqbər [qəbir] qazanların böylə hərəkatına etiraz ediriz. Biz, Zaqafqaziya cümhuriyyətləri hökumətlərini qardaş müharibəsinə xitam vermək, böylə hərəkatın önünü almağa dəvət ediriz. Biz, bütün Gürcüstan və Ermənistanın demokratiyasını, bütün qüvvələrini cəm edib zəhmətkeş xalq düşmənlərilə mübarizə ilə xalq düşmənlərinin demokratiya azadlığına zərbə endirməsinə yol verməməyə dəvət ediriz.

*Müsəlman Sosialistləri İttifaqı,*
*Sosial-demokrat fəhlə firqəsi "Hümmət" (Menşeviklər).*
*Bakı, 19 kanuni-əvvəl 1918 sənə.*

## MAARİF MÜFƏTTİŞLƏRİNİN YIĞINCAĞI

*(69-cu nömrənin mabədi) [ardı]*

Kanuni-əvvəlin [dekabrın] 19-da ümum ibtidai və rüşdi məktəblərin maarif müdiri möhtərəm Azad bəy Əmirovun təhtisədarətində [sədrliyi ilə] məclis açılır. Növbədə olan məsələlərdən ən mühüm hesab olunan əsgərlik vəzifəsindən müəllimlərin azad olub-olmamalarıdır. Başqa mədəni qüvvələrimiz olmadığı kimi, ümumən kəndlərdə və xüsusən şəhərlərdə kafi qədər müəllimlərimiz olmadığından, bu barədə dəxi biz hamı millətdən kasıb hesab olunuruq. Əsgərlik vəzifəsi qayət şərəfli və müqəddəs vəzifə olduğunu kimsə inkar edəmməz. Zira vəqtizərurətdə [ehtiyac olduğunda] sənələrcə öz sinəsi üstündə həqiqi bir ana kimi bizi bəsləyən əziz və müqəddəs vətənimizin şan və şərəfini düşməndən mühafizə edərək, axırda şəhid ya qazi olmaq, vicdan əhlinə ən böyük səadət və anamız olan vətənimizin bizə bəxş etdiyi neməti-üzmasına [böyük nemətə] qarşı bir şükraniyyət [minnətdarlıq] gərək olsun.

Diplomatlardan biri demişdi: "Sülh istəyirsənsə, hərbə hazır ol!" Mən cəsarətlə deyərdim ki: "Yaşamaq istəyirsək, ölümə hazır olmalıyız..." Xüləfayi-ərbəa [dörd xəlifə] zamanında bütün dünyanı titrədən bəhəq [tam mənasıyla] din və milliyyətini layiqincə qanıb düşmənin nizələrinə sinələrini sipər edən qəhrəman və mücahid dindaşlarımızın mayə olaraq verdikləri qurban və sərf etdikləri intəhasız malları idi. Odur ki, onlar din və millətin qədrini bilirdilər. Biz isə zəhmətsiz və əmək sərf etmədən din və millətə malik olmuşuz. O səbəbə görədir ki, asan ələ düşən bir sərmayə tez və asan vəchlə [surətdə] zəifləşər.

Əsgərlik vəzifəsi nə olduğunu söylədik. Şimdi, baxalım müəllimin vəzifəsi[nin] əsgərlik vəzifəsinə heç münasibatı [yaxınlığı, oxşarlığı] varmıdır? Əvət, nəinki münasibatı var, hətta müəllimlik də tam mənası ilə əsgərlik deməkdir. Fəqət, təfavütləri odur ki, əsgər cəbhədə bir qövmün cismani düşməni ilə cəng etdiyi zaman, müəllim arxada bütün aləmi-bəşərin mənəvi düşməniə'zəmi [böyük düşməni] olan cəhalətlə mübarizə edir. Meydani-hərbdə düşmənlə rubəru [üz-üzə] cəng edən əsgəri, əsgərlik ləyaqətinə çatınca[ya qədər] tərbiyə edən, onları din, millət, vətən və hüquq hissiyyatı ilə ruhən müsəlləh edən [silahlandıran] genə kənd müəllimləridir. Binaileyh [ona görə], onsuz da kəndlərdəki məktəblərə təyin etməyə kafi qədər müəllim tapmadığımız halda, əgər kənd müəllimlərini əsgərliyə götürsək, olan məktəbləri qapayıb əsgər namında yuxarıda zikr olunan kimi, minlərcə hissiz və vətəncə ruhsuz bir güruhi-layəfləhun [yaramazlar dəstəsi] hazırlamış olarıq demək olar...

İştə, bu mülahizələri dərnəzər edərək [nəzərə alaraq] bə'dəzmüzakirə [müzakirədən sonra] məclis əsgərlik məsələsində böylə bir qərardad qəbul etdi: Əsasən müəllimlər əsgərlik vəzifəsindən azad olunmalıdırlar. O şəxslər ki, hal-hazırda müəllimlik edirlər, əsgərlik vəzifəsindən azad olduğu halda, müəllimlikdən xaric olsalar, əsgərlik vəzifəsini ifa etməlidirlər və o şəxslər ki, müəyyən müəllimlər kursu ikmal edib [tamamlayıb] hal-hazırda məktəblərdə müəllimlik edirlər, onlar da əsgərlikdən azad olunmalıdırlar.

Bundan sonra müəllimlər və müəllimələr kursları açmaq məsələsi müzakirə olunur. Yuxarıda ərz etdiyimiz kimi, müəllim və müəllimələrə əşəddi-ehtiyacımız [şiddətli ehtiyacımız] olduğundan, bu barədə uzun və hərtərəfli müzakirədən sonra, ayrı olmaq şərti ilə hər maarif müfəttişlərinin nahiyəsində (özləri münasib gördüyü yerdə) bir sənəlik biri müəllimlər, digəri müəllimələr kursu açılmaq təhti-qərara alınır.

Bu məsələlərdən sonra məktəblərdə verilən dərslərin faydası üçün üsuli-nəzəri yaxud hədəsi [vizual] olaraq (для наглядности) hər məktəbdə mütəallimlərin [şagirdlərin] iştirakı ilə bir "məktəb müzəsi [muzeyi]" və mümkün olduğu təqdirdə hər maarif müfəttişinin nahiyəsində ümumi bir müəllimlər müzəxanasının bina və tərtib olunmasını məclis, ümumiyyətlə vacibədd [hesab] edərək imdidən bu barədə lazımi ciddi təşəbbüs olunmasını lazım bilir.

*İslam bəy Qəbulov*

## DƏMİRYOLUNDA

Keçən noyabr ayının 26-cı yövmündə [günündə] ifayi-vəzifə üçün üç nömrəli trenlə [qatarla] gündüz saat 12-də Bakıdan Gəncəyə yola düşdüm. O günlərdə Heybət tərəflərində dəmiryolunu sel yuyub xarab etmişdi. Yolun təmirindən sonra bu əvvəlinci tren idi ki, Bakıdan Gəncəyə hərəkət edirdi. Vaqonlar nəhayət dərəcədə qələbəlik idi. Müsafirlərin əksəri mümkün edəmmədiyindən bilet dəxi alammamışdı. Vaqonda oturmaq deyil, ayaq üstə durmaq imkanı da yox idi. Güc hal ilə özümü şeylərimlə birinci mövqenin dalanına sala bildim.

Tren hərəkət etdikdə, tren məmurları da hərəkətə gəldilər, biletləri yoxlamağa başladılar. Kimin ki bileti yox idi, Biləcər mövqifində [stansiyasında] bilet alsın deyə, kimsəyə qəbzül-vüsul [gediş qəbzi] verməyərək, hər birindən 9 manat alıb öz kupelərinə çəkildilər. Bu halda, tren rəisinin nəyi isə bilmirəm, gedib o biri vaqonlardan 3 nəfər müştəbehül-hal [şübhəli] qadını yanına salıb gətirdi və özü ilə bərabər tren rəisinin kupesinə apardı. Biləcərdə kimsə düşüb bilet almadı. Almağa dəxi ehtiyac yox imiş. Artıq tren məmurları da görünməz oldular.

Xülasə 3-cü və 2-ci mövqelərin müsafirləri biletli-biletsiz oralarda yer tapmadıqlarından 1-ci mövqeyə doluşdular. Kimsənin kimsə ilə işi yox idi. Baxıcı olmadığından hər kəs keyfi istədiyi mövqedə otururdu. Get-gedə rəis əfəndinin kupesindən hay-huy səsi ucalmağa və bangi-nuşanuş [yeyib-içmək səsi] əflakə [göyə] çıxmağa başladı. Artıq məmur əfəndilər dünyanı və dünya ilə də treni və trendəki müsafirləri unutdular.

Yol xarab olduğundan, beş saata üç mövqif [stansiya] ancaq yol ala bildik. Üçüncü mövqif yaxlaşmışdı. Hər kəsdə, yolun xarab hissəsindən qurtardığından bir sevinc əsəri görünməkdə idi. Bu halda bir iş oldu. Birdən-birə vaqonlar bir-birlərinə toxundular. Tren dayandı. Hadisəni bilmək üçün hər kəs vaqondan kənara çıxdı. Lokomotivlə bir vaqonun yoldan çıxdığı məlum oldu. Artıq burada bəkləyib qalmalı olduq. Tren rəisi ilə sair onunla işrətə məşğul olan məmurlarının əsla hadisədən xəbərləri olmadı. Kimin tədbiri oldu isə, bilməyirəm, daldakı mövqifə teleqram vuruldu. İki saat sonra bir lokomotivlə xeyli fəhlə gətirdilər. Çox tədbirdən sonra vaqonları dalı çəkib yolları bir-birinə bitişdirməyi qərara aldılar. İşə başladılar...

Gecə yarı olmaq üzrə idi. Mümkün edənlər yatmaq istəyirdilər. Ancaq, tren məmurlarının bangi-hay-huyu [hay-huy səsi] kimsəni rahat buraxmayırdı. Saat iki idi. Yuxu hər şeyə qələbə çalmışdı. Kimi uzanmış, kimi oturduğu halda, kimi ayaq üstə uyqulardı [yuxulayırdı]. Sükut hökmfərma idi [hökm sürürdü]. Arabir məmurların nalələri eşidilirdi.

Sübh olduqda məmur əfəndilər xabi-işrətdən [eyş-işrət yuxusundan] ayılıb dalana çıxıb nə hadisə üz verdiyini və trenin səhrada nə üçün dayandığını ondan-bundan sormağa başladılar. Əhvalatı xəbər tutduqdan sonra genə də kupelərinə çəkilib axşamkı işrətin ilərisinə başladılar.

Qərəz, 14 saat səhrada qaldıqdan sonra sübh saat 8-də tren hərəkət etdi. Ancaq hər mövqifə yetişdikdə müsafirlərdən bəzisi düşür və yenisi minirdi. Kimsə gəlib kimsədən bilet sormazdı. Xülasə, bu hal ilə iki gün ahəstə-ahəstə yol getdikdən sonra ayın 28-də Gəncəyə varid olduq. Bu qədər deyə bilərəm ki, müsafirlərin çoxusu biletsiz idilər. Gəncədən övdə-timdə [qayıtdığımda] dəxi eyni halı müşahidə etdim.

*Hatif*

## BAKI XƏBƏRLƏRİ

* Bazar günü 22 kanuni-əvvəl [dekabr] axşam saat 4-də Persidski soqaq 121 nömrəli xanədə Qafqaziya Müsəlman Müttəllimlərinin [Tələbələrinin] Mərkəzi Komitəsinin iclası vaqe olacaqdır. Yoldaşların vəqti-müəyyinədə [təyin edilmiş vaxtda] gəlmələri mütəmmənadır [xahiş olunur].

* Ərzaq Nəzarəti Şəki, Şamaxı, Lənkəran, Şuşa, Ağdaş, Cəbrayıl, Göyçay, Qazax, Gəncə, Zaqatal və Quba bələdiyyə məclislərinə müraciətən rica etmişdir ki, nə qədər dəri olduğu barəsində məlumat versinlər.

* Ərzaq Nəzarəti dəftərxanası Bakı-Sabunçu dəmiryolu idarəsinə xəbər vermişdir ki, kəndlərə aparılacaq ərzaq və mühümmat [ləvazimat] barəsində vəsiqə almaq lazım deyildir, vəsiqəsiz də aparıla bilər.

**Azərbaycan dəmiryollarında**

* Türüq və Məabir [Nəqliyyat və Rabitə] Nəzarəti təcili surətdə xəbər vermişdir ki, kanuni-əvvəlin [dekabrın] 16-sında 20 nömrəli trenin toqquşması barəsində təhqiqat yapılıb əqd [akt] bağlanaraq Nəzarətə pişnihad [təqdim] edilsin.

* Poylu mövqifindəki [stansiyasındakı] sui-istemaldan naşi [sui-istifadə səbəbindən] Türüq və Məabir nazirinin əmri mövcibincə [əsasında] mövqif müdiri Aleynikov, müavini Qeqel, acentə Rjetski, xidmətçi Dağtəmirov müttəhim edildikləri üçün qulluqlarından kənar edilərək məhkəməyə verilirlər. Plaxova xəbərdarlıq edilir ki, bir də öz vəzifəsində zəiflik ibraz edərsə, qulluqdan çıxarılacaqdır.

**Bələdiyyə Ərzaq şöbəsinin Ərzaq Nəzarəti təhti-idarəsinə [idarəsi altına] keçməsi**

Necə ki məlumdur, Bələdiyyənin və məhəlli [yerli] hökumətin qətnamələrinə görə bu vaxtadək Bələdiyyənin ixtiyarında olan Ərzaq şöbəsi fəsx [ləğv] edilib, hamı işləri və mövcud mal anbarları Ərzaq Nəzarətinə veriləcəkdi.

Üç gün irəli Ərzaq naziri Nəsib bəy Yusifbəyov cənabları Ərzaq şöbəsi idarəsinə təşrif gətirib, şöbənin işlərini və qulluqçularını rəsmən qəbul etdilər. Əvvəlcə şöbənin müdiri V. V. Smirnov, məsul qulluqçuları vəzir [nazir] cənablarına təqdim edib, sonra bir-bir onların hansı qulluqda olmaqları və nə vəzifələr aparmaqları barəsində vəzirə məlumat verirdi. Sonradan vəzir cənabları Bakıda çörəyin hələ indiyə kimi çox baha qiymətə satılmağı və bu işdə ən baş müqəssirlər çörəkçilər olmaqları barəsində bir az söhbət edib şöbənin vəzifələri və həmçinin tamam şöbələrinin bundan sonra da baqi [yerində] qalması barəsində öz nəzəriyyatını [fikirlərini] bəyan edib, qulluqçularla vidalaşdı.

## MÜRACİƏTNAMƏ

Şamaxı hadisati-əliməsindən [faciəli hadisələrindən] sonra möhtərəm şairimiz Abbasqulu Səhhət cənabları Şamaxıdan Gəncəyə köçməyə məcbur oldu. Orada qaçqınlar miyanında [arasında] hökmfərma olan [hökm sürən] yatalaq xəstəliyi bu zatimöhtərəmi də biz Azərbaycan türkləri əlindən alıb apardı. Azərbaycanın işıqlı bir ulduzu da daimi olaraq batdı. Abbasqulu Səhhət dari-dünyadan dari-bəqaya rehlət buyurdular [dünya evindən əbədiyyət evinə köçdü]. Mərhum şairimizin əsərlərini yığıb nəşr etmək qəsdilə bütün millətdaşlarımıza müraciətlə təvəqqe edirik, onun mətbu və qeyri-mətbu [çap edilmiş və çap edilməmiş] əsərlərindən hər kəsdə var isə, rica ediriz ki, lütfən, aşağıdakı adreslərə göndərsinlər.

1. Bakı İkinci Türk ibtidai məktəbi, Əbdüllətif Əfəndizadə, Melniçnaya küçə nömrə 8;
2. Bakı Üçüncü Türk ibtadi məktəbi, Məhəmməd Əmin Əfəndizadə, Pozenovskaya soqaq, nömrə 9.

Bu günlərdə müqtədir şairlərimizdən Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndinin **"İnsanların tarixi faciələri" yaxud "Əlvahi-intibah"** adlı mənzum əsərinin ikinci cüzü çapdan çıxıb mövqeyi-füruşa [satışa] qoyulmuşdur. Kitabça gözəl və qalın kağız üzərində təb' [çap] edilmiş, fiatı [qiyməti] 2 manatdır. Turan mətbəəsində, Parapetdə "Məktəb" mağazasında və Bazar caddəsində Paşa Qasımzadənin mağazasında.

*b. 4 – 3*

**Bakı Obşestvenni Sobraniyasının [Bakı İctimai Yığıncağının] (Klubun) müdirlər şurası**

Ümum üzv və namizədlərə məlum edir ki, klubun kitabxanası açılıb, Qorçakovski küçədə 7 nömrəli evdə bayram günlərindən siva [başqa] açıqdır səhər saat 10 – 2-yə kimi.

*b-29 2 - 2*

**İngiltərə Dəniz Nəqliyyatı İdarəsi icazəsilə "Samolyot" paraxod cəmiyyəti**

Mal göndərən və mal gətirənlərə elan edir ki, 17 kanuni-əvvəldən [dekabrdan] cəmiyyət bütün Xəzər dənizindəki nümayəndəliklərini iadə etmişdir [geri qaytarmışdır]. Bakı şəhərində İran, Krasnovodsk və Petrovsk şəhərlərinə göndərilən yükləri 24 və 26-cı körpülərdə qəbul edir. Acentənin kantor telefon nömrəsi 19-22.

Acentə V. N. Natanzondur. Paraxodstvo [gəmiçilik] idarəsi, telefon nömrəsi 46-40.

Paraxodstvo müdiri F. F. Kulikov.

*b - 31*

**Diş həkimi İsay Samuiloviç Karşteynbaum**

Naxoşlar[ı] əvvəlki kimi qəbul edir. Dişləri ağrısız çıxarır və qızıl üzərində süni dişlər qayırır.

Ünvan: Tsitsyanovski və Çadrovı küçələrin küncündə İsrafilovun 41 nömrəli evində.

Qəbul edir hər gün saat 12-dən 3-ə kimi. Axşam 5-dən 8-ə kimi.

*2610*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Qoldqor-Fradkinin**
**Diş müalicəxanası**

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

*2607 12 – 1*

**Doktor**
**Doktor Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Diş həkimi R. S. Fuks**

Mariinski küçədə Ferdinandın apteki yanına köçübdür. Son üsul ilə diş qayırır və diş köklərinə müalicə edir. Hər gün səhər saat 9 - 2-yə kimi; axşam saat 5 - 7-yə kimi.

*2611*

**Həkimlərin xüsusi gecə və gündüz növbələri**

Ünvan: Bolşoy Moskva mehmanxanası, Qoqolevski və Torqovı küçələrin küncündə. Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

**Müdir və baş mühərrir:**
**Ceyhun bəy Hacıbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***İnna lillahi və inna ileyhi raciun***

"İnna lillahi və inna ileyhi raciun": "Həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq." Bu ifadə, "Quran"ın Bəqərə surəsinin 156-cı ayəsinin bir hissəsidir. Ayə belədir: "O kəslər ki, başlarına bir müsibət gəldikdə, həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq, deyərlər."

***Bakı neft ticarəti və onun müxtəsər tarixi***

"Sajın" yaxud "sajen": metrik sistemdən əvvəl işlədilən, təxminən 2,13 metrə bərabər uzunluq ölçüsü.

***Cümə günkü mühüm xəbərlər***

"…kronprinsin təslimini tələb etsinlər.": Almaniya imperatoru II Vilhelmin oğlu Fridrix Vilhelm nəzərdə tutulur.

"…Badendəki Tərəqqipərvər firqəsi...": Almaniyada mövcud olmuş Mütərəqqi Xalq Partiyası (Xalq Tərəqqipərvəran Firqəsi) nəzərdə tutulur.

"…ingilis karolu Corc…": Böyük Britaniya kralı V Corc nəzərdə tutulur.

"Merit" nişanı: Böyük Britaniyanın "Xidmət" ordeni nəzərdə tutulur.

***Gürcüstan***

"Kartsivadze": "Azərbaycan" qəzetnin bu nömrəsində hər yerdə "Karçivadze" kimi getmişdir.

***Gürcüstan: Gürcüstan siyasi nümayəndəsilə müsahibə***

""‘Erməni millətinin idraklı sinfi, öz müharibləri ni…": Qəzetdə "mühariblərini" yerinə səhvən "müharibələrini" getmişdir.

**Müraciətnamə**

"Məhəmməd Əmin Əfəndizadə": Cümhuriyyət dövründə eyni adsoyadını daşıyan bir neçə şəxs mövcuddur; burada söhbət Əfəndizadə Məhəmməd Əmin Ağa Əli oğlundan gedir.

# REGİONLAR

## Səhid ailələri və qazilərin müraciətlərinə diqqətlə yanaşılır

**Goranboyda Xan Qərvənd, Əlirzalı, Yeniyol və Təklə kəndlərindən olan şəhid ailələri və qazilərlə görüş keçirilmişdir.**



Xan Qərvənd kəndindən olan Birinci Qarabağ müharibəsi şəhidi Faiq İsmayılovun ailəsinin yaşadığı evin həyətində keçirilən görüşdə diqqətə çatdırılmışdır ki, Goranboy rayonunda şəhid ailələri və qazilərin problemlərinin öyrənilməsi və həlli üçün tez-tez görüşlər təşkil olunur. Görüşlər zamanı edilən müraciətlər yerli icra orqanlarının səlahiyyətləri daxilindədirsə, onlar operativ həll olunur. Digər müraciətlərin araşdırılması və həlli üçün isə aidiyyəti üzrə mərkəzi icra hakimiyyəti orqanlarına rəsmi müraciətlər ünvanlanır.

Görüşdə qeyd edilmişdir ki, şəhid ailələri və müharibə iştirakçıları tərəfindən bu il ümumilikdə 26 müraciət qeydə alınmışdır. Müraciətlər, əsasən, su ilə təminat, torpaq sahəsinin verilməsi, kənddaxili yolların təmiri, məşğulluqla bağlı olmuşdur. Qaldırılan məsələlərin bir çoxu həll edilmiş, bəziləri isə tədbir görülməsi üçün aidiyyəti qurumlara göndərilmşdir.

## Xüsusi qayğıya ehtiyacı olan uşaqların reabilitasiyasına başlanılmışdır

**"Gəncə şəhərində və ətraf rayonlarda yaşayan xüsusi qayğıya ehtiyacı olan uşaqların (o cümlədən autizm və daun sindromu) sosial və psixoloji reabilitasiyasının gücləndirilməsi" layihəsinin icrasına başlanmışdır.**

Məqsədi adından məlum olan layihə çərçivəsində xüsusi qayğıkeşliyə ehtiyacı olan 20 uşaq (autizm, daun sindromu, mikrosefaliya, uşaq serebral iflici, əqli gerilik, nitq qüsuru, nitq ləngiməsi) üçün fərdi intensiv reabilitasiya məşğələləri və onların valideynləri üçün məsləhət xidməti təşkil olunacaq. Reabilitasiyaya Gəncə şəhəri ilə yanaşı, ətraf rayonların bu qəbildən olan uşaqları da cəlb edilmişdir.

"Regional İnkişaf üzrə Maarifləndirmə" İctimai Birliyinin təşkilatçılığı və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə keçirilən və 2 ay davam edəcək reabilitasiya zamanı uşaqlarda




davranış vərdişləri və bacarıqlarında olan inkişaf, qrup və ətrafdakı insanlara uyğunlaşmaq, ictimai qaydalara riayət etmək bacarığı və vərdişlərinin yaradılması kimi məsələlər ətrafında məşğələlər aparılacaqdır.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Arıçı Mütalib

### 30 il yurdundan olmuş bu zəhmətkeş laçınlı indi özünü dünyanın ən xoşbəxt adamı hesab edir

**Bu da doğma ocaq! Bu da doğulub boya-başa çatdığı, qayğısız uşaqlıq illərinin bahar yelləri kimi ötüb keçdiyi doğma kənd! Atalı-analı günlərin sirli-sehrli xatirələri.**

Mütalib 30 ildən bəri həsrət qaldığı həyətlərindəki sal daşın üstündə oturub gözlərini məchul bir nöqtəyə dikmişdi. Xəyal onu acılı-şirinli xatirələrin boy verdiyi bir aləmə aparmışdı...

Yaxınlıqda partlayan top mərmilərinin gurultusu arvad-uşağın ah-naləsinə qarışmışdı. Dağdan ağır bir el yerindən oynayırdı. Adamlar əsrlərdən bəri ata-babalarının min bir zəhmətlə tikib-qurduqları, halallıqla qazanıb yığdıqları dolu evlərindən əli boş, quruca canlarını götürüb çıxırdılar. Bu insanların günahı nəydi ki, belə ağır cəzaya düçar olmuşdular. Köç karvanı dağları, dərələri arxada qoyub ağır-ağır irəliləyirdi. Qartalların qıy vurduğu sıldırım qayalar, buludlarla qolboyun olan başıqarlı dağlar, ayrılıq nəğməsi oxuyan durnagözlü bulaqlar, yaşıl yamaclar, gül-çiçəkli çəmənlər arxada qalırdı.

Onda Mütalib yeniyetmə uşaq idi. Olanları doğru-dürüst başa düşürdü. El-obaya qarışıb yola çıxsa da, qohum-qardaşla yanaşı addımlasa da, ayaqları yerimirdi. Hələ bərkiməmiş çiyinlərindəki yük ağır idi, çox ağır. Doğma elin, sevimli Laçının həsrət yükünü aparırdı. Bu ağır yükə kiçik bir uşağın gücü necə çatırdı, İlahi?! Amma içində bir ümid qığılcımı da vardı Mütalibin. Bu yerlərə yenidən dönmək, Laçının ağ günlərini görmək ümidi...

Ağrılı, acılı məcburi köçkünlük həyatı xatirələrdə sağalmaz yaralar qoysa da, gəlib keçdi. Dövlət, insanlar yurd həsrəti yaşayanlara isti qucaq açsalar da, böyük qayğıkeşlik və diqqət göstərsələr də, yurd niskili, Laçın həsrəti ürəklərdə qaysaq bağlamayan yaraya bənzəyirdi. Nə xoş ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi və qəhrəman ordumuzun qazandığı parlaq qələbə yaralarımıza məlhəm oldu. Ermənistanın silahlı quldurları torpağımızdan qovuldu, ərazilərimizin işğalına son verildi. Yurdhəsrətli ürəklərin ümid qığılcımları alovlanıb bütün qaranlıqları nura qərq etdi.

Məcburi köçkünlük illərində Bərdə rayonunun Qaradağlı kəndində Novruzovun ailəsi halal zəhmətləri ilə özlərinə yaxşı gün-güzəran qurdular, ev-eşik yaratdılar. Ata-baba sənəti olan arıçılığı bacarıqla davam etdirən Mütalib o çətin illərdə ailəsinin korluq, sıxıntı çəkməsinə imkan vermədi. Yetişdirdiyi təmiz və təbii balla çoxlarının dərdinə dərman oldu, ailə büdcəsinin ehtiyaclarını ödədi.

İndi budur, Mütalib yenidən doğma ocağa - Laçının Şam kəndinə gəlib. Həm də tək yox, qayğıkeşliklə becərdiyi, bəslədiyi arı ailələri ilə birlikdə. O, keçirdiyi hissləri bizimlə həvəslə bölüşdü:

- Özümü son dərəcə xoşbəxt sayıram. Müqəddəs ata ocağına qayıtmaq, canım qədər sevdiyim dağlara yenidən qovuşmaq başqa heç nə ilə müqayisə edilməyəcək bir bəxtiyarlıqdı. İnanın ki, səmimi deyirəm, aşağıda, Bərdədə olanda ağrı-acılar məni əldən salırdı, hər gün nə qədər dava-dərman qəbul edirdim. Artıq on beş gündən çoxdur ki, burdayam. Allaha and olsun ki, bir həb də atmamışam. Vücudu rahatlıq tapan, ruhu dincələn təkcə mən deyiləm. Hərdən oturub saatlarla tamaşa edirəm. Sanki arıların da əhvali-ruhiyyəsi yüksəkdir. Çox həvəslə işləyirlər. Çölün-çəmənin çiçəklərinin şirəsini pətəklərə sanki sevinclə daşıyırlar. Bal arıları müqəddəs varlıqdır-halallıq sevərlər. Onlara haramlıq qatsan, əlin boşda qalar, ruzin qeybə çəkilər. Pətəkləri açıb baxır, durumu öyrənirəm ki, gərəkən tədbirlər görüm. Şükür ki, heç bir kənar müdaxiləyə ehtiyac yoxdur. Bunu sürətlə ağaran saçlar deyir. İnanıram ki, bu il məhsulumuz bol olacaq. Dosta, tanışa da pay verə biləcəyik. Güman ki, ayın sonuna yaxın yenidən dağ balı süzə biləcəyik.



Mütalib söhbətində erməni faşistlərin törətdikləri insanlığa sığmayan vəhşiliklərdən də söz açdı. Dedi ki, kəndimizdə bir salamat ev də qalmayıb: "Bir zamanlar çal-çağırlı, axar-buxarlı, abad Şam kəndi indi xarabaya çevrilib. Laçında həyata keçirilən quruçuluq işləri isə hər kəs üçün böyük təsəllidir. Laçın bu gün gerçək bir inşaat meydanıdır. Yollar çəkilir, körpülər salınır. Xarabalıqların yerində kəndlər, şəhərlər ucaldılır, parklar, xiyabanlar tikilir. İnanıram ki, tezliklə dağlar qoynunda gözəlliyi ilə dünyanı heyran qoyacaq möhtəşəm və əzəmətli yeni bir Laçın görəcəyik".

***Lazım QULİYEV, "Azərbaycan"***



## Bir cənub diyarında

### Artıq Masallını da turizm bölgəsi hesab etmək olar

**Bütövlükdə cənub bölgəsində, o sıradan Masallıda turizm obyektləri, istirahət mərkəzləri, müalicə ocaqları çoxdur. Hər il nəinki ölkəmizin müxtəlif bölgələrindən, eləcə də xarici ölkələrdən minlərlə turist istirahət və ya müalicə üçün bu yerlərə gəlir.**

Masallının turizm obyektləri, əsasən, rayon mərkəzinin cənub-qərbində, Qəriblər kəndi istiqamətində, nadir meşə ağaclarının yaşıllıqlarından don geymiş silsilə dağların qoynunda yerləşir. Qəriblər kəndini keçən kimi yolun hər iki tərəfində "Gölüstü", "Viləş", "Gülüstan", "Baba bulağı", "Ailə sevinci", "İstisu", "Zirvə", "Beş qardaş", "Turist", "Cənnət bağı", "Hotel", "Masallı", "Dəmirağacı" kimi istirahət məkanlarının, sanatoriyaların bir-birindən yaraşıqlı və fərqli hotel və kottecləri diqqəti cəlb edir. Həm də bu tikililər memarlıq cəhətdən göz oxşayır, insanda müsbət emosiya doğurur.

Masallının "İstisu"yu rayon mərkəzindən 13 kilometr aralıda, dəniz səviyyəsindın 160 metr yüksəklikdə qərar tutmuş Dəmbəlov dağının döşündə, Viləş çayının sağ sahilində yerləşir. Qədim zamanlardan yerli əhali, ətraf rayonlardan olan insanlar bura bir çox xəstəliklərin müalicəsi üçün üz tutmuş və şəfa tapmışlar. İllər keçdikcə Masallı suyunun şöhrəti daha şox yayılmış, kənar və uzaq yerlərdən də adamlar sağlamlıqlarını bərpa etmək üçün onun isti qoynuna sığınmışlar. Bu suyunun tərkibində hidrogen-sulfid, natrium-xlor, kalsium, maqnezium-hidrokarbonat və hər litrdə 30 milliqram olmaqla yod vardır. İsti su yerin 90 - 250 kilometr dərinliyindən 60 dərəcə temperaturda çıxır.

1960-cı illərin əvvəllərində məşhur həkim, alim, şair, bəstəkar Mir Kazım Aslanlı (Sərəng) elmi yolla sübut etmişdir ki, sözügedən isti su ilə revmatizm, dəri, böyrək və sidik yolları, radikulit, prostat, hipertoniya, qaraciyər və öd yolları, qadın və kişi sonsuzluğu, mədə-bağırsaq və s. xəstəlikləri sağaltmaq mümkündür. Mir Kazım Aslanlının bu tədqiqatı o vaxtlar böyük maraq doğurmuş, dövlət səviyyəsində diqqəti cəlb etmişdir. Sovet İttifaqının ayrı-ayrı yerlərindən bura - İstisu şəfa ocağına 12 alim dəvət olunmuşdur. Onlar burada tədqiqat işləri aparmış, azərbaycanlı alimin fikirlərini təsdiq etmişlər. Beləliklə, 1971-ci ildə İstisu şəfa ocağına ümumittifaq müalicəvi kurort-sanatoriyası statusu verilmişdir.

Amma şəfa ocağının əsl inkişafı ölkəmiz müstəqilliyə qovuşandan sonra başladı. Burada "İstisu" Sanatoriyası yaradıldı. 1998-ci ildə Masallıdan olan iş adamı İdırım Allahyarov obyekti özəlləşdirdi. Elə o vaxtdan da burada genişmiqyaslı bərpa və quruculuq işləri başlamışdır. İndi bu müalicə ocağında Avropa standartlarına uyğun müalicəvi vannalar, istirahət üçün kotteclər, 160 yerlik hotel, digər obyektlər fəaliyyət göstərir. "İstisu"ya gələnlər xüsusi həkim nəzarətindədirlər. Onların ekoloji cəhətdən təmiz kənd məhsulları ilə qidalanması gündəlik olaraq diqqət mərkəzində saxlanılır. Bundan başqa, burada dincələnlər üçün atla gəzinti təşkil edilir. Həmçinin Viləş çayında çimərlik, sanatoriya ərazisində idman qurğuları ilə təchiz edilmiş meydança mövcuddur. Turistlər üçün qonşu Yardımlı, Lənkəran, Astara və Lerik rayonlarına səfərlərin təşkili də unudulmayıb.

İndi yayın orta ayıdır. Hər kəs istirahət etmək, sağlamlığını bərpa etmək üçün seçdiyi yerə üz tutur. Masallının "İstisu" sağlamlıq ocağı da hazırda əvvəlki aylarla müqayisədə daha çox qələbəlikdir. İstirahətə gələnlərin bir neçəsi ilə söhbət etdik. Tamella Abbasova:

- Bakıda yaşayıram. Artıq 20 ildir "İstisu"ya gəlirəm, vannalar, masaj səhhətimə müsbət təsir göstərir. Belimdəki, dizlərimdəki, çiyinlərimdəki ağrılar çəkilib gedir. Buranı qohumlarıma, tanış-bilişlərimə də məsləhət görürəm. Tovuzdan olan qohumlarım indicə telefonla zəng edib dedilər ki, 5 nəfərlə gəlirlər.

Tamella xanımın dediklərini eşidən Mirhaşım Ağalarov da söhbətə qoşuldu:

- Mən Neftçaladan gəlmişəm. Xanımın dedikləri düzdür. "İstisu" adama sanki can verir. Ağrıların çəkilib getdikcə özünü quş kimi hiss edirsən. Sanatoriyada bütün işlər yaxşı təşkil olunub. Sağ olsunlar, hər gün bir neçə dəfə təzyiqimi yoxlayıb, vannaların necə təsir göstərdiyini müəyyənləşdirirlər, tövsiyələrini verirlər. Qidalanmağımızdan, istirahətimizdən də şikayətimiz yoxdur.

"Viləş" isə Masallının nümunəvi istirahət mərkəzlərindən sayılır. Mərkəzin icraçı direktoru Novruz Seyfullayevin dediklərindən məlum olur ki, "Viləş" 2011-ci ildən fəaliyyətə başlayıb. Keçən il burada 5 min nəfərdən çox adam istirahət edib. İstirahət mərkəzində hər cür şəraiti olan 50 otaqlı mehmanxana, 10 kottec, şadlıq evi, uşaqlar və böyüklər üçün hovuzlar, idman qurğuları ilə təchiz edilmiş meydança və s. vardır. "Viləş" həmişə çal-çağırlı olur. Bakıdan, digər yerlərdən tez-tez müğənnilər dəvət edilir, konsertlər təşkil olunur.

Bakı şəhər sakini Ülviyyə Heydərli burada yaradılan şəraitdən razılıq etdi:

- Bir həftədir ailə üzvlərimizlə burada dincəlirik. Hər şey yüksək səviyyədədir. Burada istirahət rejimi elə təşkil olunub ki, günün necə gəlib keçdiyini hiss etmirsən. Biz hər il istirahət zamanı "Viləş"ə üstünlük veririk.

Masallı ilə yanaşı, cənub bölgəsinin Lənkəran, Astara, Lerik rayonlarında da nümunəvi istirahət mərkəzlərimiz çoxdur. Mavigözlü Xəzərin qumlu sahilləri, diş göynədən buz bulaqları, aynasında zümrüd meşələri əks etdirən dumduru gölləri, yam-yaşıl ormanları, tarixi yerləri sanki adama "mən vətən torpağıyam, uzağa niyə gedirsən, gəl məni gör, tanı, qoynumda dincəl" - deyir.

***Seyran CAVADOV, "Azərbaycan"***

### ◆ Qazax

## 35 sentner son göstərici deyil

**Cari ilin məhsulu üçün Qazaxda 11854 hektarda taxıl toxumu əkilmişdir. Bunun da 5243 hektarı buğda, 6611 hektarı arpadır.**

Biçinin mütəşəkkil keçməsi və optimal müddətdə başa çatdırılması üçün hələ xeyli əvvəl geniş hazırlıq işləri görülmüş, texnikalar saz vəziyyətə gətirilmişdir. Hazırda zəmilərdə 32 kombayn işləyir. Havaların əlverişli keçməsindən istifadə edən fermerlər qısa vaxt ərzində 5243 hektar buğda sahəsinin 453 hektarından çoxunda biçin aparmış, 1587,3 tondan çox məhsul toplamışlar. Hələlik hər hektardan orta məhsuldarlıq 35 sentnerdir.

Arpa sahələrindən də götürülən məhsulun həcmi keçənilkindən çoxdur. Belə ki, 6611 hektar arpa sahəsinin 4826 hektarı biçilmişdir. Sahələrdən 14742,8 tondan artıq arpa tədarük edilmişdir. Hələlik hər hektardan orta məhsuldarlıq 30,5 sentnerdir. Biçin davam edir.

## Kümçülər öhdəliklərinə əməl etdilər

**Artıq səkkizinci ildir ki, Qazaxda barama istehsal olunur. Cari ilin barama mövsümündə rayon kümçüləri 3200 kiloqram yaş barama istehsal etməyi nəzərdə tutmuşlar.**

Öhdəlik yerinə yetirilmişdir. İkinci Şıxlı, Birinci Şıxlı, Yuxarı Salahlı, Aslanbəyli, Kəmərli, Qaymaqlı, Aşağı Salahlı, Orta Salahlı, Kosalar, Hüseynbəyli, Çaylı, Daş Salahlı, Xanlıqlar, Alpout, Dəmirçilər, Cəfərli kəndlərinin kümçüləri 80 qutu ipəkqurdu toxumu yetişdirərək "Azəripək" MMC-yə 3279,1 kiloqram barama təhvil vermişlər.

***S.Yunisoğlu, "Azərbaycan"***

### ◆ Şabran

## Üzümçülər yığıma hazırlaşırlar

**Şabran, əsasən, aqrar rayondur. Ərazisi geniş düzənlərdən, heyvandarlıq üçün otlaq sahələrindən, qara torpaqdan ibarət olan rayonda kənd təsərrüfatının inkişafı sarıdan imkanlar yetərincədir.**



Şabranlılar üzüm becərməyi dədə-babadan yaxşı bilirlər. Hazırda rayon üzrə mövcud olan 392, 3 hektar üzüm bağlarına aqrotexniki qulluq göstərilir. Bu günədək 373,3 hektarda cərgəarası şum aparılıb, o cümlədən 200 hektarda xəstəliklərə qarşı kimyəvi preparatlardan istifadə etməklə mübarizə tədbirləri həyata keçirilib. Paralel olaraq yaxın zamanda başlayacaq yığıma hazırlıq görülür.

Rayonda ixtisaslaşmış iki üzümçülük təsərrüfatı var. Ağbaş kəndindəki təsərrüfat 121 hektarda yeni üzüm sortları yetişdirir. Gəndob qəsəbəsindəki təsərrüfatın isə 125 hektar üzüm bağı mövcuddur. Gəndobda həmçinin 12 min tonluq anbar tikilib.

Üzümdən əlavə rayonda 335,88 hektar meyvə bağları da var. Onun 165,6 hektarı təzə salınıb. Son məlumata görə, 70 hektar gilas bağından hələlik 189 ton məhsul tədarük olunub.

Əvvəllər rayonda alça əkib-becərməyə o qədər də maraq yox idi. Amma son illər dağ kəndlərində alça ağaclarının sayı artıb. Hazırda rayon üzrə 20 hektar alça bağı var. İndiyəcən toplanmış 46,3 ton alçanın bir hissəsi yarmarkalara göndərilib. Yerdə qalanı isə konserv sexlərinə verilib. Bir çox emalçı hələ mart ayından istehsalçılarla müqavilə bağlayıb. Bu ondan xəbər verir ki, Şabran alçası heç də üzümündən geri qalmır. Elə bunun nəticəsidir ki, təkcə cari ilin əvvəlində rayonda 10 hektardan çox ərazidə yeni alça bağı salınıb.

***Akif ƏLİYEV, "Azərbaycan"***

# NATO Ukraynaya yalnız vəd verdi

## Bu ölkənin alyansa qoşulması üçün dəqiq müddət açıqlanmadı

**NATO-nun Vilnüsdə keçirilən növbəti zirvə toplantısı başa çatıb. Sammitin yekununa əsasən "Böyük yeddilik" (G7) ölkələri Ukrayna üçün təhlükəsizlik təminatları ilə bağlı birgə bəyanat qəbul edib və ona Rusiyanın gələcək silahlı hücumu zamanı "daimi" təcili hərbi və maliyyə yardımı göstərəcəklərini vəd ediblər. NATO-nun Vilnüs toplantısında Ukraynanın alyansa qoşulması üçün dəqiq müddət açıqlanmayıb.**




### Ukrayna Avropa ölkələrindən "F-16" qırıcıları alacaq

Britaniyanın "Financial Times" qəzeti yazır ki, konkret olaraq söhbət Qərbin Ukrayna ordusu, donanması və hərbi hava qüvvələri üçün müasir avadanlıqların tədarükündən, kəşfiyyat məlumatlarının mübadiləsinin gücləndirilməsindən, Ukrayna hərbçilərinin və onların hərbi qüvvələrinin hazırlığının genişləndirilməsindən, birgə hərbi təlimlərdə iştirak üzrə öhdəliklərindən gedir. Bundan əlavə, ABŞ-nin milli təhlükəsizlik müşaviri Ceyk Sallivan bildirib ki, Ukrayna yüksək ehtimalla Avropa ölkələrindən "F-16" qırıcıları alacaq.

Bundan əvvəl NATO-nun baş katibi Yens Stoltenberq alyansa üzv ölkələri Ukraynaya uzunmüddətli dəstək verməyə çağırıb. Stoltenberq bu barədə NATO-nun Vilnüs sammiti çərçivəsində Ukrayna Prezidenti Vladimir Zelenski ilə birgə mətbuat konfransında bildirib. Buna cavab olaraq Zelenski Vilnüs sammitindən sonra ölkəsinin NATO-ya dəvət edilməməsindən narazılığını ifadə edib.

Vilnüsdə keçirilən sammitdə Ukraynaya alyansa dəvət və NATO-ya daxil olmaq üçün proqramlar təqdim olunmayıb. Stoltenberqin sözlərinə görə, ilk növbədə münaqişəni dayandırmadan bu məsələlərin həlli mümkün deyil.

Bu arada, gözlənildiyi kimi, Moskva G7-nin Kiyevə təhlükəsizlik zəmanəti vermək qərarına mənfi reaksiyasını gecikdirməyib. Prezident Vladimir Putinin mətbuat katibi Dmitri Peskov bu qərarın təhlükəsizliyin bölünməzliyi prinsipini pozduğunu bildirib. Onun fikrincə, onlar Ukraynaya təhlükəsizlik zəmanəti verməklə Rusiya Federasiyasının təhlükəsizliyinə qəsd edirlər. Bu cür hərəkətlərin nəticələri çox neqativ ola bilər.

"Valday" Beynəlxalq Diskussiya Klubunun proqram direktoru Oleq Barabanov deyib ki, Amerika Birləşmiş Ştatları NATO üzvü olmayan Ukraynaya İsrail modeli üzrə təhlükəsizlik zəmanəti verməyə hazır olduğunu dəfələrlə bildirib.

Ekspertin dediyinə görə, Vilnüs sammitindəki qərar kifayət qədər simvolikdir. Kiyev uzun müddətdir ki, alyans üzvlərindən Ukraynanı hərbi təcavüzdən qorumaq üçün uzunmüddətli hüquqi öhdəliklər almağa çalışır. Barabanovun fikrincə, bu öhdəliklər Ukrayna hakimiyyətinin nöqteyi-nəzərindən münaqişənin mümkün dondurulması halında Rusiya ilə danışıqlarda müsbət rol oynaya və gələcəkdə hərbi əməliyyatların bərpa olunmayacağına zəmanət verə bilər.

MDB Ölkələri İnstitutunun Ukrayna şöbəsinin rəhbəri İvan Skorikov isə hesab edir ki, "Böyük yeddilik" liderlərinin birgə bəyanatı Kiyevin NATO-ya üzvlüyü üçün yol xəritəsi təqdim etmədən tələblərini təmin etmək cəhdidir. Bu, Ukraynaya hərbi texnika, o cümlədən uzaqmənzilli silahlar, "F-16" qırıcıları, kəşfiyyat məlumatlarının ötürülməsi və digər məsələlərlə bağlı alyans dövlətlərinin öhdəliklərinin təsbit edilməsi deməkdir.

### ABŞ-nin Ukraynaya dəstəyi zəifləməyəcək

ABŞ Prezidenti Co Bayden isə iddia edib ki, Birləşmiş Ştatlar təhlükəsiz Avropa olmadan inkişaf edə bilməz. O, bu barədə Vilnüsdə Qərbin Kiyevə dəstəyinə həsr olunmuş çıxışında bildirib. "Son illər ərzində biz trans-Atlantik tərəfdaşlığı yeni zirvələrə qaldıraraq, qlobal sabitliyin lövbəri olan Avropa ilə ABŞ arasında münasibətlərin vacibliyini sübut etdik. ABŞ-nin təhlükəsiz Avropa olmadan çiçəklənə biləcəyi ideyası əsassızdır", - deyə Co Bayden söyləyib.

ABŞ Prezidenti Qərbin Ukraynaya dəstəyinin heç zaman zəifləməyəcəyini bildirib. Onun sözlərinə görə, Birləşmiş Ştatlar Ukraynanın indi və gələcəkdə özünü müdafiə edə bilməsini təmin etmək üçün 50-dən çox ölkədən ibarət koalisiya yaradıb: "Bizim Ukraynaya dəstəyimiz zəifləməyəcək. Biz bu gün, sabah və nə qədər lazımdırsa, azadlığı və müstəqilliyi müdafiə edəcəyik".

### NATO Çinə xəbərdarlıq etdi

NATO-nun baş katibi Yens Stoltenberq Çinin 2035-ci ilə qədər 1500 nüvə başlığına sahib olacağını təxmin etdiklərini bildirib. Stoltenberq Litvanın paytaxtı Vilnüsdə keçirilən NATO sammitinin sonunda keçirdiyi mətbuat konfransında sualları cavablandırarkən belə deyib.

O bildirib ki, həmin ildə Çin bütün Şimali Amerika və Avropaya çata biləcək raketlərə də sahib ola bilər. Təhlükəsizliyin təkcə regional deyil, qlobal xarakter daşıdığını vurğulayan Stoltenberq Çinin hərbi sahəyə böyük sərmayə qoymasına işarə edib. Çinin 2035-ci ilə qədər bütün Şimali Amerika və Avropaya, yəni NATO ərazisinə çata biləcək raketlərdə 1500 nüvə başlığına sahib olacağını gözləyirik. Biz Çinin buna nə qədər yaxınlaşdığını görürük", - deyə Stoltenberq bildirib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Tovuzda Avropa və dünya çempionu ilə görüş

**Tovuz Rayon İcra Hakimiyyətində bu il Rumıniyanın Buxarest şəhərində keçirilən Güləş üzrə Avropa Çempionatında III yer tutan və Türkiyədə keçirilmiş Yaşar Doğu Beynəlxalq Güləş Turnirində qızıl medal alan sərbəst güləşçi Elnurə Məmmədova ilə görüş keçirilmişdir.**





Diqqətə çatdırılmışdır ki, 2002-ci ildə Tovuz rayon Köhnəqala kəndində anadan olan və 2015-ci ildən etibarən idmanın sərbəst güləş növü üzrə məşğul olan Elnurə Məmmədova dəfələrlə mötəbər yarışlarda Azərbaycanı uğurla təmsil etmişdir. O, 2018-ci ildə Türkiyənin Qəbzə şəhərində keçirilən beynəlxalq turnirdə 3-cü yerə çıxmışdır. İştirak etdiyi bütün yarışlarda uğurla çıxış edən tovuzlu güləşçi 2019-cu ildə Türkiyə və Ukraynada keçirilən beynəlxalq yarışlarda ikinci, İtaliyanın Faenza şəhərində keçirilən Yeniyetmə Güləşçilərin Avropa Çempionatında üçüncü, Bakıda keçirilən XV Avropa Gənclər Yay Olimpiya Festivalında və 2022-ci ildə Bolqarıstanda təşkil edilmiş Güləş üzrə VII Avropa Çempionatında ikinci olmuşdur. Romada keçirilən Avropa çempionatında birinci yeri qazanan, Türkiyənin Konya Şəhərində keçirilən İslam oyunlarında üçüncü yerə layiq görülən gənc idmançının cari ildə də uğurları çoxdur. O, Buxarestdə keçirilən Güləş üzrə Avropa Çempionatında iştirak edərək bürünc, Türkiyədə keçirilmiş Yaşar Doğu Beynəlxalq Güləş Turnirində isə ən yüksək pilləyə qalxaraq qızıl medallara layiq görülmüşdür.

Görüşdə rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov çıxış edərək ölkəmizin bütün regionlarında, o cümlədən Tovuzda idmanın inkişafı üçün həyata keçirilən idman siyasətindən danışmış, E.Məmmədovaya bundan sonrakı yarışlarda da uğurlu nəticələr arzulamışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Aşura günündə qanvermə aksiyası hansı məscid və ziyarətgahlarda keçiriləcək?

**Xəbər verildiyi kimi, bu il Aşura günü iyulun 28-nə təsadüf edir. Həmin gün respublikamızın müxtəlif məscid və ziyarətgahlarında qanvermə aksiyası təşkil olunacaq.**

Qafqaz Müsəlmanları İdarəsinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qanvermə aksiyası aşağıdakı məscid və ziyarətgahlarda keçiriləcək:

Bakı şəhəri üzrə:
Xəzər rayonu Mirmövsüm Ağa Ziyarətgahı;
Nəsimi rayonu Göy məscidin (Əjdərbəy) mərasim zalı;
Nizami rayonu "Sahib-əz-Zaman" məscidi;
Səbail rayonu Bibiheybət məscid ziyarətgahı;
Suraxanı rayonu Qaraçuxur məscidi;
Yasamal rayonu Təzə Pir məscidi;
Yasamal rayonu Hacı Soltanəli məscidi;
Binəqədi rayonu İmam Əli məscidi;



Mərkəzi Qan Bankının Gəncə, Lənkəran, Sumqayıt, Mingəçevir, Şəki, Şirvan, Bərdə və Quba bölmələri.

Ümumilikdə qanvermə aksiyaları 8 məscid və ziyarətgahda, habelə 8 səhiyyə müəssisəsində həyata keçiriləcək.


## BİLDİRİŞ

"Bakı Sığorta" ASC-nin Baş ofisi 14.07.2023-cü ildən etibarən yeni ünvanda fəaliyyət göstərəcək.

"Bakı Sığorta" ASC-nin Baş ofisinin yeni ünvanı:

**Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti 120.**

*"Bakı Sığorta" ASC*








## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Rizvan Cəfərova əmisi oğlu

**FİRİDDUNUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərnəşr"in rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzliyə əzizi

**SONA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev və "Azərenerji"nin kollektivi Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzliyə əzizi

**SONA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Nağıyevlər ailəsinə əzizləri

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4987
Sifariş 1722

Qiyməti 40 qəpik